RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 194 (9361) 9 SENTYABR 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR






# Türk həmrəyliyinə Azərbaycan töhfəsi

## Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əlaqələrin möhkəmləndirilməsi dövlətimizin xarici siyasətinin əsas prioritetidir

**Türk dövlətlərinin birliyində özünəməxsus və aparıcı rolu olan Azərbaycan həmrəyliyin daha da güclənməsi və əbədi olması üçün fəal şəkildə əməli işlər həyata keçirir.**

Prezident İlham Əliyevin şəxsi səyləri nəticəsində bu gün türk birliyi ən yüksək əməkdaşlıq zirvəsinə qalxıb və bütün sahələr üzrə yüksələn xətlə inkişaf edir. Sentyabrın 7-də Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi dövlətlərinin təbii fəlakət və fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci görüşünün və "Bakı-2023" beynəlxalq təliminin iştirakçılarını qəbul edən zaman çıxışında Prezident İlham Əliyev vurğuladı ki, "Biz hər zaman bir-birimizin yanında olmalıyıq, Türk Dövlətləri Təşkilatının inkişafı ilə bağlı bütün üzv ölkələr öz dəyərli töhfələrini verirlər, o cümlədən Azərbaycan".

Dövlət başçısı onu da əlavə etdi ki, ölkəmiz bütün dövrlərdə TDT-nin güclənməsinə öz dəstəyini əsirgəməmişdir və Azərbaycanın xarici siyasət prioritetləri arasında bu təşkilata üzv ölkələrlə əlaqələr birinci yer tutur: "Bunu mən Prezident kimi dəfələrlə bəyan etmişəm, eyni zamanda biz bunu əməli işlərdə də göstərmişik".

### Şimali Kiprin bayrağı Azərbaycanda hər zaman dalğalanacaq

Bir məqama diqqət çəkək ki, Bakıda keçirilən sözügedən tədbirdə iştirak edən türk dövlətlərinin nazirləri arasında ilk dəfə olaraq Şimali Kipr Türk Respublikasının (ŞKTC) daxili işlər naziri Dursun Oğuz da iştirak edib.

Prezident İlham Əliyev bu əlamətdar hadisəni məxsusi qeyd edərək qürurla söylədi ki, bu gün bizim aramızda ilk dəfə olaraq Şimali Kiprin nümayəndəsi də iştirak edir. Şimali Kipr türk qardaşlarımızı xüsusilə salamlamaq istədiyini dilə gətirən İlham Əliyev onu da dedi ki, nazir burada müşahidəçi kimi, amma eyni zamanda öz bayrağı ilə təmsil olunur: "Təbii ki, Şimali Kiprin bayrağı da bizim tədbirdə dalğalanmalıdır və dalğalanacaqdır".

Ölkə Prezidentinin vurğuladığı bu qürurverici nüansın özü də Azərbaycanın türk dünyasında birləşən qardaşlarımızın hər zaman yanında olduğunu nümayiş etdirir. Haqq-ədalət yolunda bərabər addımladığını göstərir.

3

## Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun (M-3) bir hissəsinin əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun (M-3) 217-ci kilometrdən 243-cü kilometrədək olan hissəsinin əsaslı təmiri məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 7,0 (yeddi) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 sentyabr 2023-cü il*

## Azərbaycanla Şimali Makedoniyanı dostluq və əməkdaşlıq münasibətləri birləşdirir

### Şimali Makedoniya Respublikasının Prezidenti zati-aliləri cənab Stevo Pendarovskiyə

Hörmətli cənab Prezident!

Şimali Makedoniya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Şimali Makedoniyanı dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. İnanıram ki, ölkələrimizin rifahı naminə mövcud imkanlardan yararlanaraq dostluq münasibətlərimizin möhkəmləndirilməsi, həm ikitərəfli, həm də çoxtərəfli əsasda səmərəli əməkdaşlığımızın bundan sonra da davam etdirilməsi üçün birgə səylər göstərəcəyik.

Tezliklə görüşmək ümidi ilə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost xalqınıza daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 sentyabr 2023-cü il*

## Şimali Kiprin Prezidenti Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edib

**Azərbaycan Prezidenti İlham Əliyevin Bakıda keçirilən Türk Dövlətləri Təşkilatının toplantısında Şimali Kipr Türk Respublikasının (ŞKTC) bayrağının Azərbaycanda keçiriləcək tədbirlərdə dalğalanacağını bəyan etməsindən sonra bu ölkənin Prezidenti Ersin Tatar Azərbaycan Prezidentinə təşəkkür edib.**




AZƏRTAC xəbər verir ki, ŞKTC Prezidentinin saytında yer alan açıqlamada Ersin Tatar bildirib: "Azərbaycan Prezidenti İlham Əliyevin Türk Dövlətləri Təşkilatının Bakıda keçirilən toplantısında Şimali Kipr Türk Respublikasının bayrağının Azərbaycandakı tədbirlərdə dalğalanacağını açıqlamasından məmnuniyyət duydum. Aralıq dənizinin şərqində bir türk dövləti olan ŞKTC varlığını bir millət, üç dövlət anlayışı ilə davam etdirir. Azərbaycan ilə aramızdakı könül birliyinin, dəyərlərin və eyni millətin ayrılmaz hissələri olaraq münasibətlərimizin davamlı inkişafı ən böyük arzumdur".

Ersin Tatar açıqlamasında Prezident İlham Əliyevə bir daha təşəkkürünü ifadə edib, qardaşlıq və əməkdaşlığın sonsuza qədər davam etməsini diləyib.

## Ordubad rayonu istiqamətində yerləşən mövqelərimiz atıcı silahlardan atəşə tutulub

Sentyabrın 8-i saat 13:35-dən 13:45-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Qarakilsə rayonu istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu istiqamətində yerləşən mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətlərdə cavab tədbirləri görülüb.

Bundan başqa, saat 14:00 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Ağdam rayonu istiqamətində yerləşən mövqelərinə yaxınlaşmaq məqsədilə yeni səngər yolları qazmağa cəhd göstəriblər.

Ordumuzun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

## Ordumuz hər an düşmənə cavab verməyə hazırdır

### Torpaqlarımızda təxribat və hərbi cinayətlər törədənlər yollarının Azərbaycan məhkəmələrindən keçəcəyini başa düşürlər

Bir fakta da diqqət çəkək. Azərbaycan Qarabağda yaşayan ermənilərə iki yük maşını un göndərib. Azərbaycanın göndərdiyi sovqatın qarşısı Əsgəranda Ruben Vardanyana tabe olan qanunsuz silahlı dəstənin üzvləri tərəfindən kəsilib. Erməni mediası aylardır "çörəyə həsrət qalan" ermənilərin yolunu kəsərək "etiraz aksiyası" keçirdikləri yerdən ardıcıl olaraq süjet yayımlayır. Məsələ burasındadır ki, kadrlarda texniki vasitələrdən istifadə olunaraq iştirakçıların üzləri göstərilmir. Əgər 2021-ci ildə erməni "idmançı"ların Azərbaycan bayrağını təhqir etmələrini vaxtaşırı tirajlayırdılarsa, sosial şəbəkələrin erməni seqmentində gənclərin "qəhrəman"lıqlarından bəhs edən postlar yazılıb qürurlanırdılarsa, bu gün erməni KİV-i daha ehtiyatlı olmağa üstünlük verirlər.

5

## Belə görünür ki, Ermənistan "dəmir yumruq" üçün darıxıb

Bu hərəkətlər göstərir ki, mənfur qonşumuz çirkin niyyətlərini davam etdirir. Ermənistan separatçıları maliyyəşdirir, onları silahlandırır, Qarabağın erməni ictimaiyyətinin Azərbaycan cəmiyyətinə reinteqrasiya olunmasının qarşısını alır. Həm də Azərbaycanla sərhəddə təxribatlara əl atır və Qarabağda mövcud qeyri-qanuni silahlıların mövqelərinin möhkəmləndirilməsi üçün uzunmüddətli fortifikasiya qurğularının quraşdırılması tapşırıqlarını verir.

Hərbi mənbələrə istinadən yayılan məlumatlarda qeyd olunur ki, Ermənistan ölkəmizlə şərti sərhəddə 1,2,3 və 4-cü hərbi korpusları fəal şəkildə gücləndirib. Həmçinin belə məlumatlar da var ki, İran ərazisindən zirehli texnika və artilleriya mərmiləri erməni hərbi birləşmələrinə çatdırılıb. Ermənistanın yenidən silahlanması bədnam qonşumuzun yeni müharibə arzuladığını göstərir. Lakin təkrar edirəm, Ermənistanın hansı istiqamətlərdən təxribatlara cəhd göstərməsindən asılı olmayaraq, Azərbaycan Ordusu onların qarşısını alacaq.

5



## Ağ Evin ikiüzlü siyasəti

### Vaşinqton Azərbaycanla bərabərhüquqlu tərəfdaşlığa zidd davranış nümayiş etdirir

ABŞ səfirinin indiyə qədər Şuşaya getməməsi, bu ölkənin Qarabağın Azərbaycan torpağı olduğunu dilə gətirmək istəməməsi də elə bundan qaynaqlanır. Üçüncüsü isə, həmin konqresdə məruzəsi dinlənilən məxluq da, Azərbaycan əleyhinə digər çıxış edənlər də ermənilər tərəfindən satın alınmışlar, islamafob yaramazlardırlar. Onlar üçün, ümumiyyətlə, müqəddəs heç bir şey yoxdur.

5

## Paşinyan Kremlə savaş açıb

### Rusiya-Hayastan münasibətləri getdikcə gərginləşir

Ermənistan-Amerika hərbi təlimlərinə gəldikdə, ekspert onları Rusiyaya qarşı tamamilə düşmən hərəkəti adlandırıb. Qeyd edib ki, bu addım onsuz da yaxşı olmayan Rusiya-Ermənistan münasibətlərini ciddi şəkildə çətinləşdirir və daha da pisləşdirəcək.

Görünən odur ki, Paşinyan açıq-aşkar Kremlə savaş açıb və bu durum Rusiya-Hayastan münasibətlərini getdikcə daha da gərginləşdirəcək.



5

## Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 24 may tarixli 274 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xüsusi təyinatlı təhsil müəssisələrinin siyahısı"nda dəyişiklik edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 24 may tarixli 274 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 403, № 7, maddə 619; 2012, № 5, maddə 422, № 12, maddə 1233; 2014, № 5, maddə 483; 2016, № 9, maddə 1476; 2017, № 12 (I kitab), maddə 2307; 2021, № 2, maddə 123; 2022, № 3, maddə 213, № 12, maddə 1441) ilə təsdiq edilmiş "Xüsusi təyinatlı təhsil müəssisələrinin siyahısı"nın 4.4-cü bəndində "Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan" sözləri "Orta İxtisas Polis" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 sentyabr 2023-cü il*

## Almaniyanın xarici işlər naziri Ermənistanın davam edən hərbi təxribatları barədə məlumatlandırılıb

Sentyabrın 8-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Almaniya Federativ Respublikasının xarici işlər naziri Annalena Beerbok ilə telefon danışığı aparıb.





Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı regionda mövcud vəziyyət, habelə Azərbaycan və Ermənistan arasında normallaşma prosesi müzakirə olunub.

Nazir Ceyhun Bayramov bölgədə cari vəziyyət barədə qarşı tərəfi ətraflı məlumatlandıraraq, Ermənistan tərəfindən yayılan "gərgin humanitar vəziyyət" və "blokada" iddialarının əsassız olduğunu, bunun Ermənistanın siyasi manipulyasiyasının tərkib hissəsini təşkil etdiyini diqqətə çatdırıb.

Azərbaycan tərəfindən Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə Ağdam-Xankəndi yolundan və Laçın yolundan yüklərin daşınması üçün sinxronlaşdırılmış istifadənin təşkil edilməsi barədə təkliflərin Ermənistan və yaradılmış qondarma rejim tərəfindən rədd edilməsinin humanitar vəziyyət barədə iddiaların saxta olduğunu sübut etdiyi vurğulanıb. Postmünaqişə dövründə bölgədə sülh və təhlükəsizliyin bərqərar edilməsi istiqamətində səylərə mane olan Ermənistanın təxribatçı addımlarının, o cümlədən Azərbaycan ərazilərində yaradılmış qondarma rejimi dəstəkləyən bəyanatlarının, Azərbaycan ərazilərindən silahlı qüvvələrinin çıxarılmamasının təhdid mənbəyi olduğu qeyd edilib.

Telefon danışığı zamanı Ermənistanın davam edən hərbi təxribatları, mina təhdidləri barədə qarşı tərəfə müfəssəl məlumat verilib.

Daha sonra qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## *Ceyhun BAYRAMOV:* "Azərbaycan ərazilərindən hələ də çıxarılmayan erməni silahlı qüvvələri bölgədə əsas təhdid mənbəyidir"

Sentyabrın 8-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqının (Aİ) Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi/Aİ Komissiyasının vitse-prezidenti Cozep Borel ilə telefon danışığı aparıb.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı Azərbaycan və Avropa İttifaqı arasında əməkdaşlıq perspektivləri, bölgədə cari vəziyyət və Azərbaycan-Ermənistan normallaşma prosesi müzakirə olunub.

Nazir Ceyhun Bayramov regiondakı son vəziyyət barədə Azərbaycanın mövqeyini qarşı tərəfin diqqətinə çatdırıb. Ermənistanın davam edən hərbi-siyasi təxribatlarının, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı bəyanatlarının bölgədə sülh və sabitliyə xidmət etmədiyini vurğulayıb. Ermənistanın bu təxribatlarının qarşısının alınmasının vacib olduğunu qeyd edib.

Ermənistanın Laçın yolundan təxminən iki il yarım ərzində qanunsuz hərbi və digər məqsədlər üçün sui-istifadəni davam etdirməsi barədə ətraflı məlumat verilərək, hazırda heç bir əsas olmadan "bölgədə humanitar vəziyyət" barədə yaydığı iddiaların siyasi manipulyasiya olduğu bildirilib. Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından, eyni zamanda, yüklərin daşınması barədə əldə edilmiş razılığa baxmayaraq, bu razılıqların pozulmasının və daşınmalara qarşı törədilən maneçiliyin bunu bir daha sübut etdiyi diqqətə çatdırılıb.

Azərbaycan ərazilərindən hələ də çıxarılmayan və Ermənistan tərəfindən birbaşa dəstəklənən erməni silahlı qüvvələrinin bölgədə əsas təhdid mənbəyi olduğu vurğulanıb.

Telefon danışığı zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Azərbaycan-Kanada Parlamentlərarası əlaqələr üzrə işçi qrupunun bəyanatı

Biz Azərbaycan- Kanada Parlamentlərarası əlaqələr üzrə işçi qrupu olaraq, Kanada parlamentində Qondarma "Kanada-Artsax Dostluq qrupunun" verdiyi sonuncu bəyanatla bağlı öz dərin hiddətimizi bildiririk.

Kanada parlementində qondarma qrup tərəfindən verilən bəyanat Azərbaycanın suveren hüquqlarına açıq-aşkar hörmətsizlik edərək beynəlxalq hüququn norma və prinsiplərinə ziddir.

Təəssüf doğuran başqa bir məqam da budur ki, bu bəyanat Kanada parlamentində yaradılmış və mövcud olmayan qondarma qurumun "Dostluq qrupu" adından verilmişdir.

Azərbaycan işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işləri apardığı, regionda sülh və təhlükəsizliyin təmin olunması istiqamətində səylər göstərdiyi halda, Qarabağ regionundakı etnik erməniləri girovluqda saxlayan separatçı ünsürlər və onları dəstəkləyən revanşist qüvvələr, həmçinin Ermənistan və onların havadarları bu səyləri pozmaq üçün gecə-gündüz çalışırlar.

Azərbaycan Qarabağda yaşayan etnik ermənilərlə müzakirələr aparmaq, eləcə də həmin erməni sakinlərin Azərbaycan cəmiyyətinə reinteqrasiyasını asanlaşdırmaq üçün xüsusi nümayəndə təyin etmişdir. O cümlədən Azərbaycan Prezidenti cənab İlham Əliyev Azərbaycanın Qarabağ bölgəsində yaşayan etnik erməni sakinlərinin mədəni, dini, təhsil və bələdiyyə hüquqlarının qorunacağına zəmanət vermişdir.

Təəssüflə qeyd etmək istərdik ki, Qarabağ bölgəsindəki separatçı rejim Azərbaycanın təkliflərinə məhəl qoymur, hətta bu təkliflərin reallaşmasına - Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən göndərilən ərzaq yardımlarının etnik ermənilərə çatdırılmasına mane olmaq üçün Ağdam- Xankəndi yolunu bağlamışdır.

Azərbaycanın açıq şəkildə irəli sürdüyü təkliflərdən biri də odur ki, Ağdam-Xankəndi yolu açıldığı təqdirdə, Laçın yolu da işlək vəziyyətə salınacaqdır. Bu təklif təkcə Azərbaycan tərəfindən deyil, beynəlxalq tərəfdaşlar və Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası çərçivəsində keçirilən son müzakirələrdə də təsdiqlənmişdir.

Azərbaycanın Qarabağ bölgəsindəki qondarma separatçı rejim Ermənistanın Azərbaycanın suveren ərazilərini işğalını və etnik təmizləməsini ört-basdır etmək üçün istifadə edilən və hal-hazırda Ermənistan tərəfindən dəstəklənən bir alətdir.

Kanada parlamentində verilən bu kimi bəyanat bir yana qalsın, ümumiyyətlə, Kanada parlamentində belə bir qrupun olması, Kanadanın xarici siyasəti, beynəlxalq hüququn norma və prinsiplərində tutduğu mövqeyinə ziddir və biz də bunu doğru hesab etmirik.

Kanada parlamenti Ermənistanın bu cür təxribat xarakterli bəyanatlarına qarşı ayıq olmalı, regionda sülh prosesini, həmçinin parlamentlərimiz arasında dostluq münasibətlərinin qorunması üçün öz mövqeyini açıq şəkildə bildirməli və parlamentdə münasibətlərimizə xələl gətirən addımların atılmasına yol verməməlidir.

# Azərbaycanda akkreditə olunmuş diplomatik korpus üçün bölgədə cari vəziyyətlə əlaqədar brifinq keçirilib

Sentyabrın 8-də Azərbaycanın Xarici İşlər Nazirliyində nazir Ceyhun Bayramov, Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovun iştirakı ilə ölkəmizdə akkreditə olunmuş diplomatik korpus üçün brifinq keçirilib.










AZƏRTAC xəbər verir ki, brifinq zamanı aşağıdakı əsas məqamlar vurğulanıb:

Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşma prosesi ciddi çağırışlarla üzləşir;

Ermənistan tərəfinin müşahidə etdiyimiz davranışı 30 il ərzində bu ölkəyə xas olan danışıqların imitasiyası, əldə olunmuş öncəki razılaşmalardan geri çəkilmək və müxtəlif siyasi, hərbi və digər təxribatlara əl atmaqla üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsindən boyun qaçırmaq təcrübəsinin təkrarıdır;

Ermənistan ayrı-ayrı dövlətlər və beynəlxalq təşkilatlardan sui-istifadə etmək üçün mövcud bütün imkanların istifadəsi ilə bölgədə guya "blokada" və "humanitar böhran"ın mövcudluğu haqqında yalan və əsassız iddialarla Azərbaycana qarşı bütün dünyada qarayaxma kampaniyası aparmaqla məşğuldur;

Spesifik olaraq detallara varmazdan öncə, Rusiya Federasiyası, Amerika Birləşmiş Ştatları, Avropa İttifaqı və ya BQXK kimi müxtəlif beynəlxalq aktorlar vasitəsilə aparılan bütün qarşılıqlı təmaslar zamanı Ermənistanın real danışıqlardan yayındığı, qeyri-səmimi davranış sərgilədiyi və öncədən əldə edilmiş bütün razılaşmalar və qarşılıqlı anlaşmalara zərbə vurduğu vurğulanmalıdır;

Ermənistanın məqsədi Azərbaycan ərazisində separatizmi bütün mümkün ideoloji, siyasi, hərbi, maliyyə və digər vasitələrlə qoruyub saxlamaqdan ibarətdir. Bu məqsədlə Ermənistan vaxt qazanmağa çalışır və danışıqların bütün istiqamətləri üzrə irəliləyişi təmin edə biləcək real addımlardan yayınır;

Erməni sakinlərin ehtiyaclarını ödəmək üçün Qarabağ bölgəsinə malların çatdırılması ilə bağlı yaranmış vəziyyət bunun bariz nümunəsidir. Müxtəlif üçüncü tərəflər vasitəsilə aparılan danışıqların xronologiyası bir şeyi, yəni Ermənistanın danışıqlar masasında həll yolları tapmaqda maraqlı olmadığını sübut edir;

Ermənistan Laçın yolundan təxminən iki il yarım ərzində qanunsuz hərbi və digər məqsədlər üçün istifadə etdi. Bu istiqamətdə bizim heç bir çağırışımıza məhəl qoyulmadı və Azərbaycanın legitim və faktlara əsaslanan narahatlığını aradan qaldırmaq üçün heç bir tədbir görülmədi;

2023-cü il aprelin 23-də Azərbaycan bu yoldan sui-istifadə hallarının qarşısının alınması, eyni zamanda sərhəddən hüquqi, şəffaf və tənzimlənən keçidin təmin edilməsi məqsədilə dövlət sərhədində sərhəd-buraxılış məntəqəsi təsis etdi. Bütün ittihamlara baxmayaraq, sərhəd-buraxılış məntəqəsi çox həssas şəraitdə nümunəvi şəkildə fəaliyyət göstərirdi;

Azərbaycan sərhəddən maneəsiz keçidin təmin edilməsi üçün müvafiq dövlət qurumları, o cümlədən gömrük və sərhəd xidmətləri arasında işçi təmasların yaradılması ilə bağlı Ermənistan tərəfinə dəfələrlə müraciətlər ünvanladı. Lakin bu müraciətlərə münasibətdə heç bir qarşılıq nümayiş olunmadı;

Ermənistan isə Azərbaycanın öz sərhədində nəzarət-buraxılış məntəqəsi təsis etmək hüququna etirazlarına davam etdi, bu istiqamətdə Beynəlxalq Ədalət Məhkəməsi və digər instansiyalardan sui-istifadə etməyə çalışdı. Yerli erməni sakinlər tərəfindən sərhəd-buraxılış məntəqəsindən istifadənin intensivləşməsi fonunda bütün bu cəhdlərində uğursuzluğa düçar olmuş Ermənistan 15 iyun tarixində açıq hərbi təxribat törətdi. Bu təxribatla sərhəd-buraxılış məntəqəsindən keçən sakinləri və əvvəlcədən planlaşdırılan tibbi evakuasiya əməliyyatı üçün yaxınlıqda olan BQXK əməkdaşlarını riskə atdı;

Bu təxribatdan sonra BQXK-nın avtomobillərindən qaçaqmalçılıq məqsədilə istifadəyə cəhd göstərildi. Bu fakt BQXK tərəfindən də təsdiqləndi;

Bu təxribatlara baxmayaraq, tibbi evakuasiya və digər təxirəsalınmaz məqsədlər üçün nəzarət-buraxılış məntəqəsindən keçid bu günə qədər davam edir. İyunun 15-dən BQXK bu istiqamətdə 27 əməliyyat keçirib, Ermənistanın 312 sakini 208 nəfərin müşayiəti ilə (ümumilikdə 520 nəfər) Ermənistana gedib, 380 nəfər isə müalicəsi başa çatdıqdan sonra Qarabağa qayıdıb. Bu əməliyyatlar zamanı hər iki istiqamətdə 425 BQXK nəqliyyat vasitəsinin keçidi qeydə alınıb. Qarabağa qayıdarkən onlar dərman, uşaq qidası kimi zəruri malları da özləri ilə gətirməkdədirlər. Beləliklə, iyunun 15-dən Qarabağa heç bir məhsulun ötürülməməsi iddiasının heç bir əsasının olmaması ilə yanaşı, sadəcə həqiqətə uyğun deyil;

Sərhəd-buraxılış məntəqəsindən keçidi asanlaşdırmağa davam etməklə yanaşı, Azərbaycan rəsmi olaraq, yerli sakinlərin ehtiyaclarını ödəmək üçün yüklərin çatdırılması məqsədilə digər yollardan istifadəni təklif etdi;

Bu təklif 15 iyul tarixində Şarl Mişelin iştirakı ilə keçirilən liderlər görüşü çərçivəsində də geniş müzakirə olunub. Təsadüfi deyil ki, bu məsələ cənab Mişelin görüşün yekunlarına dair bəyanatında da öz əksini tapıb;

İyulun 25-də Moskvada bir neçə yolun sinxron istifadəsi məsələsi xarici işlər nazirlərinin üçtərəfli görüşündə yenidən müzakirə mövzusu oldu. Bu, Rusiya tərəfinin təklif etdiyi formula idi. Azərbaycan bu variantı nəzərdən keçirməyə hazır olduğunu bildirərək yekunda öz razılığını verdi. Ermənistan isə konkret müzakirələrdən nümayişkaranə yayındı;

Bunun qarşılığında, Ermənistan ertəsi gün əvvəlcədən planlaşdırılan daha bir təxribata əl ataraq sərhədə "humanitar konvoy" göndərdi. Bu, beynəlxalq ictimai rəyi manipulyasiya etmək və bu istiqamətdə növbəti addımlar üçün zəmin yaratmaq məqsədilə törədilmiş açıq təxribat idi;

Rusiya Federasiyası, ABŞ və Avropa İttifaqı Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından sinxron istifadənin həyata keçirilməsinin, habelə mərkəzi hökumətin xüsusi nümayəndəsinin yerli sakinlərlə görüşünün təşkili üçün müvafiq iş aparıldı;

Nəhayət, avqustun 4-də hər iki məsələ ilə bağlı razılıq əldə olundu. Bununla, sözügedən yolların ardıcıl şəkildə açılması və Yevlaxda görüşün təşkili məsələləri razılaşdırıldı. İştirak edən bütün maraqlı tərəflər, o cümlədən BQXK və sülhməramlı kontingent razılaşmaların həyata keçirilməsinin təşkilinə hazır idilər. Lakin son anda Ermənistan tərəfi siyasi motivli qanunsuz bəhanələr irəli sürərək hər iki razılaşmadan geri çəkildi;

Bunun ardınca, BMT Təhlükəsizlik Şurasının bu məsələyə müdaxiləsi üçün zəmin yaratmaq məqsədilə Ermənistan tərəfindən bütün dünyada aparılan qarayaxma kampaniyası intensivləşməyə başladı. Ermənistanın BMT TŞ-dən Azərbaycana qarşı addımları üçün istifadə etmək cəhdi uğursuzluğa düçar oldu. Ermənistanın gözləntilərinin əksinə, BMT TŞ-nin əksər üzvləri humanitar yardımın çatdırılmasının siyasiləşdirilməsinə qarşı çıxdı, bu cür yükdaşımaların həyata keçirilməsi üçün bütün marşrutların açılmasına çağırdılar və birbaşa dialoqa ehtiyac olduğunu vurğuladılar;

Azərbaycan Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından sinxronlaşdırılmış istifadə formulasının həyata keçirilməsi üçün bütün tərəfdaşlarla qarşılıqlı fəaliyyətini davam etdirdi;

Bu yaxınlarda ABŞ ilə yüksəksəviyyəli təmaslar zamanı Ağdam-Xankəndi və Laçın yollarından eyni vaxtda istifadə məsələsi bir daha ətraflı müzakirə edildi. Ermənistanın Amerika tərəfi vasitəsilə çatdırdığı narahatlığını nəzərə alaraq, Azərbaycan yolların ardıcıl açılması təklifini hər iki yolla yüklərin eyni vaxtda çatdırılması formasında dəyişdirməyə razılıq verdi. Amerika tərəfi bunu konstruktivliyin əlaməti kimi müsbət qəbul etdi. Müvafiq amerikalı həmkarlara bu mesajı aidiyyəti üzrə Ermənistan tərəfinə çatdırmaq və sövdələşmənin həyata keçirilməsi üzərində işləmək tapşırıldı. Lakin yenə də bu razılığın da həyata keçirilməsi reallaşdırıla bilmədi;

Hazırda Azərbaycan Qızıl Aypara Cəmiyyətinin iki yük maşını erməni sakinlərə un çatdırmaq üçün yerində gözləyir;

Azərbaycan məsələnin həlli üçün yol tapmaqda maraqlıdır və bunu öz xoş məramını, habelə vasitəçilik xidmətlərini təklif edən hər kəslə qurduğu səmimi qarşılıqlı əlaqəsi ilə sübut edib. Bütün hallarda, istisnasız olaraq, Ermənistan tərəfi öncədən əldə edilmiş razılaşmaları müxtəlif bəhanələrlə pozub. Əsl məqsəd isə vəziyyəti uzatmaq, gərginliyi süni şəkildə alovlandırmaq və nəticədə normallaşma prosesini pozmaqdan ibarətdir;

Ermənistanın vəziyyəti beynəlxalq birliyə "humanitar" xarakterli məsələ kimi təqdim etməyə çalışmasının, əslində Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı yönəlmiş utanmaz bir siyasi kampaniya olması tamamilə aydındır və bu, heç bir şübhə doğurmamalıdır;

Vəziyyət humanitar məsələ olsa idi, həftələr öncədən bir neçə yolun sinxronlaşdırılmış istifadəsi təklifi əsasında həll edilə bilərdi. Qarabağ bölgəsinin erməni sakinlərinin humanitar ehtiyacları bəhanəsi ilə Ermənistan, əslində bu insanları separatizm siyasətinin qurbanına çevirdi və hazırda dözümsüzlük və nifrətə əsaslanan fikirlərini yaymaqda davam edir;

Bu faktdır ki, Ermənistan BQXK-nın Azərbaycan Nümayəndəliyinin mandatının həyata keçirilməsində daim maneələr törədir;

Yüklərin çatdırılması məsələsi ilə bağlı vəziyyət Ermənistanın Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı yönəlmiş hərbi və siyasi təxribatları ilə eyni zamanda baş verir;

Ermənistanın təxminən 10 min nəfərlik silahlı qüvvələri Azərbaycan ərazisində qeyri-qanuni mövcudluğunu davam etdirir. Onlarla tank və digər zirehli texnika, 200-dən çox ağır artilleriya silahı, o cümlədən reaktiv yaylım atəşi sistemləri, onlarla müxtəlif növ radioelektron mübarizə vasitələri, 200-ə yaxın minaatan hazırda Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində yerləşdirilib;

Ermənistan öhdəliklərini pozaraq bu qüvvələrin saxlanılması üçün texniki, hərbi, maddi-texniki və maliyyə dəstəyi göstərir. Azərbaycan ərazisində saxlanılan silahlı birləşmələr birbaşa Ermənistanın dövlət büdcəsindən maliyyələşir;

Son günlər həm delimitasiya olunmamış dövlət sərhədi boyunca, həm də Qarabağ bölgəsində hərbi quruculuq işlərinin artması ilə müşayiət olunan hərbi təxribatların daha da intensivləşməsi müşahidə olunur. Ermənistan açıq şəkildə növbəti hərbi avantüraya girmək üçün yeni səngərlər qazır, istehkamlar qurur, şəxsi heyət və texnika toplayır;

Azərbaycanın Qarabağ bölgəsi daxil olmaqla ərazi bütövlüyünü tanıması ilə bağlı əvvəlki bəyanatına baxmayaraq, Ermənistanın baş naziri Azərbaycan ərazilərində qurulmuş qondarma quruluşun yaradılmasının "ildönümü" münasibətilə qondarma "təbrik mesajı" verərək daha bir son dərəcə təxribatçı addım atdı;

Ermənistan baş naziri bir daha "erməni sakinlərin öz müqəddəratını təyinetmə hüququ"na istinad edərək, Ermənistanın bu sakinlərlə bağlı məsələlərə onların təhlükəsizliyi və hüquqları bəhanəsi altında müdaxiləyə davam edəcəyini təsdiqlədi. Beləliklə, o, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tanınması ilə bağlı əvvəlki bəyanatını mahiyyətcə heçə endirmiş oldu;

Xatırladaq ki, bu taktika Ermənistan tərəfindən 30 il ərzində Azərbaycan ərazilərinin işğalını davam etdirmək üçün istifadə edilib. Baş nazirin mesajı Ermənistanın Azərbaycana qarşı ərazi iddialarından əl çəkməməsinin növbəti təsdiqindən başqa bir şey deyil, bu ölkə bütün mövcud vasitələrlə, o cümlədən siyasi, hərbi və maliyyə dəstəyi ilə ərazimizdə separatçılığın qızışdırılmasını dayandırmaq niyyətində deyil;

Ermənistanın Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tanımasına baxmayaraq, bu ölkənin müxtəlif beynəlxalq təşkilatlarda akkreditə olunmuş diplomatik nümayəndəlikləri yenə də qanunsuz rejim adından müxtəlif növ sənədlər yaymaqda davam edirlər;

Bu qeyri-qanuni qurumun "prezidentinin" planlaşdırılan qondarma "seçkiləri" son dərəcə təxribatçı addımdır. Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bu cür açıq şəkildə pozulması heç bir halda məqbul və qəbuledilən deyil;

Qeyd olunan Ermənistan tərəfindən törədilmiş təxribatlar normallaşma prosesinə mənfi təsir göstərir və beynəlxalq aktorların bu istiqamətdə səylərini heçə endirir. Ermənistanın məsuliyyətsiz və destruktiv davranışından irəli gələn risk və təhdidlərin adekvat şəkildə başa düşülməsi və Ermənistanı bu cür hərəkətlərdən çəkindirmək üçün müvafiq tədbirlərin görülməsi zəruridir;

Azərbaycanın sülh prosesinə sadiqliyi möhkəmdir və bu mövqe 2020-ci ilin noyabr ayından etibarən atdığımız ardıcıl addımlarla sübut edilib. Suverenliyimizi və ərazi bütövlüyümüzü qorumaq əzmimiz eyni dərəcədə möhkəm və qətiyyətlidir.

# Parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində 12 məsələ müzakirə edilib



Sentyabrın 8-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin 2023-cü ilin payız sessiyasında ilk iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda komitə sədri Səməd Seyidov regiondakı vəziyyət barədə fikirlərini açıqlayıb. O, Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasətin regionda sülhü, təhlükəsizliyi, tərəqqini təmin etməyə yönəldiyini vurğulayaraq hökumətin və parlamentin fəaliyyətinin ölkəmizin dünyada mövqeyinin möhkəmlənməsinə gətirib çıxardığını bildirib. Qeyd edilib ki, Azərbaycanın apardığı siyasətə heç kim müdaxilə edə bilməz.

Sonra iclasın gündəliyinə daxil edilmiş 12 məsələyə baxılıb.

Komitə sədri Səməd Seyidov əvvəlcə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin 2023-cü ilin yaz və növbədənkənar sessiyaları ərzində gördüyü işlər barədə hesabatı təqdim edib. Bildirilib ki, bu müddətdə komitənin iclaslarda bir sıra qanun layihələri, Azərbaycan Respublikası ilə xarici ölkələr arasında bağlanmış beynəlxalq müqavilələr, digər sənədlər müzakirə olunub və Milli Məclisin müzakirəsinə tövsiyə edilib. Həmçinin ötən sessiyalar ərzində komitənin sədri və üzvləri xarici dövlətlərin və təşkilatların nümayəndələri ilə bir sıra görüşlər keçiriblər. O, hesabat dövründə komitəyə daxil olan müraciətlərlə bağlı görülən müvafiq tədbirləri də diqqətə çatdırıb.

Səməd Seyidov Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin 2023-cü ilin payız sessiyası üçün iş planının layihəsi barədə danışarkən bildirib ki, bu sessiyada qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim edilən qanun layihələrinə, habelə beynəlxalq və dövlətlərarası müqavilələrə dair sənədlərə baxılacaq. Bu müddətdə Milli Məclisin parlamentlərarası əlaqələrinin daha da inkişaf etdirilməsi, xarici ölkələrdə yaşayan soydaşlarımızla əlaqələrin möhkəmləndirilməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması ilə bağlı məqsədyönlü fəaliyyətin davam etdirilməsi, ölkəmizin beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişafı istiqamətində addımların həyata keçirilməsi planlaşdırılır.

Sonra iclasda bir sıra beynəlxalq sənədlərlə bağlı qanun layihələrinə baxılıb.

Komitə sədri "Azərbaycan Respublikası ilə Slovakiya Respublikası arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş"in təsdiq edilməsi barədə, "Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə, "Azərbaycan Respublikası Hökuməti və Türkdilli Ölkələrin Parlament Assambleyasının Katibliyi (TürkPA Katibliyi) arasında yerləşmə haqqında Saziş"ə dəyişikliklər edilməsinə dair Protokol"un təsdiq edilməsi barədə, "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Azərbaycan-Özbəkistan İnvestisiya Fondunun yaradılması haqqında 2023-cü il 24 fevral tarixli Saziş"ə dəyişikliklərin edilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında, "Ümumdünya Poçt İttifaqının Nizamnaməsinə On Birinci Əlavə Protokol"a qoşulmaq haqqında, "Ümumdünya Poçt İttifaqının Ümumi Reqlamentinə Üçüncü Əlavə Protokol"a qoşulmaq haqqında, "Ümumdünya Poçt Konvensiyası"na və "Ümumdünya Poçt Konvensiyasının Yekun Protokolu"na qoşulmaq haqqında, "Poçt ödəniş xidmətləri haqqında Saziş"ə və "Poçt ödəniş xidmətləri haqqında Saziş"in Yekun Protokolu"na qoşulmaq barədə, "Hava gəmilərində törədilmiş cinayətlər və bəzi digər aktlar haqqında" Konvensiyada dəyişiklik edilməsinə dair Protokola qoşulmaq barədə, "Beynəlxalq Əmək Təşkilatının Nizamnaməsində dəyişiklik edilməsi haqqında 1986-cı il tarixli sənəd"in təsdiq edilməsi barədə qanun layihələrinin mahiyyəti haqqında məlumat verib.

Məsələlərin müzakirəsində komitə üzvləri Nəsib Məhəməliyev, Sahib Alıyev və Sabir Rüstəmxanlı çıxış ediblər, fikirlərini və təkliflərini səsləndiriblər. Deputatlar komitənin 2023-cü ilin yaz və növbədənkənar sessiyaları ərzində gördüyü işləri qənaətbəxş sayıblar, həmçinin 2023-cü ilin payız sessiyası üçün iş planının layihəsini təsdiqləyiblər, gündəlikdəki qanun layihələrini Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

Sonra cari məsələlərdə ölkəmizin bədxahları tərəfindən humanitar məsələlərlə bağlı Azərbaycana qarşı həyata keçirilən manipulyasiyalar, bəzi dəyərlərdən sui-istifadə edərək təzyiq göstərmək cəhdləri müzakirə olunub.

*"Azərbaycan"*

# Türk həmrəyliyinə Azərbaycan töhfəsi

## Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əlaqələrin möhkəmləndirilməsi dövlətimizin xarici siyasətinin əsas prioritetidir

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyevin Bakıda keçirilən Türk Dövlətləri Təşkilatının toplantısında Şimali Kipr Türk Respublikasının bayrağının Azərbaycanda keçiriləcək tədbirlərdə dalğalanacağını bəyan etməsindən sonra bu ölkənin Prezidenti Ersin Tatar Azərbaycan Prezidentinə təşəkkür edib.

ŞKTC Prezidentinin saytında yer alan açıqlamada Ersin Tatar bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin Türk Dövlətləri Təşkilatının Bakıda keçirilən toplantısında Şimali Kipr Türk Respublikasının bayrağının Azərbaycandakı tədbirlərdə dalğalancağını açıqlamasından məmnuniyyət duyub: "Aralıq dənizinin şərqində bir türk dövləti olan ŞKTC varlığını bir millət, üç dövlət anlayışı ilə davam etdirir. Azərbaycan ilə aramızdakı könül birliyinin, dəyərlərin və eyni millətin ayrılmaz hissələri olaraq münasibətlərimizin davamlı inkişafı ən böyük arzumdur".

### Türk dünyasının zəfəri

Milli köklərimizlə, ortaq dəyərlərimizlə, dil, din birliyimizlə sıx bağlı olduğumuz türk xalqlarının, dövlətlərinin həmrəyliyini həm də zamanın çağırışı kimi xarakterizə etsək, heç də yanılmarıq.

Azərbaycan xalqı olaraq güclü türk birliyinin əhəmiyyətini hələ Vətən müharibəsi zamanı əyani şəkildə gördük. O zaman qardaş Türkiyənin verdiyi siyasi və mənəvi dəstək Qarabağda Şuşa zəfərini çalmağımıza böyük kömək oldu. Eləcə də digər qardaş türk dövlətləri Azərbaycan xalqının, dövlətinin yanında olduğunu nümayiş etdirdi. Bütün türk dünyası parlaq zəfərimizi öz qələbəsi saydı, bizimlə birgə qürurlandı.

İşğaldan azad edilən torpaqlarımızda erməni vəhşiliyinə tuş gələn infrastrukturumuzun bərpa olunması istiqamətində türkdilli ölkələr Azərbaycana dəstəklərini göstərirlər. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilərək bu yaxınlarda açılışı həyata keçirilən Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəb də bu dəstəyin bariz nümunələrindən biridir.

Gerçəklikdir ki, Azərbaycanın Vətən müharibəsi zamanı işğalçı Ermənistan üzərində qələbəsi tarixən var olan türk birliyinin etnosiyasi coğrafiyasını da bərpa edib, türk birliyinin bir-biri ilə əlaqələrini daha da intensivləşdirəcək yeni yolların açılmasına rəvac verib.

Qazandığı zəfərə və türk dünyasının birgəliyinə verdiyi bu töhfəsinə görə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 2022-ci il noyabrın 12-də İstanbulda keçirilən VIII Zirvə Görüşü zamanı Prezident İlham Əliyev Türk Dünyasının Ali Ordeninə layiq görülüb.

### Tezliklə Qəhrəmanmaraşda Azərbaycan şəhərinin inşasına başlanılacaq

Əlaqələri və əməkdaşlığı daha da güclənən Türk Dövlətləri Təşkilatına üzv dövlətlər dünyada baş verən bütün qlobal siyasi proseslərə, eləcə də təbii böhranlara qarşı birgə mübarizə aparırlar. 2023-cü il fevralın 6-da qardaş Türkiyədə baş verən ardıcıl iki dəhşətli zəlzələnin fəsadlarının aradan qaldırılması istiqamətində də qardaş ölkələr səylərini birləşdirdilər. Azərbaycan da maddi-mənəvi dəstəyi ilə zəlzələnin baş verdiyi gündən etibarən qardaş Türkiyənin yanında oldu.

Məhz Prezident İlham Əliyevin təşəbbüsü ilə martın 16-da Türkiyənin paytaxtı Ankarada, əslində Şuşada keçirilməsi planlaşdırılan, Türk Dövlətləri Təşkilatının dövlət başçılarının fövqəladə Zirvə görüşü keçirildi.

Bu Zirvə görüşü zamanı Türkiyədə baş verən zəlzələ nəticəsində yaranan fövqəladə vəziyyətlə bağlı məsələlər ən yüksək səviyyədə müzakirə edildi.

Sentyabrın 7-də Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi dövlətlərinin təbii fəlakət və fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci görüşünün və "Bakı-2023" beynəlxalq təliminin iştirakçılarını qəbul edən zaman Prezident İlham Əliyev bu məsələyə toxunaraq, son vaxtlar bölgəmizdə və bütövlükdə dünyada fövqəladə halların sayının kəskin artdığını söylədi. Dövlət başçısı qardaş Türkiyədə dəhşətli zəlzələdə həlak olanların xatirəsini hörmətlə anaraq və bir daha başsağlığı verərək söylədi ki, Azərbaycan ilk saatlardan, ilk dəqiqələrdən bu dəhşətli zəlzələ ilə bağlı öz səylərini göstərmişdir: "Hazırda Qəhrəmanmaraş şəhərində Azərbaycan dövləti tərəfindən inşa ediləcək şəhərciyin son parametrləri müəyyən edilir və yaxın zamanlarda biz inşaata başlayacağıq".

### TDT-nin dünyadakı mövqeyi və rolu daha da artacaq

Göründüyü kimi, bütün sahələr üzrə türk dünyasının birliyi getdikcə güclənir və Azərbaycanın bu həmrəyliyə töhfələri böyükdür. Bu isə dünyada baş verən istər qlobal siyasi, iqtisadi, sosial problemlərə, istərsə də təbii böhranlara qarşı türkün sarsılmaz gücü ilə çıxmağımıza rəvac verir. Buna görə də bütün üzv dövlətlər Türk Dövlətləri Təşkilatının dünyada nüfuzunun qat-qat artması üçün hər zaman fəal dəstək göstərməlidirlər.

Prezident İlham Əliyevin vurğuladığı kimi: "Bu gün dünya miqyasında Türk Dövlətləri Təşkilatı öz layiqli yerini tuta bilibdir. Ancaq bundan sonra da fəal çalışmalıyıq ki, bizim təsir imkanlarımız daha da geniş olsun... Əminəm ki, yaxın gələcəkdə bizim təşkilatımızın dünyadakı mövqeyi və rolu daha da artacaqdır".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# "Bakı 2023" türk ölkələri arasında fövqəladə hallarla mübarizədə birgə fəaliyyət üçün əhəmiyyətli töhfə verəcək

Fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi ölkələrin Fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci iclasında iştirak etmək üçün ölkəmizə səfərə gəlmiş TDT-nin Baş katibi Kubanıçbek Ömüraliyev ilə görüşüb.



Bu barədə AZƏRTAC-a nazirliyin Mətbuat xidmətindən məlumat verilib.

Fövqəladə Hallar Nazirliyində keçirilən görüşdə nazir K.Heydərov TDT-nin Baş katibi Kubanıçbek Ömüraliyevin ölkəmizə səfərinin və bu səfər çərçivəsində keçirilən görüşlərin, aparılan müzakirələrin təşkilat çərçivəsində fövqəladə hallarla mübarizə üzrə əlaqələrin dərinləşməsinə təkan verəcəyinə əminliyini bildirib.

Ölkəmizdə fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması mexanizmlərinin daim təkmilləşdirilməsinin diqqət mərkəzində saxlanıldığını qeyd edən nazir, bu kontekstdə TDT çərçivəsində əməkdaşlığın genişləndirilməsinin aktual əhəmiyyət kəsb etdiyini deyib. TDT-nin Mülki Müdafiə Mexanizminin yaradılmasının təşkilata üzv və müşahidəçi ölkələrdə fövqəladə hallarla mübarizənin daha etibarlı səviyyədə təşkil olunmasına şərait yaradacağı vurğulanıb.

TDT-nin Baş katibi Kubanıçbek Ömüraliyev ölkəmizdə səfərdə olmaqdan məmnunluğunu ifadə edib, təşkilata üzv və müşahidəçi ölkələrin fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci iclasının əhəmiyyətini vurğulayıb. Qonaq təşkilata üzv ölkələrin fövqəladə halların idarə edilməsinə məsul qurumlarının qüvvələrinin iştirakı ilə uğurla keçirilmiş beynəlxalq təlimin türk ölkələri arasında fövqəladə hallarla mübarizədə birgə fəaliyyət mexanizminin həyata keçirilməsi, real imkanların müəyyən edilməsi və idarəetmə sisteminin təkmilləşdirilməsinə əhəmiyyətli töhfə verəcəyinə əmin olduğunu vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər geniş müzakirə edilib.

# Rusiya Ermənistana nota verib

Ermənistanın Rusiyadakı səfiri Vaqarşak Arutunyan Xarici İşlər Nazirliyinə çağırılıb. AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya XİN məlumat yayıb.

Bildirilib ki, Rusiya tərəfi son vaxtlar Ermənistan rəsmi dairələrində və siyasi elitasında Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzvlük və ikitərəfli müttəfiqlik əlaqələrinin davam etdirilməsi ilə bağlı, eləcə də Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasına dair 2020-2022-ci illərdə Moskva, Bakı və İrəvan tərəfindən imzalanmış sazişlərin həyata keçirilməsinə müəyyən şübhələrin olduğunu qeydə alıb.

Məlumatda deyilir ki, bu fonda Ermənistan rəhbərliyi bir sıra tədbirlər, o cümlədən Roma statusunun ratifikasiya edilməsi, baş nazirin arvadı Anna Akopyanın Kiyevə səfər etməsi və humanitar yardım aparması, Ermənistan ərazisində ABŞ-nin iştirakı ilə hərbi təlimlər keçirilməsi kimi qeyri-dost tədbirlər həyata keçirir.

Bununla əlaqədar, Rusiya XİN Ermənistanın Moskvadakı səfiri Vaqarşak Arutunyanı xarici siyasət idarəsinə çağıraraq kəskin etiraz edib və ona nota verib.

Notada Ermənistan parlamentinin sədri Alen Simonyanın Rusiya XİN-in rəsmi nümayəndəsi, informasiya və mətbuat departamentinin direktoru Mariya Zaxarovanın və bütövlükdə Rusiya XİN-in ünvanına təhqiredici ifadələr işlətməsinin yolverilməzliyi də əksini tapıb. Bundan əlavə, sənəddə jurnalist Gevorkyan və bloger Badalyanın saxlanılması ilə bağlı narahatlıq ifadə olunub.

Məlumatda vurğulanır ki, Rusiya və Ermənistan müttəfiq olaraq qalır və tərəfdaşlıq əlaqələrinin möhkəmlənməsinə yönəldilmiş bütün razılaşmalar yerinə yetiriləcək.

Rusiya XİN bunun KTMT təlimlərinin təşkili, Ermənistan-Azərbaycan münasibətlərinin nizama salınması üçün KTMT missiyasının Ermənistana göndərilməsinə də aid olduğunu diqqətə çatdırıb.

# Qanunsuz erməni silahlılarının Şuşa istiqamətində fortifikasiya qurğuları quraşdırmasının qarşısı alınıb

Sentyabrın 8-i saat 19:05-də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Şuşa rayonu istiqamətində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib. Ordumuzun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

# Hava hücumundan müdafiə bölmələrinin peşəkarlığı artırılır

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi hazırlıq planına uyğun olaraq hava hücumundan müdafiə bölmələrinin döyüş atışlı məşğələləri keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, şəxsi heyətin praktiki vərdişlərinin təkmilləşdirilməsi və döyüş qabiliyyətinin yüksəldilməsi məqsədilə keçirilən təlimdə döyüş atışları icra olunub.

Şərti düşmənin hava hədəflərinin aşkar olunaraq daşınan zenit-raket kompleksləri vasitəsilə məhv edilməsi üzrə qarşıya qoyulan döyüş tapşırıqları müvəffəqiyyətlə yerinə yetirilib.

Azərbaycan Ordusunun müxtəlif qoşun növlərində hərbi qulluqçuların bilik və bacarıqlarının artırılması, döyüş hazırlığının yüksək səviyyədə saxlanılması məqsədilə keçirilən təlimlər davam edir.



# Ombudsman beynəlxalq konfransda Ermənistanın etnik təmizləmə siyasəti barədə danışıb

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Qazaxıstanın Konstitusiya Məhkəməsinin 28-ci ildönümünə həsr olunmuş "Konstitusiya ədalət mühakiməsi: hamı üçün ləyaqət, azadlıq və ədalət" mövzusunda beynəlxalq konfransda iştirak edib.



Ombudsman Aparatının Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, xarici ölkələrin Konstitusiya məhkəmələrinin rəhbər şəxslərinin, ombudsmanların və beynəlxalq təşkilatların nümayəndələrinin iştirak etdiyi tədbirdə çıxışı zamanı müvəkkil ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində həyata keçirilən islahatlar, yaradılmış yeni hüquq müdafiə mexanizmləri barədə məlumat verib. İnsan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi istiqamətində ombudsman institutları ilə Konstitusiya məhkəmələri arasındakı əməkdaşlığın əhəmiyyətini vurğulayan S.Əliyeva ölkəmizdə bu sahədə yaradılmış müsbət əməkdaşlıq əlaqələrindən bəhs edib, fəaliyyət dövrü ərzində indiyədək müvəkkil tərəfindən Konstitusiya Məhkəməsinə ünvanlanmış 40-dan çox sorğuya baxıldığını bildirib.

Ombudsman Ermənistanın işğalçılıq və etnik təmizləmə siyasəti nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin 30 il ərzində işğal altında saxlanıldığını, bir milyondan artıq soydaşımızın hüquqlarının kobud şəkildə pozulduğunu, qaçqın və məcburi köçkün həyatı yaşadığını qeyd edib, hazırda Azərbaycan dövləti tərəfindən keçmiş məcburi köçkünlərin hüquqlarının bərpası istiqamətində kompleks tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb.

S.Əliyeva işğal dövründə ərazilərimizdəki infrastrukturun tamamilə dağıdıldığını, Ermənistan tərəfindən torpaqlarımızda mina terroru törədildiyini, beynəlxalq və humanitar hüququn kobud şəkildə pozulduğunu bildirib. Ombudsman İkinci Qarabağ müharibəsindən indiyədək minaların və hərbi sursatların partlaması nəticəsində 300-dən çox şəxsin həyatını itirdiyini və ya ağır yaralandığını qeyd edib.

Müvəkkil tərəfindən istər Vətən müharibəsi zamanı, istərsə də postmüharibə dövründə dünya ictimaiyyətinə müraciətlərin edildiyi, faktlara əsaslanan hesabat və bəyanatlar hazırlanaraq aidiyyəti beynəlxalq təşkilatlara, ombudsman və milli insan hüquqları təsisatlarına təqdim olunduğu konfrans iştirakçılarının diqqətinə çatdırılıb.



# AZƏRBAYCAN 105





◆ Dost sözü, oxucu arzusu

**Mətbuat meydana gəldiyi gündən ilk baxışda yalnız informasiya ötürücüsü kimi qəbul edilsə də, sonralar tədqiqatlar nəticəsində onun missiyasının daha böyük və əhatəli olduğu üzə çıxdı. Artıq burada mətbuatın mənəvi ünsiyyət vasitəsi olmağı ilə yanaşı, həm də insanın ictimai şüurunun, siyasi ideologiyasının, milli kimliyinin, ictimai-siyasi rəyinin formalaşmasında mühüm rol oynadığı məlum oldu.**



# "Azərbaycan" qalib ölkənin rəsmi dövlət qəzetidir

Çeşməsi "Əkinçi" qəzeti olan Azərbaycan mətbuatı 1875-ci ildən üzü bəri uzun, keşməkeşli bir yol gəlir. Bu yolun "yolçuları" sırasında bütöv bir məmləkətin adını özündə yaşadan, milli dövlətçiliyi, müstəqilliyi, azərbaycançılıq ideologiyasını dönməz əqidəyə çevirmiş müdrük 105 yaşlı "Azərbaycan" qəzeti də var.

Yarandığı ilk gündən istər birinci mərhələdə - XX əsrin əvvəllərində (1918-1920) Azərbaycan müstəqillik qazandığı dövrdən, istərsə də ikinci mərhələdə - 1991-ci ildə öz müstəqilliyini bərpa etdiyi gündən digər mətbu orqanlara lokomativlik edən "Azərbaycan" dövlətimizin siyasi-ideoloji kursunu daim diqqətdə saxlayaraq, onu yorulmadan böyük inamla irəli aparır.

Unutmayaq ki, Xalq Cümhuriyyətindən bizə miras qalmış "Azərbaycan" qəzeti milli dövlət quruculuğunda, milli təfəkkürümüzün və milli kimliyimizin formalaşmasında misilsiz rol oynadığından, xalqımızın milli dövlət quruculuğu tarixinin ayrılmaz, həm də ən parlaq bir hissəsinə çevrilib.

Məhz elə bu üzdən də Azərbaycan Xalq Cümhuriyyəti bolşeviklər tərəfindən işğal edildikdən sonra, sovet hakimiyyəti dövründə "Azərbaycan"ın nəşri dayandırılmış, fəaliyyəti yasaq edilmişdir. Bu azmış kimi, özündə Azərbaycan ruhunu oyadan, milli kimliyimizi və təfəkkürümüzü formalaşdıran bu qəzetin arxivdə olan saylarındakı materiallardan bəhrələnmək üçün "xüsusi icazə" lazım olurdu. Bundan başqa, tədqiqatçıların o dövrdə nəşr edilmiş qəzetin materiallarına istinad etməsinə və ya qeydlər götürməsinə qadağa qoyulmuşdu.

Bu arada onu qeyd edək ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə ümumilikdə "Azərbaycan" qəzetinin 443 nömrəsi nəşr edilmişdir. Şübhəsiz ki, kommunistlər Azərbaycan xalqının oyanışını özündə əks etdirən bu qədər sayda zəngin materiallardan istifadə edilməsinə icazə verməzdi. Çünki sovet imperiyası istənilən ittifaq respublikasının müstəqil demokratik ideyalarından, xalqların milli oyanışından çox ciddi şəkildə çəkinirdi. Bu səbəbdən də 70 il ərzində istiqlaliyyət istəyini içində boğan sovet Azərbaycanı mətbuatı xalqımızın milli ideyalarından zorla yan ötürdülərək yalançı sovet "dəyərlərini" təbliğ etməyə məcbur edilmişdi. Ancaq Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra "Azərbaycan" qəzeti də sovet əsirliyindən xilas olub, öz azadlığına qovuşub və indi öz sələfinin yolunu böyük əzmlə davam etdirir. Bu mənada "Azərbaycan" qəzeti bizim üçün ikiqat doğma və əzizdir.

"Azərbaycan" qəzetinin 1993-2003-cü illərdəki fəaliyyətinin Ümummilli Lider Heydər Əliyevin mediamıza xüsusi diqqət və qayğı ilə yanaşdığı bir dövrdə olması bu mətbu orqanın məsuliyyətini daha da artırıb, onun kollektivinin azərbaycançılıq ideologiyası ilə çıxış etməsini ön plana çıxarmışdır. "Azərbaycan" qəzetinin ikinci fəaliyyəti dövründə 1000-ci sayının çapdan çıxması münasibətilə bu mətbu orqanın kollektivini təbrik edən Heydər Əliyev xüsusi qeyd etmişdir: "Əsası 1918-ci ildə qoyulmuş "Azərbaycan" qəzeti müstəqil dövlətçilik tariximizdə öz yeri olan nəşrlərdəndir. Vaxtilə Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi qəzeti kimi nəşr olunmuş "Azərbaycan" xalqımızın istiqlal mübarizəsində mühüm xidmətlər göstərmişdir. Məlum tarixi səbəblər üzündən Azərbaycan Xalq Cümhuriyyəti kimi, "Azərbaycan" qəzetinin də ömrü uzun olmamışdır. Xalqımız əsrin əvvəllərində itirdiyi müstəqilliyini əsrin axırlarında bərpa etdiyi zaman "Azərbaycan" qəzeti də yenidən fəaliyyətə başladı və müstəqil Azərbaycan Respublikasının rəsmi dövlət qəzeti kimi həyatda layiqli yerini tutdu".

Müasir dövrdə əksər ölkədaxili və xarici qəzetlər, saytlar, hətta radio-televiziyalar sensasiya, IP, reytinq ardınca qaçdığı, jurnalistikanın etik norma və prinsiplərini kobud şəkildə pozduğu bir halda, loqotipində dövlətçilik atributları əks olunan "Azərbaycan" qəzeti ölkədə nəşr edilən digər mətbu orqanlarla müqayisədə həmişə aparıcı rola malik olub. "Azərbaycan"nın ayrı-ayrı hər bir sahə - rəsmi sənədlər, parlament, siyasət, iqtisadiyyat, humanitar, dünya, cəmiyyət, idman və başqaları öz obyektivliyi, qərəzsizliyi ilə daim seçilir.

"Azərbaycan" qəzetini oxuyanlar qəzetin ana dilimizin nə qədər təəssübkeşi olduğunu da aydın görür. Dilimizin zənginliyini və üslub imkanlarını yüksək səviyyədə təqdim edən "Azərbaycan", şübhəsiz ki, bu gün cəmiyyətimizin əksər təbəqəsinin, xüsusən də elitar təbəqənin mətbu orqanı hesab olunur. Qocaman qəzet eyni zamanda Azərbaycan ziyalılarının həm siyasi tribunasına, həm də elmi və yaradıcılıq məktəbinə çevrilib. Əlbəttə, əldə edilən bu nailiyyət qəzetdə çalışan peşəkar jurnalist kollektivinin öz isinə məsuliyyətli yanaşmasının və zəhmətinin nəticəsidir.

Bu mətbu orqanın Vətən və millət qarşısındakı xidmətlərini yüksək dəyərləndirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: "Azərbaycan" qəzeti peşəkarlıq, obyektivlik və vətənpərvərlik prinsiplərinə dönmədən əməl etmiş, ölkəmizin sosial-iqtisadi tərəqqisi, vətəndaş cəmiyyətinin formalaşması, milli həmrəyliyin möhkəmlənməsi və digər sahələrdə həyata keçirilən dövlət siyasəti barədə həqiqətlərin Azərbaycan ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü fəaliyyət göstərmişdir".

Azərbaycan mediası 30 il Ermənistanın işğalına məruz qalmış Qarabağ uğrunda informasiya müharibəsində yorulmadan döyüşdü və bu gün də döyüşməkdə davam edir. 3 il öncə 44 günlük İkinci Qarabağ savaşı günlərində "Azərbaycan" qəzetinin əməkdaşları da qələmini süngüyə çevirib, Azərbaycana qarşı dünya mediasında yazılan dezinformasiyanın, "fake-news"un qarşısını almaq, həqiqəti olduğu kimi ictimaiyyətə çatdırmaq üçün var gücü ilə çalışdı.

Vətən savaşının səhərisi günü "Azərbaycan" qəzetinin ana səhifəsində "İlham Əliyev dünyanın ali tribunasından Azərbaycanın prinsipial mövqeyini bir daha bəyan etdi" başlıqlı xəbərdə Ali Baş Komandanın sentyabrın 21-də BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş yüksək səviyyəli iclasda ümumilikdə 182 ölkənin dövlət və hökumət başçısının diqqətinə çatdırılan - "Ermənistan silahlı qüvvələri işğal edilmiş Azərbaycan torpaqlarından tam, dərhal və qeyd-şərtsiz çıxmalıdır" bəyanatı yer aldı.

"Rəcəb Tayyib Ərdoğan: Ermənistanın Azərbaycan torpaqlarına hücumlarının qarşısının alınmaması dünyada riyakarlığın əsl nümunəsidir" adlı xəbərdə isə qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Türkiyə hökumətinin onun sədrliyi ilə keçirilən növbəti iclasından sonra xalqa müraciətində "Suriya, Liviya, Yəməndə hələ də davam edən humanitar böhranlarla bağlı riyakarlığını və prinsipsizliyini sübut edən ölkələrin dünyaya haqq-ədalət verə bilməyəcəyini bir daha təkrar edirəm. Ermənistanın Azərbaycan torpaqlarına hücumlarının qarşısını almaq üçün addımın atılmaması bunun əsl nümunələrindən biridir", - deyə mövqeyi "Azərbaycan" oxucularına təqdim edildi.

Əlbəttə, o günlərdə Azərbaycan xalqının əsas fikri cəbhədən gələn xəbərlərdə olsa da, xarici ölkələrdən gələn xəbərlərə də böyük diqqət ayrılırdı. "Xarici KİV Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsini geniş işıqlandırıb" başlıqlı xəbərdə "Azərbaycan" qəzeti bir sıra xarici ölkələrin aparıcı kütləvi informasiya vasitələrinin Prezident İlham Əliyevin Azərbaycan Televiziyasına, İctimai Televiziyaya və Real Televiziyasına verdiyi müsahibəsini geniş işıqlandırmasından bəhs edilən xəbəri öz səhifəsində oxuculara çatdırdı.

Burada əsasən, Türkiyənin "Anadolu" Agentliyi, "Hürriyet", "Milliyet", "Sabah", "Takvim" və digər populyar qəzetləri, TRT HABER, TGRT, HABER TÜRK, A HABER, NTV televiziya kanalları, Rusiyanın TASS, "İnterfaks" və "RİA Novosti" federal informasiya agentlikləri, "Lenta.ru" "News.ru", "Vesti Kavkaza", "Pravda.ru" saytları, "Moskovski komsomolets" və "Kommersant" qəzetləri, "REN TV", "TVC", "360 tv" telekanalları, Avropa İttifaqının "EU Politics" informasiya-analitik nəşri, Misirin "Asyaelyoum" agentliyi və "Aldiplomasy" nəşri, Rumıniyanın "News24hours", Ukraynanın "RBK-Ukraina", Qırğızıstanın "Goldenbridgenews" portalları, Gürcüstanın "Interpressnews", "Dalgatv", "24news", "News" saytları Prezident İlham Əliyevin müsahibəsi ilə bağlı materiallar yayıb, sitatlar gətirməsindən bəhs edilirdi. Bununla yanaşı, xarici mediada yayılan materiallarda Prezident İlham Əliyevin Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti, işğal etdiyi ərazilərdə qanunsuz məskunlaşdırma həyata keçirməsi, cəfəng şərtlər irəli sürərək münaqişənin həlli üzrə danışıqlar prosesini pozması, hərbi təxribatların davam edəcəyi təqdirdə işğalçılara daha sərt cavab veriləcəyi barədə fikirləri yer alırdı.

Sözsüz ki, uzaqdan-yaxından hansı xəbərlərin gəlməsindən asılı olmayaraq, Azərbaycan xalqı bütün varlığı ilə özünü cəbhədən gələn qələbə xəbərlərinə kökləmişdi.

Bu arada qeyd edək ki, hələ 1918-ci ildə türk-islam ordusunun Bakıya gəlişi və qələbələri haqqında "Azərbaycan" qəzetinin səhifələrində xəbərlər verilirdi. O zaman ermənilərin işğal etdiyi Əsgəran rayonunun azad edilməsi ilə bağlı xəbər oxuculara "Əsgəran alındı" başlığı ilə təqdim edilmişdi. Xalqımız ötən əsrin 90-cı illərində Ermənistanın işğalına məruz qalmış Qarabağın və ətraf rayonların bir gün "Azərbaycan" qəzetinin səhifələrində "Qarabağ alındı" və ya "Qarabağ azad edildi" müjdəli xəbərini həmişə səbirsizliklə gözləyirdi.

Budur, bu gün "Azərbaycan" artıq qalib dövlətin rəsmi dövlət qəzetidir. "Azərbaycan"ın 8 noyabr 2020-ci il tarixli nömrəsinin ana səhifəsində Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Şəhidlər xiyabanından xalqa müraciəti - "Əziz Şuşa, sən azadsan!" başlığı ilə təqdim olundu: "Əziz həmvətənlər, əziz bacılar və qardaşlar. Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm! Bütün şuşalıları ürəkdən təbrik edirəm!" Geniş müraciətin sonunda Prezident İlham Əliyev hər bir azərbaycanlını təsirləndirən ifadəni dilə gətirdi: "Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir.

*Əziz Şuşa, sən azadsan!*
*Əziz Şuşa, biz qayıtmışıq!*
*Əziz Şuşa, biz səni dirçəldəcəyik!*
*Şuşa bizimdir! Qarabağ bizimdir!*
*Qarabağ Azərbaycandır!"*

"Azərbaycan" qəzetinin tarixində indiyədək bu xəbərdən sevincli xəbər, eyni zamanda gözəl, oxunaqlı nömrə bəlkə də olmamışdı. Həmin gün Azərbaycanın haqq etdiyi, ədalətsizliyə, ikili yanaşmaya son qoyan qələbəsi ildırım sürətilə bütün dünyaya yayıldı və əksər ölkələrin aparıcı mediasının baş xəbərinə çevrildi. Azərbaycan xalqının sevincinə şərik olan xarici ölkə mediasını yaxından izləyən "Azərbaycan" qəzeti öz səhifələrində bu xəbərlərə yer verir, bizə dost olanları öz oxucularına tanıdırdı.

Qeyd edək ki, "Prezident İlham Əliyevin Şuşanın işğaldan azad edilməsi ilə bağlı xalqa müraciəti Türkiyənin aparıcı televizya kanalları vasitəsilə canlı yayımlanıb", "Rəcəb Tayyib Ərdoğan Şuşanın azad olunması münasibətilə Azərbaycan xalqını təbrik edib", "Anadolu" Agentliyi Şuşanın azad olunması ilə bağlı infoqrafika hazırlayıb", "İƏT-in Milli Xəbər Agentlikləri Birliyinin saytı və Misir portalları Şuşanın işğaldan azad olunmasından bəhs edirlər", "Aldiplomasy" portalı: Prezident İlham Əliyev Şuşanın işğaldan azad edildiyi müjdəsini verib", "Ərəb telekanalları Şuşanın işğaldan azad edilməsini flaş xəbər kimi verib", "Qırğızıstan mətbuatı Şuşanın azad olunmasından yazıb", "Gürcüstan mətbuatı: İlham Əliyev: 8 noyabr Azərbaycan tarixində əbədi qalacaq. Şuşa şəhəri işğaldan azad olunub" başlığı altında dünya mediasında tirajlanan xəbərlər və onlarca digər bu qəbildən olan yazılar "Azərbaycan" qəzetinin diqqətindən kənarda qalmırdı, öz daimi oxucularına təqdim edilirdi.

Qalib ölkənin rəsmi dövlət qəzeti Azərbaycanın dövlət adamlarının və siyasi partiyaların Ali Baş Komandana, həmçinin xalqa ünvanladığı təbriklərinə öz səhifələrində geniş yer ayırır, xalqımızın qələbə sevincini böyük ruh yüksəkliyi ilə bölüşürdü. Bu böyük tarixi gündə "Azərbaycan" qəzeti "Mehriban Əliyeva: Biz Şuşamızı qaytardıq! Bu əlamətdar tarixi hadisə münasibətilə hamınızı təbrik edirəm", "Milli Məclisin Sədri Şuşa şəhərinin azad edilməsi münasibətilə xalqımıza təbriklərini çatdırıb", "Siyasi partiyaların Şuşanın işğaldan azad edilməsi münasibətilə Ali Baş Komandan, Prezident İlham Əliyevə təbrik məktubu" başlıqlı xəbərləri ilə iqtidar-müxalifət demədən hər kəsin qəzeti olduğunu bir daha təsdiq etmiş oldu.

Xalqımızın Şuşa sevincini öz səhifələrində dərc edən "Azərbaycan" qəzeti yüz minlərlə insan əllərində Azərbaycan bayrağı paytaxtın küçə və prospektlərinə axışaraq Şuşa zəfərinin sevincini paylaşanlar arasında azyaşlı bir uşağa xüsusi yer ayırdı.

"Şuşa sevincimiz mübarək olsun!" başlıqlı essedə "Azərbaycan" yazır: "Titrək əllərində üçrəngli Azərbaycan bayrağı tutan balaca! Əlində yellədiyin aylı-ulduzlu bayraq indi Şuşa şəhərinin ən uca nöqtəsində dalğalanır! 28 il 6 ay işğalda olmuş xalqımızın mədəniyyət, ədəbiyyat beşiyinin, qədim tarixi şəhərinin bugünkü azadlıq gününə sən də sevinirsən. Gözün aydın olsun! Biz 10 min 400 gündən artıq bu günü gözləmişik! 10 min 400 gün!

Sən xoşbəxtsən!

Sən həm də ona görə xoşbəxtsən ki, bu dözülməz ağrını, bu iztirabı, bu həsrəti yaşamaq sənə nəsib olmadı. Sən bu yolda gedən qurbanları, axıdılan qanı, didilən sinələri, qovrulan ürəkləri görmədin. Əlbəttə, illər keçəcək, böyüyəndən sonra sənin atanın, babanın və onların mənsub olduğu nəslin bu qədim diyara, bu möhtəşəm şəhərə, Azərbaycanın muğam-musiqi beşiyi sayılan Şuşaya qovuşmaq üçün hansı əziyyəti çəkdiyini, onun hansı zəhmət bahasına öz sahibinə qayıtdığını biləcəksən.

Şuşa həsrəti sözə gəlməz, Şuşa iztirabı qələmə sığışmaz, Şuşa yanğısı dəryalarla soyumaz, necə ki Şuşa özü təsvirə gəlmir... Sevin, balaca dost, sevin, əziz Vətən sevdalısı! Üzündəki təbəssüm, gözündəki sevinc əbədi olsun! Sən qədim Şuşaya qalib əsgər, məğrur vətəndaş kimi daxil olacaq və qürur hissi ilə orda yaşayacaqsan!

Şuşa sevincin mübarək olsun! Təkcə sənin yox, hamımızın..."

Əlbəttə, bu yazı ilk baxışda "Azərbaycan" qəzetinin azyaşlı bir uşağa "Şuşa sevincin mübarək olsun!" deyə ünvanladığı təbrik olsa da, əslində, onu bütün Yer üzündə yaşayan soydaşlarımıza çatdırılan ən səmimi, ən kövrək, ən böyük təbrik kimi qəbul etməliyik.

İndi "Azərbaycan" qəzetinin özünün ünvanına çoxsaylı təbriklər gəlməkdədir. 1918-ci il sentyabrın 15-də doğma yurdumuzun qədim mədəniyyət mərkəzlərindən biri, dünya poeziyasına və ədəbi-fəlsəfi fikrinə Nizami Gəncəvi kimi bir dahi bəxş etmiş və Azərbaycan Xalq Cümhuriyyətinin ilk paytaxtı Gəncə şəhərində dünyaya "göz" açmış "Azərbaycan" qəzetinin 105-ci "doğum" günü ərəfəsindəyik. Bu münasibətlə "Azərbaycan" qəzetinin kollektivini - hörmətli həmkarlarımı ürəkdən təbrik edir, onlara öz məsuliyyətli və şərəfli peşələrində yaradıcılıq uğurları arzulayıram!

***Mübariz ƏHMƏDOV,***
***Bakı Slavyan Universitetinin dosenti***

# Belə görünür ki, Ermənistan "dəmir yumruq" üçün darıxıb




Sosial şəbəkələrdə İrəvandan sərhədə doğru irəliləyən hərbi kolonların görüntüləri yayılıb. Ermənistanın müdafiə naziri Suren Papikyan isə xarici ölkəyə səfərini ləğv edib və səbəb kimi Azərbaycanla sərhəddə vəziyyətin gərginləşməsini göstərib. Bu faktlar onu deməyə əsas verir ki, İrəvan sərhədboyu ərazilərdə ölkəmiz əleyhinə genişmiqyaslı təxribatlara hazırlaşır. Lakin unudur ki, kiminsə yardımı ilə hərbi texnika alıb sərhədə yığması heç bir nəticə verməyəcək. Çünki Azərbaycan Ordusu 44 günlük müharibədə olduğu kimi Ermənistanı yenə də diz çökdürəcək.

Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik. Onların sözlərinə görə, Ermənistan sərhədə hərbi texnikalarını yığmaqla yenidən müharibə riskini artırır.

## Müharibə baş versə, Ermənistan daha böyük faciələrlə üzləşəcək

Milli Məclisin deputatı Azər Badamov bildirib ki, bir aydan çoxdur ki, Ermənistan rəhbərliyi dövlətlərarası münasibətlərin sülh yolu ilə normallaşmasına əngəl törədən siyasət yürüdür. Azərbaycanın razılığı olmadan Laçın sərhəd-keçid məntəqəsinin qarşısında saxta "humanitar böhran" şousu yaradan Ermənistan siyasi manipulyasiyaya əl atır və bununla beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışır. Digər tərəfdən, Fransanın dəstəyinə arxayın olan Ermənistan Azərbaycanın ərazi bütövlüyünə müdaxilə cəhdi ilə münasibətlərin normallaşması prosesinə kölgə salır. Bu hərəkətlər göstərir ki, mənfur qonşumuz çirkin niyyətlərini davam etdirir. Ermənistan separatçıları maliyyəşdirir, onları silahlandırır, Qarabağın erməni ictimaiyyətinin Azərbaycan cəmiyyətinə reinteqrasiya olunmasının qarşısını alır. Həm də Azərbaycanla sərhəddə təxribatlara əl atır və Qarabağda mövcud qeyri-qanuni silahlıların mövqelərinin möhkəmləndirilməsi üçün uzunmüddətli fortifikasiya qurğularının quraşdırılması tapşırıqlarını verir.

Deputatın sözlərinə görə, bütün bunlar azmış kimi, Ermənistanın hərbi kolonlarının Azərbaycanla sərhədə doğru hərəkətə keçdiyini nümayiş etdirən görüntüləri mediada yayması onların sülh tərəfdarı olmadığını bir daha sübut edir: "Bu addımlar Ermənistanın çirkin niyyətlərinin yalnız bir hissədir. "Azərbaycan 44 günlük Vətən müharibəsində qələbə çalaraq müharibənin bitdiyini elan edib. Ermənistanı düşmənçilik səhifəsini bağlamağa çağırıb və ölkələrarası münasibətlərin normallaşması üçün sülh müqaviləsi imzalamaq təklifini irəli sürüb. Ermənistan isə postmüharibə dövründə sərgilədiyi davranışlarla Azərbaycanla sülh müqaviləsi imzalanmaqdan uzaq olduğunu nümayiş etdirir. Lakin düşünmür ki, qarşısında güclü Azərbaycan dayanıb. Ermənistan yardımlar hesabına aldığı hərbi texnikanı nə qədər sərhədimizə yaxın dislokasiya etsə də, bunun əhəmiyyəti olmayacaq. Çünki Azərbaycan Ordusu qarşısına qoyulmuş hərbi tapşırığı qısa zaman kəsiyində yüksək səviyyədə icra etməyə hər zaman hazırdır".

Deputat deyib ki, Ermənistan sərhədimizə hərbi texnikalarını yığmaqla yenidən müharibə riskini artırır. Lakin unudur ki, müharibə baş verərsə, Ermənistan böyük faciə ilə üz-üzə qalacaq. Yaxşı olardı ki, Ermənistan xalqı üç il əvvəl baş vermiş İkinci Qarabağ savaşının nəticəsindən dərs alıb öz hakimiyyətinə qarşı çıxsın və övladlarının yenidən ölümə göndərilməsinə etirazını bildirsin.

Azər Badamov vurğulayıb ki, bu gün Azərbaycanın Müzəffər Ordusu üç il bundan əvvəlkindən dəfələrlə güclüdür: "Vətən müharibəsində ordumuzun icra etdiyi döyüş əməliyyatları dünyanın ən güclü hərbi ordularına sahib olan ölkələr tərəfindən də yüksək dəyərləndirilib. Buna baxmayaraq, Azərbaycan ordu quruculuğunda peşəkarlığını daha da artırıb. Həmçinin ordumuz daha müasir silahlarla təchiz edilib və mütəmadi keçirilən hərbi təlimlərdə möhkəmlənib".

Deputat onu da qeyd edib ki, bütün bunların fonunda Ermənistanın hansısa yardımlarla ordusunu təchiz etməsi, özünü məğlubedilməz hesab etməsi absurd görünür. Bədnam qonşumuz uydurma miflərə inanaraq Azərbaycan Ordusunun gücünü nəzərə almadan yenidən müharibəyə cəhd edərsə, faciələrlə üzləşəcək.

## Azərbaycan Ordusu bütün təxribat və təhdidlərin qarşısını almağa qadirdir

Milli Məclisin deputatı Fazil Mustafa qeyd edib ki, Ermənistanın hərbi kolonlarının sərhədimizə yaxınlaşması əslində bizi qətiyyən narahat etmir. Bu, hansısa hərbi əməliyyat məqsədilə atılmış addım olsa belə, nəticəsiz qalacaq. Axı Ermənistan hansı gücünə arxayın olub hərbi əməliyyat keçirə bilər?!

"Ermənistanın bütün qüvvələrinin yaxınlaşması bizə fürsət verəcək ki, onların cəzalandırılması istiqamətində addımlar ataq. Gedişat onu göstərir ki, Ermənistan Azərbaycanın humanizmə dayanaraq təklif etdiyi təkmil sülh modelini qəbul etmək istəmir. Belə olan halda, biz Ermənistana güzəşt etmək niyyətində deyilik. İstənilən müharibə çağırışlarının, yaxud da təxribatyönümlü addımların qarşısını dərhal alacağıq", - deyə deputat bildirib.

Fazil Mustafa vurğulayıb ki, ölkəmiz əleyhinə atdığı istənilən addım Ermənistanı böyük riskə sala bilər. Onların hərbi kolonlarının sərhədə yaxınlaşması da bizə yox, özlərinə də ziyan verə bilər.

"Hərbi mənbələrə istinadən yayılan məlumatlarda qeyd olunur ki, Ermənistan ölkəmizlə şərti sərhəddə 1,2,3 və 4-cü hərbi korpusları fəal şəkildə gücləndirib. Həmçinin belə məlumatlar da var ki, İran ərazisindən zirehli texnika və artilleriya mərmiləri erməni hərbi birləşmələrinə çatdırılıb. Ermənistanın yenidən silahlanması bədnam qonşumuzun yeni müharibə arzuladığını göstərir. Lakin təkrar edirəm, Ermənistanın hansı istiqamətlərdən təxribatlara cəhd göstərməsindən asılı olmayaraq, Azərbaycan Ordusu onların qarşısını alacaq. Hayastanın beynəlxalq diqqəti Laçın yolunda "humanitar böhran" şousuna cəlb etmək istəyi fiaskoya uğradığı kimi, Azərbaycanı təcavükzar göstərmək cəhdləri də uğursuzluğa məhkumdur. Belə riyakar yolla Bakıya qarşı təzyiqləri gücləndirmək istəkləri heç bir nəticə verməyəcək",- deyə deputat əlavə edib.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Ağ Evin ikiüzlü siyasəti

## Vaşinqton Azərbaycanla bərabərhüquqlu tərəfdaşlığa zidd davranış nümayiş etdirir

Tarixin bütün dövrlərində Azərbaycana qarşı ikili standartların, qərəzli münasibətlərin müxtəlif Qərb ölkələri, eyni zamanda özünü "demokratiyanın carçısı" adlandıran ABŞ, erməni lobbisinin puluna qurban gedən digər dairələr tərəfindən yürüdülən siyasətə şahidlik etmişik. Xüsusən Vətən müharibəsindəki qələbədən sonra müəyyən ölkələrdə Azərbaycan əleyhinə kampaniyalar, Azərbaycanofobiya, ermənipərəst qüvvələrin "fəallığı" artıb.




Daim insan hüquqlarından dəm vuran Avropa, ABŞ illərlə soyqırımlara, qətliamlara məruz qalan azərbaycanlıların hüquqları pozulanda, haqları tapdananda susaraq heç bir reaksiya vermədikləri halda, erməni pulu ilə onların müdafiəsinə çox tez qalxırlar.

Son dövrlərdə Ağ Ev yenə də ikili standartlarını işə salıb. Sentyabrın 6-da ABŞ Konqresinin Tom Lantos İnsan Hüquqları Komissiyasında Azərbaycan əleyhinə dinləmələr təşkil olunması da bunun nümunəsidir. Bu, bir daha bəzi beynəlxalq təşkilatların, qurumların vəzifələrinin, daşıdıqları funksiyanın üstündən xətt çəkərək siyasi oyunların iştirakçısına çevrildiyini, Azərbaycana qarşı qərəzli, ədalətsiz mövqedə dayandıqlarını göstərir. Xüsusən də Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması, sülh sazişinin bağlanması istiqamətində danışıqlarda vasitəçi olmaq istəyən ABŞ-nin birtərəf mövqeyini bir daha ortaya qoyur.

Dinləmələrlə bağlı bəyanat yayan Qərbi Azərbaycan İcmasının məlumatında da qeyd olunduğu kimi, bu, bölgədə gərginliyi qəsdən artıran Ermənistanı, revanşist qüvvələri daha da ruhlandırır. Tom Lantos Komissiyasını heç vaxt Ermənistanın işğal siyasətinin ağır fəsadları, etnik təmizləmə, Azərbaycan xalqının iztirabları, o cümlədən deportasiya olunmuş azərbaycanlıların taleyi maraqlandırmayıb: "Əgər bu komissiya qərəzsiz olsaydı və məsələlərə dini təəssübkeşlik prizmasından yanaşmasaydı, onda belə dinləmələri qərbi azərbaycanlıların Ermənistana - öz dədə-baba yurdlarına qayıdışı ilə bağlı təşkil etməli idi".

## ABŞ Azərbaycanın BMT-nin qətnamələrini yerinə yetirməsini həzm edə bilmir

Milli Məclisin deputatı Sahib Alıyev qəzetimizə açıqlamasında bildirib ki, Amerika Birləşmiş Ştatları Konqresinin Azərbaycanla Ermənistan arasında Qarabağ uğrunda qarşıdurmaya yanaşmada hansı mövqe tutduğu hələ ötən əsrin axırlarından bəllidir. O zaman da Amerika Birləşmiş Ştatlarının beynəlxalq normaları nə dərəcədə görməzdən gəldiyini, regiondakı proseslərə yanaşmada ədalətsiz olduğunu görmüşdük. ABŞ işğalçı Ermənistana deyil, torpaqları zəbt edilmiş Azərbaycana sanksiya tətbiq etmişdi, "Azadlığa Yardım Aktı"na 907-ci bədnam düzəlişlə dövlət səviyyəsində bizim ölkəyə yardıma qadağa qoymuşdu. İndi də həmin konqres öz ampluasındadır və bunun üç səbəbi var. Səbəblərdən biri budur ki, nə Amerika Birləşmiş Ştatları, nə də digər güclər Azərbaycan kimi bir dövlətin məhz öz gücünə, potensialına dayanaraq torpaqlarını işğaldan qurtarmasını, BMT-nin dörd qətnaməsini yerinə yetirməsini həzm edə bilmir.

S.Alıyev deyib ki, onlara görə BMT qətnamələrini ancaq böyük güclər icra edə bilərdi: " Rusiyanı regiondan çıxarmaq niyyəti güddüyü heç kimə sirr olmayan Amerika Birləşmiş Ştatları da, Qərbdəki digər çevrələr də bunu Ermənistanın subyektivliyinin artması, regionda qarşıdurmanın aradan qalxması məqsədilə etmirlər. Bunu o məqsədlə edirlər ki, Rusiya indiyədək Ermənistandan necə faydalanıbsa, onlar da o cür faydalansınlar və Ermənistanı özlərinin forpostuna çevirsinlər".

Deputatın sözlərinə görə, ABŞ səfirinin indiyə qədər Şuşaya getməməsi, bu ölkənin Qarabağın Azərbaycan torpağı olduğunu dilə gətirmək istəməməsi də elə bundan qaynaqlanır: "Üçüncüsü isə, həmin konqresdə məruzəsi dinlənilən məxluq da, Azərbaycan əleyhinə digər çıxış edənlər də ermənilər tərəfindən satın alınmışlar, islamafob yaramazlardırlar. Onlar üçün, ümumiyyətlə, müqəddəs heç bir şey yoxdur. Ona görə də bu qəbildən olan hərəkətləri qətiyyən təəccüb doğurmur. Əlbəttə ki, biz bunu, sadəcə, izləməyəcəyik".

Sahib Alıyev vurğulayıb ki, Azərbaycan öz torpaqları üzərində suverenliyini tam təmin etmək üçün hər bir vasitəyə əl atacaq. Bununla bağlı Azərbaycana maneçilik törətməyə çalışanlar varsa da, ölkəmizin müttəfiqləri də var. Gələcəkdə müttəfiqlərimizin sırasının daha da genişlənəcəyini də görəcəyik.

## Bu çirkin kampaniyalar ABŞ-nin Cənubi Qafqazdakı mövqeyinə ciddi zərbədir

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qeyd edib ki, Amerika Birləşmiş Ştatlarının Nümayəndələr Palatasının İnsan hüquqları komissiyasının həmsədri Kristofer Smitin təşəbbüsü ilə Qarabağdakı "humanitar böhran"la bağlı dinləmələr Vaşinqtona insan haqları adına heç nə vəd etmədiyi kimi, ABŞ-nin Cənubi Qafqazdakı mövqeyinə ciddi zərbədir.

Deputat xatırladıb ki, Prezident Cozef Bayden cəmi 4 ay əvvəl Azərbaycanla Birləşmiş Ştatlar arasındakı tərəfdaşlığın regionda inkişafı təmin etdiyini rəsmən bəyan etmişdi: "Həqiqətən də, Azərbaycan və ABŞ qlobal çağırışlara hazırlıq, beynəlxalq terrorizmə qarşı mübarizə, təhlükəsizlik məsələlərində fəal və səmərəli, iqtisadi sahədə geniş spektrdə qarşılıqlı fəaliyyət istiqamətlərində səmərəli əməkdaşlıq təcrübəsinə malikdir. Prezident İlham Əliyevin bu il iyulun 4-də Cozef Baydenə məktubunda da ifadə etdiyi kimi, Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında əlaqələr dostluq və əməkdaşlıq zəminində dinamik inkişaf edərək bir sıra sahələrdə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Bütün bunların fonunda Amerika Birləşmiş Ştatlarının Nümayəndələr Palatası Azərbaycan əleyhinə çirkab kampaniyanın bir hissəsi olursa, bu, uzunmüddətli perspektivdə Cənubi Qafqazda Vaşinqtona yaxşı heç nə vəd etmir".

Deputatın fikrincə, ABŞ Prezidenti "Qafqazda gələcək nəsillər üçün təhlükəsizlik və inkişafı təşviq etməyi, Azərbaycanla Ermənistan arasında dayanıqlı və ədalətli sülhü dəstəkləməyi" vəd etdiyi halda, bu ölkənin qanunverici orqanı separatizmə rəvac verərək bölgədə artıq başa çatmış bir müharibəni etnik münaqişəyə çevirərək yenidən alovlandırmağa cəhd göstərir. ATƏT-in artıq mövcud olmayan Minsk qrupunun həmsədri kimi münaqişənin 30 il uzanmasında birbaşa məsuliyyət daşıyan ABŞ, əslində, regionda mövculuğunu qorumaq üçün Azərbaycan amilinin həlledici olmasını dərk etməlidir. Ən azından Baydenin özünün etiraf etdiyi qədər. Nümayəndələr Palatasında "humanitar şou" senarisinin yeni pərdəsini yazmaqla Vaşinqton nəinki Azərbaycanla bərabərhüquqlu tərəfdaşlığa zidd davranır, üstəlik, istər beynəlxalq hüququ, istər ABŞ-nin özünün tərəfdar çıxdığı ümumtanınmış prinsipləri görməzdən gəlir. 350 illik dövlətçilik tarixi olan ABŞ bir çox demokratik ilklərə yol açsa da, belə görünür ki, quldar-plantator təfəkküründən nəinki xilas ola bilməyib, üstəlik, bu təfəkkür Kristofer Smitin timsalında ABŞ kimi supergücün qanunvericilik palatasına yol tapıb.

B.Məhərrəmov qeyd edib ki, konqresin İnsan hüquqları komissiyasının Ermənistanın ABŞ-dəki səfirliyinin və erməni biznesmenlərin iştirakı ilə geniş dinləmələr keçirməsi Azərbaycanın Cənubi Qafqazda yaratdığı reallığı dəyişə bilməz. "Necə ki, Kristofer Smitin qəbul edilməsində böyük rol oynadığı "Azadlığa Dəstək Aktı"na 907-ci düzəliş 30 il ərzində nəyi isə dəyişə bilmədi. Smit və başqalarının Nümayəndələr Palatasına kök salmış mafioz qruplaşması bu kimi addımlarla yalnız və yalnız ABŞ-nin regiondakı mövqelərini özlərinin korrupsiya maraqlarına qurban verirlər. İndiki həssas məqamda güc balanslarının dəyişdiyi, Azərbaycanın Qafqazda hərbi-siyasi imkanlarının artdığı, Ermənistanın isə Vaşinqtona əlavə problemdən başqa heç bir şey vəd edə bilməyəcəyi bir şəraitdə bu kimi oyunlar Ağ Evin regiondakı nüfuzunun bərpasına zərbələr vurur", - deyə deputat əlavə edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Ordumuz hər an düşmənə cavab verməyə hazırdır

## Torpaqlarımızda təxribat və hərbi cinayətlər törədənlər yollarının Azərbaycan məhkəmələrindən keçəcəyini başa düşürlər

Ermənistanın ölkəmizə qarşı təxribatları getdikcə intensivləşməkdədir. Əgər 44 günlük Vətən müharibəsindən sonra bu ölkə feyk xəbərləri, uydurma şouları ilə dünyanı çaşdırıb ölkəmizə qarşı informasiya savaşı aparırdısa, son günlər bir az da irəli gedib yenə silahların dili ilə danışmaq niyyətinə düşüblər.

Baş verən hadisələr sübut edir ki, istər Qarabağda Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində olan qeyri-qanuni erməni silahlı dəstələri olsun, istərsə də Azərbaycanla sərhədboyu yerləşən Ermənistan ordusu xeyli "fəallaşıb". Hər gün Kəlbəcər, Xocavənd, Ağdam, Laçın, eyni zamanda Naxçıvanla sərhədboyu yerləşən ordumuzun mövqeləri ilə üzbəüz duran düşmən qüvvələri ya uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstərir, ya da ordumuzun mövqelərinə atəş açaraq təxribatlar törədib bizi silahlı qarşıdurmaya çəkməyə çalışır. Qeyd edək ki, hər dəfə də təxribatların qarşısı silahlı qüvvələrimiz tərəfindən qətiyyətlə alınır.

Amma Ermənistanın bütün təxribatlarına, cəbalarına baxmayaraq, Azərbaycan sülhün tərəfdarıdır. Prosesin ölkəmizin istədiyi kimi beynəlxalq hüquq normalarına uyğun olaraq tamamlanmasına da israrlıdır. Üçtərəfli Bəyanatın şərtlərinə görə, Laçının, Kəlbəcərin, Ağdamın müharibəni davam etdirmədən geri qaytarılması Ermənistanın Azərbaycan ərazisini Qarabağla birlikdə 86,6 min kvadratkilometr tanıması deməkdir. Sonrakı danışıqlar prosesində də Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycan ərazisini dəfələrlə tanıdığını dilə gətirib. Bu o deməkdir ki, Fransa və digər dövlətlər nə qədər Ermənistana "simpatiya" göstərsələr də, beynəlxalq hüquq Azərbaycanın tərəfindədir və kimsə bunun əleyhinə gedə bilməz. Bunu hətta Qarabağda yerləşən silahlı quldur dəstələri və onları öz oyunlarına alət edən separatçıların "lider"ləri də yaxşı anlayırlar.

Bir fakta da diqqət çəkək. Azərbaycan Qarabağda yaşayan ermənilərə iki yük maşını un göndərib. Azərbaycanın göndərdiyi sovqatın qarşısı Əsgəranda Ruben Vardanyana tabe olan qanunsuz silahlı dəstənin üzvləri tərəfindən kəsilib. Erməni mediası aylardır "çörəyə həsrət qalan" ermənilərin yolunu kəsərək "etiraz aksiyası" keçirdikləri yerdən ardıcıl olaraq süjet yayımlayır. Məsələ burasındadır ki, kadrlarda texniki vasitələrdən istifadə olunaraq iştirakçıların üzləri göstərilmir. Əgər 2021-ci ildə erməni "idmançı"ların Azərbaycan bayrağını təhqir etmələrini vaxtaşırı tirajlayırdılarsa, sosial şəbəkələrin erməni seqmentində gənclərin "qəhrəman"lıqlarından bəhs edən postlar yazılıb qürurlanırdılarsa, bu gün erməni KİV-i daha ehtiyatlı olmağa üstünlük verirlər. Meşəlidə soyqırımı törədən Vaqif Xaçaturyanın həbsindən, bayrağımızı təhqir edən gənclərin həbsindən sonra ermənilərin ehtiyatlı olmaları başadüşüləndir. Bu da onu deməyə əsas verir ki, ermənilər artıq hər qanunsuz əməllərinə görə Azərbaycanın hüquq-mühafizə orqanlarına gec-tez cavab verəcəklərini dərk edirlər. Sözsüz ki, onları bu qanunsuzluğa məcbur edən qüvvələr var. Ərazimizdə qanunsuz silahlı dəstə saxlayanları da, bu dəstələrin iştirakçısı olub əli cinayətə bulaşanları da Azərbaycan heç vaxt bağışlamayacaq.

Son zamanlar Nikol Paşinyanın ölkəmizin ərazilərində yaradılmış qondarma rejimi dəstəkləyən bəyanatlar verməsi, Azərbaycan ərazilərindən Ermənistan silahlı qüvvələrinin çıxarılmaması düşmən dövlətin müharibə etmək niyyətindən əl çəkmədiyini göstərir.

Ermənistanın törətdiyi təxribatlar, qurduğu oyunlar barədə istər olkəmizdə fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri, istərsə də beynəlxalq təşkilatlar vaxtaşırı məlumatlandırılır. Azərbaycan həmişə sülh yolu ilə getməyə üstünlük verib. Əgər hər gün silahlı təxribatlar törədib atəşkəsi pozmaqda davam edən Ermənistan ölkəmizi dilemma qarşısında qoyarsa, bəri başdan "dəmir yumruq"la başlarının əziləcəyini göz altına almalıdır. Azərbaycan Ordusu düşmən təxribatlarının qarşısını almağa və ona layiq olduğu cavabı verməyə hər an hazırdır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Paşinyan Kremlə savaş açıb

## Rusiya-Hayastan münasibətləri getdikcə gərginləşir

Rusiya və Hayastan arasında münasibətlərin son bir il ərzində kifayət qədər pisləşməsi, iki ölkənin əlaqələrinin kəskin ziddiyyətlər mərhələsinə qədəm qoyması müşahidə olunmaqdadır. Bütün bunların kökündə dayanan başlıca amil isə baş nazir Nikol Paşinyanın Rusiyanın mövqeyinə zidd addımlar atması, komandasında Moskva əleyhinə olan şəxslərin çoxluq təşkil etməsidir.

Tərəflər üzdə "dostluq və müttəfiqlik" görüntüsünü saxlamağa çalışsalar da, ayrı-ayrı siyasilərin və diplomatların arasında gedən qalmaqallı açıqlamalar, bir-birilərini ciddi ittiham etmələri açıq hal alıb. Üstəlik, hər iki ölkənin mediasında qarşılıqlı ittihamların, umu-küsülərin yer alması pərdəarxası gərginliyin üzə çıxmasını göstərir. Rusiyanın Hayastandan narazı qalmasının başlıca səbəbi bu ölkənin baş naziri Nikol Paşinyanın açıq Qərbpərəst siyasət yeritməsi, Rusiyanı arxa plana keçirməsidir.

Hayastanın Müdafiə Nazirliyi dünən "Tərəfdaş qartal-2023" təlimlərinin Hayastan ərazisində keçiriləcəyini, təlimlərdə amerikalı və erməni hərbçilərin birgə iştirak edəcəyini, məşqlərin sentyabrın 11-dən 20-dək "Zar" təlim mərkəzində baş tutacağını bildirib. Bu təlimlər guya sülhməramlı olacaq və "münaqişə tərəfləri arasında münasibətlərin sabitləşdirilməsi" səciyyəsi daşıyacaq. Ancaq "erməni qartalı"nın daimi tərəfdaşı olan "ikibaşlı rus qartalı" bu dəfə kənarda qaldığı üçün o, ikinci başını Ermənistana tərəf döndərib, acıqlı-acıqlı gözlərini süzür.

Ötən illərdə KTMT-nin təlimlərinə həvəslə evsahibliyi edən Hayastan bu təşkilatı Azərbaycanla müharibəyə cəlb edə bilmədiyi üçün neçə vaxtdır onunla qarşı-qarşıyadır. Hələ yanvar ayında baş nazir Paşinyan KTMT təlimlərinin bu il ölkəsində keçirilməyəcəyini demişdi və yuxarıda qeyd edildiyi kimi, bundan imtinanı Türkiyə və Azərbaycan tandemi tərəfindən yanlış şərh oluna biləcəyi ilə izah etmişdi: "Biz bu təlimi yersiz hesab etdik, çünki onlar Türkiyə-Azərbaycan tandemi üçün təhlükə yaradacaq. Gələcəklər, təlimlər keçirəcəklər, sonra biz bu təhlükə ilə baş-başa qalacağıq".

O zaman belə bir haqlı sual yaranır. Hayastan hərbçiləri Rusiya, Belarus, Qırğızıstan və Tacikistan silahlı qüvvələrinin iştirak etdiyi, sentyabrın 1-dən 6-dək keçirilən "Döyüş qardaşlığı" təlimlərində nədən iştirak etmədi? Deməli, rəsmi İrəvan KTMT-ni boykot, Moskvanı şantaj edir.

Bu da onu deməyə əsas verir ki, Paşinyan hakimiyyəti Hayastanın xarici himayədarlarının səhnəarxası təlimatları ilə hərəkət edir. Əks halda, rəsmi İrəvan sülh prosesindən uzaqlaşıb, Azərbaycanla yeni savaş təhlükəsinə səbəb olacaq davranışlara cəhd göstərməzdi. Yəqin ki, Hayastanı öz geopolitik maraqlarına alət edənlər rəsmi İrəvana yerinə yetirə bilməyəcəkləri təhlükəsizlik təminatı veriblər.

Əsl reallıqdasa, rəsmi İrəvan Hayastanın təhlükəsizlik mexanizmlərini də sıradan çıxarmağa başlayıb. Belə ki, Paşinyan hakimiyyəti bir tərəfdən hərbi təxribatlarla Azərbaycanı yeni savaşa çəkir, digər tərəfdən isə, növbəti savaşın Hayastan üçün fəlakətli nəticələr verməməsində müəyyən qədər rol oynaya biləcək yeganə dövlət olan Rusiya ilə münasibətləri korlamaqda davam edir.

Xəzər Strateji Tədqiqatlar İnstitutunun (Rusiya) baş direktoru İqor Korotçenko da hesab edir ki, son proseslər Moskva və İrəvan arasında müttəfiqlik münasibətlərinin pozulacağını deməyə əsas verir. Onun fikrincə, baş verənlər, həmçinin Ermənistanın KTMT-də iştirakının dondurulması və ya hətta onun tərkibindən çıxması, müstəsna olaraq, Nikol Paşinyanın siyasətidir. Yəni baş verənlər Ermənistan rəhbərliyinin müvafiq siyasi kursunun nəticəsidir.

İkinci səbəbdən danışan İqor Korotçenko qeyd edib ki, Ermənistanın İkinci Qarabağ müharibəsində məğlubiyyətindən və kapitulyasiyasından sonra bu ölkədə siyasi böhran başlayıb və Paşinyan bütün vasitələrlə öz hakimiyyətini qoruyub saxlamaq üçün siyasi manevrlər etməyə məcbur olub.

Ermənistan-Amerika hərbi təlimlərinə gəldikdə, ekspert onları Rusiyaya qarşı tamamilə düşmən hərəkəti adlandırıb. Qeyd edib ki, bu addım onsuz da yaxşı olmayan Rusiya-Ermənistan münasibətlərini ciddi şəkildə çətinləşdirir və daha da pisləşdirəcək.

Qeyd edək ki, sözügedən təlimlərlə bağlı Kremlin rəsmi nümayəndəsi Dmitri Peskov da öz fikirlərini açıqlayıb. "İzvestiya.ru"nun yaydığı məlumata görə, D.Peskov bildirib ki, ABŞ və Ermənistanın qarşıdakı birgə hərbi təlimləri narahatlıq yaradır. O, Vladimir Putinin bu mövzuda xəbərləri diqqətlə izlədiyini də söyləyib: "Bu, hazırkı vəziyyətdə narahatlıq doğurur. Putin xəbərləri dərindən təhlil edir və vəziyyəti izləyir".

Görünən odur ki, Paşinyan açıq-aşkar Kremlə savaş açıb və bu durum Rusiya-Hayastan münasibətlərini getdikcə daha da gərginləşdirəcək.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 303

QƏRAR

Bakı şəhəri, 5 sentyabr 2023-cü il

## "İstilik enerjisindən istifadə qaydaları"nın təsdiq edilməsi haqqında

"Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 17 iyun tarixli 546-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 13 iyun tarixli 723 nömrəli və "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 16 iyul tarixli 204 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 25 iyul tarixli 1761 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "İstilik enerjisindən istifadə qaydaları" təsdiq edilsin *(əlavə olunur)*.

2. Müəyyən edilsin ki, Kommunal Xidmətlər Vahid İnformasiya Sistemi fəaliyyətə başlayanadək "İstilik enerjisindən istifadə qaydaları"nda həmin sistem vasitəsilə həyata keçirilməsi nəzərdə tutulan prosedurlar birbaşa, poçt və ya elektron poçt vasitəsilə həyata keçirilir.

3. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 sentyabr tarixli 303 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

# İstilik enerjisindən istifadə qaydaları

### 1. Ümumi müddəalar

1.1. "İstilik enerjisindən istifadə qaydaları" (bundan sonra - Qaydalar) "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin birinci hissəsinə əsasən hazırlanmışdır və istilik enerjisindən istifadə sahəsində enerji təchizatı müəssisəsi ilə istehlakçı arasında yaranan qarşılıqlı münasibətləri və bununla əlaqədar digər məsələləri, o cümlədən istehlakçının istilik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alınması üçün texniki şərtlərin verilməsini tənzimləyir.

1.2. Bu Qaydalarda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. **istehlakçı** - enerji təchizatı müəssisəsinin istilik və isti su təchizatı xidmətlərindən istifadə edən hüquqi və ya fiziki şəxs;

1.2.2. **abonent** - enerji təchizatı müəssisəsinin şəbəkəsinə qoşulmuş, istilik və isti su təchizatı xidmətlərinə dair müqaviləni (bundan sonra - müqavilə) enerji təchizatı müəssisəsi ilə bağlayan istehlakçı;

1.2.3. **subabonent** - abonentin istilik şəbəkəsinə qoşulmuş istehlakçı;

1.2.4. **sifarişçi** - enerji təchizatı müəssisəsinin istilik şəbəkəsinə qoşulması nəzərdə tutulan tikinti obyektinə və ya tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsinə mülkiyyət və ya digər əşya hüquqları əsasında sahiblik edən şəxslər;

1.2.5. **balans mənsubiyyəti sərhədi** - enerji təchizatı müəssisəsi ilə istehlakçı və ya abonent ilə subabonent arasında istilik təchizatı sistemi qurğuları və avadanlıqlarının balans mənsubiyyətini müəyyənləşdirən ayırma nöqtəsi;

1.2.6. **istismar məsuliyyəti sərhədi** - enerji təchizatı müəssisəsi ilə istehlakçı və ya abonent ilə subabonent arasında istilik təchizatı sistemi qurğuları və avadanlıqlarının istismarına görə məsuliyyət sərhədini müəyyənləşdirən ayırma nöqtəsi;

1.2.7. **istilik istehlakı sistemi** - birləşdirici istilik xətləri və ya istilik şəbəkəsi, istilik mübadilə aparatları və digər istilik mühəndis avadanlıqları daxil olmaqla, istilik istehlakı qurğuları kompleksi;

1.2.8. **istilik təchizatı sistemi** - istilik mənbələri, istilik şəbəkələri və istilik istehlakı qurğuları kompleksi;

1.2.9. **istilik təchizatı sisteminin layihəsi** - tikinti obyektindən istilik şəbəkəsinə qoşulma nöqtəsinədək xəttin çəkilməsinə və ya əlavə enerji (güc) alınmasına dair layihə sənədləri;

1.2.10. **istilik şəbəkəsi** - istilik və isti su təchizatı məqsədilə istehsal edilən istilik enerjisinin ötürülməsi və paylanması üçün nəzərdə tutulan istilik boru və qurğuları kompleksi;

1.2.11. **istilik daşıyıcısı** - istilik təchizatı sistemində istilik və isti su təchizatı məqsədilə istehsal edilən istilik enerjisinin ötürülməsi üçün istifadə olunan maddə (su, buxar);

1.2.12. **şəbəkə suyu** - istilik təchizatı sistemində istilik daşıyıcısı kimi istifadə edilən xüsusi hazırlanmış su;

1.2.13. **texniki şərtlər** - istilik və isti su təchizatı xidmətlərinin göstərilməsi üçün nəzərdə tutulan tikinti obyektində istilik istehlakı qurğularının quraşdırılması, onların istilik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alınmasına dair layihə sənədlərinin hazırlanmasına əsas verən, istilik və isti su təchizatı xidmətlərinin göstərilməsi ilə bağlı mühəndis-texniki parametrləri özündə əks etdirən texniki sənəd;

1.2.14. **sayğac** - istilik və isti su təchizatı məqsədilə istehlakçıya verilən istilik enerjisinin həcmini müəyyən edən cihaz (qurğu);

1.2.15. **qoşulma aktı** - sifarişçinin tikinti obyektinin istilik şəbəkəsinə qoşulmasını təsdiq edən sənəd;

1.2.16. **qoşulma nöqtəsi** - istiliyin və isti suyun paylanmasına təminat verən istilik şəbəkəsinə tikinti obyektinin fiziki qoşulma yeri;

1.2.17. **fiziki qoşulma** - sifarişçiyə istiliyin və isti suyun verilməsi üçün çəkilmiş istilik xəttinin müəssisənin təyin etdiyi qoşulma nöqtəsinə birləşdirilməsi;

1.2.18. **Kommunal Xidmətlər Vahid İnformasiya Sistemi** (bundan sonra - Sistem) - kommunal sahədə idarəetmənin təmin edilməsi üçün zəruri olan məlumatların toplanıldığı və emal edildiyi informasiya sistemlərinin və ehtiyatlarının inteqrasiyasını, monitorinqlərin və analitik təhlillərin aparılmasını, proqnozların hazırlanmasını və qeyd edilən sahədə mərkəzləşdirilmiş elektron xidmətlərin göstərilməsini təmin edən informasiya sistemi;

1.2.19. **xidmət nöqtələri** - kiçik və orta biznes evləri.

1.3. Bu Qaydalarda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

1.4. İstilik və isti su təchizatı xidmətləri enerji təchizatı müəssisəsi (bundan sonra - Müəssisə) ilə istehlakçı arasında bağlanılmış müqaviləyə əsasən həyata keçirilir.

1.5. Müqavilələr bu Qaydalara əsasən verilən texniki şərtlərin tələbləri yerinə yetirildikdən sonra əhali qrupuna aid istehlakçılarla bu Qaydaların 1 nömrəli əlavəsi, qeyri-əhali qrupuna aid istehlakçılarla isə bu Qaydaların 2 nömrəli əlavəsi ilə müəyyən edilmiş formalara uyğun bağlanılır.

1.6. Abonentə məxsus istilik şəbəkəsinə onun təşəbbüsü ilə subabonentlərin qoşulması Müəssisənin razılığı əsasında, Müəssisənin təşəbbüsü ilə abonentə məxsus şəbəkəyə subabonentlərin qoşulması isə abonentin razılığı əsasında həyata keçirilir. Abonentə məxsus şəbəkəyə subabonentlərin qoşulması bu Qaydalara əsasən verilən texniki şərtlərdə nəzərdə tutulur. Abonent ilə subabonent arasında hesablaşmalar onlar arasında bağlanılmış müqaviləyə və bu Qaydaların 9-cu hissəsinə uyğun olaraq aparılır.

1.7. İstiliyin və isti suyun maksimal saatlıq gücü istilik mənbəyinin texniki imkanları və istilik şəbəkəsinin buraxılış qabiliyyəti nəzərə alınmaqla Müəssisə tərəfindən müəyyən edilir və texniki şərtlərdə əks olunur.

1.8. İstehlakçının müraciəti ilə maksimal saatlıq gücün artırılmasına yeni texniki şərtlər verildikdən və həmin texniki şərtlərin tələbləri yerinə yetirildikdən sonra yol verilir.

1.9. Müəssisə və istehlakçının bu Qaydalara əsasən müəyyənləşdirilən vəzifələri və hüquqları, habelə istilik və isti su təchizatı xidmətlərinin həcmi, istilik və isti su təchizatı xidmətlərindən istifadəyə görə hesablaşmalar və digər məsələlər müqavilədə göstərilir.

1.10. Bu Qaydaların tələblərinin yerinə yetirilməsinə dövlət nəzarətini "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinin yeddinci abzasına əsasən istilik enerjisinin səmərəli, etibarlı ötürülməsinə, paylanmasına, satışına və istehlakına münasibətdə Azərbaycan Respublikasının Energetika Nazirliyi, təhlükəsizlik tələblərinə əməl olunmasına münasibətdə isə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi həyata keçirir.

1.11. Müəssisə tərəfindən verilmiş texniki şərtlər barədə məlumatlar Sistem vasitəsilə Enerji Məsələlərini Tənzimləmə Agentliyinə təqdim edilir.

1.12. Sifarişçi ona verilmiş texniki şərtləri və istilik təchizatı sisteminin layihəsini itirdikdə o, həmin sənədlərin dublikatının alınması üçün xidmət nöqtələrinə müraciət edir və ya elektron qaydada həmin sənədləri Sistemdən əldə edir. Həmin sənədlərin dublikatı müraciət edildiyi gün xidmət nöqtələri vasitəsilə sifarişçiyə ödənişsiz verilir.

1.13. Büdcə təşkilatlarının, dövlətin adından yaradılan publik hüquqi şəxslərin, paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin tikinti obyektlərinin istilik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması üzrə prosedur və tələblər də bu Qaydalarla müəyyən edilir.

### 2. İstehlakçıların tikinti obyektlərinin istilik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması üçün texniki şərtlərin verilməsi

2.1. İstehlakçıların tikinti obyektlərinin istilik şəbəkəsinə qoşulması texniki şərtlər əsasında həyata keçirilir. Texniki şərtlər aşağıdakı hallarda verilir:

2.1.1. yeni tikilən və ya istilik şəbəkəsinə əvvəllər qoşulmamış tikinti obyektlərinin istilik və isti su təchizatı üçün;

2.1.2. istilik istehlakı sisteminin genişləndirilməsi və ya yenidən qurulması ilə əlaqədar maksimal saatlıq gücün və ya istilik daşıyıcılarının parametrlərinin dəyişməsi nəticəsində mövcud texniki şərtlərin tələblərindən kənara çıxma olduqda;

2.1.3. xarici istilik və isti su təchizatı sxeminin dəyişməsi ilə əlaqədar;

2.1.4. istilik şəbəkəsi yenidən qurulduqda.

2.2. Müəssisə heç bir ayrı-seçkiliyə yol vermədən bu Qaydalara uyğun olaraq texniki şərtlər verməlidir.

2.3. Texniki şərtlərin hazırlanması və verilməsi üçün haqq ödənilmir.

2.4. Texniki şərtlər Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 77-ci maddəsində nəzərdə tutulmuş tikintiyə icazənin qüvvədə olduğu müddətə, digər hallarda isə 3 (üç) il müddətinə verilir və bu müddətdə sifarişçi ilə Müəssisə arasında müqavilə bağlanılmadıqda, verilmiş texniki şərtlər qüvvədən düşmüş hesab edilir.

2.5. İstehlakçıların tikinti obyektlərinin istilik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması üçün texniki şərtlər Müəssisə tərəfindən Sistem və ya xidmət nöqtələri vasitəsilə verilir.

2.6. Texniki şərtlər almaq üçün sifarişçi "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu və 30-cu maddələrinə uyğun olaraq, bu Qaydaların 2.7-ci bəndində qeyd olunan məlumatları Sistemə daxil edir və ya həmin məlumatların Sistemə daxil edilməsi məqsədilə tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) ərazi üzrə xidmət nöqtələrində Müəssisənin nümayəndəsinə ərizə ilə (elektron və ya yazılı formada) müraciət edir. Ərizəyə əlavə olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər ərizəçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.

2.7. Sistemə aşağıdakı məlumatlar daxil edilir:

2.7.1. sifarişçi hüquqi şəxs olduqda - adı, hüquqi ünvanı və VÖEN-i, fiziki şəxs olduqda isə - soyadı, adı, atasının adı və ünvanı, şəxsiyyətini təsdiq edən sənədin seriyası və FİN nömrəsi, VÖEN-i (olduqda);

2.7.2. sifarişçinin istilik şəbəkəsinə qoşulması nəzərdə tutulan tikinti obyektinin və ya tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsinin ünvanı (olduğu yer) və həmin tikinti obyekti və ya tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsi üzərində sifarişçinin mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənəd barədə məlumatlar (daşınmaz əmlakın dövlət reyestr nömrəsi və daşınmaz əmlakın qeydiyyat nömrəsi) və ya həmin sənədin skan olunmuş surəti;

2.7.3. sifarişçinin istilik şəbəkəsinə qoşulması nəzərdə tutulan tikinti obyektinin təyinatı;

2.7.4. tələb olunan istilik gücü və istehlakın növləri (texnoloji, isitmə, isti su);

2.7.5. sifarişçinin elektron poçt ünvanı (olduqda), mobil telefon nömrəsi.

2.8. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 31-ci maddəsinə uyğun olaraq, Müəssisənin nümayəndəsi sifarişçinin xidmət nöqtələri vasitəsilə təqdim etdiyi və ya elektron formada göndərdiyi ərizəsini, ona əlavə olunmuş sənədləri qəbul edir və həmin gün Sistemə daxil edir. Sistemə daxil edilən məlumatlar avtomatik qaydada həmin gün qeydiyyata alınır.

2.9. Sistemə daxil edilmiş məlumatların bu Qaydaların 2.7-ci bəndinin tələblərinə uyğunluğu sifarişçinin müraciət etdiyi gün yoxlanılır. Sənədlərdə çatışmazlıqlar və ya bu Qaydaların 2.29-cu bəndində nəzərdə tutulmuş imtina üçün əsaslar olmadıqda, sənədlər qeydə alındığı gündən 10 (on) gün müddətində Müəssisə tərəfindən texniki şərtin verilməsi haqqında, imtina üçün əsaslar olduqda isə imtina barədə qərar qəbul edilir. Sənədlərdə aradan qaldırılması mümkün olan çatışmazlıqlar aşkar edildikdə, həmin çatışmazlıqların aradan qaldırılmasının zəruriliyi barədə məlumat dərhal xidmət nöqtələri vasitəsilə sifarişçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə sifarişçiyə göndərilməsi təmin edilir, eyni zamanda ərizəsində qeyd olunduğu hallarda elektron poçt ünvanına göndərilir və ya Sistemə yüklənir və formal tələblərə əməl olunmamasının hüquqi nəticələri ona izah edilir.

2.10. Sifarişçi həmin çatışmazlıqları məlumatı aldığı tarixdən ən geci 10 (on) gün müddətində aradan qaldırır. Bu zaman bu Qaydaların 2.9-cu bəndinin ikinci cümləsində nəzərdə tutulmuş müddətin axımı dayandırılır. Çatışmazlıqların aradan qaldırıldığı barədə sifarişçinin məlumatına əsasən müddətin axımı bərpa olunur.

2.11. Sifarişçi sənədlərində aşkar olunmuş çatışmazlıqları göstərilən müddətdə aradan qaldırmadıqda, müraciətin baxılmamış saxlanılması haqqında qərar qəbul edilir və bu barədə məlumat 2 (iki) gün müddətində xidmət nöqtələri vasitəsilə kağız daşıyıcıda sifarişçiyə təqdim edilir, yaxud poçt göndərişi vasitəsilə (eyni zamanda ərizəsində qeyd olunduğu halda elektron poçt ünvanına) sifarişçiyə göndərilir və Sistemə yüklənir.

2.12. İstilik təchizatı sisteminin layihəsinin hazırlanması və tikinti obyektindən və ya tikinti obyektinin yerləşəcəyi torpaq sahəsindən istilik şəbəkəsinin qoşulma nöqtəsinədək istilik xətlərinin çəkilməsi və tikinti-quraşdırma işləri sifarişçinin öz vəsaiti hesabına, onun seçiminə uyğun olaraq Müəssisə və ya podratçı tərəfindən həyata keçirilir.

2.13. Bu Qaydaların 2.12-ci bəndində nəzərdə tutulan işlər Müəssisə tərəfindən həyata keçirildiyi hallarda istilik təchizatı sisteminin layihəsi ilə yanaşı, smeta sənədləri də hazırlanır.

2.14. İstilik təchizatı sisteminin layihəsinin podratçı tərəfindən hazırlanacağı hallarda Sistemə daxil edilmiş məlumatların bu Qaydaların 2.7-ci bəndinin tələblərinə uyğunluğunun təsdiqləndiyi gündən 10 (on) gün müddətində Müəssisə texniki şərtləri hazırlayaraq xidmət nöqtələri vasitəsilə kağız daşıyıcıda sifarişçiyə təqdim edir və ya Sistemə yükləyir və sifarişçi ilə iki nüsxədə qoşulma müqaviləsi bağlayır. Qoşulma müqaviləsinin bir nüsxəsi Müəssisədə saxlanılır, digər nüsxəsi isə kağız daşıyıcıda sifarişçiyə təqdim edilir və Müəssisə tərəfindən həmin gün Sistemə yerləşdirilir.

2.15. Bu Qaydaların 2.12-ci bəndində nəzərdə tutulan işlər Müəssisə tərəfindən həyata keçiriləcəyi hallarda Müəssisənin nümayəndəsi Sistemə daxil edilmiş məlumatların bu Qaydaların 2.7-ci bəndinin tələblərinə uyğunluğunun təsdiqləndiyi gündən etibarən 1 (bir) gün müddətində tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsinin sərhədindən (girişindən) istilik şəbəkəsinə optimal qoşulma nöqtəsini müəyyən edir. Həmin nöqtədən tikinti obyektinə istilik xətlərinin çəkilməsi üçün 3 (üç) gün müddətində optimal trassanın (yolun) layihəsinin hazırlanması və həmin trassa (yol) üzrə istilik xətlərinin çəkilməsi üçün istilik xətlərinin keçəcəyi ərazinin xüsusiyyətlərinə uyğun olaraq, bu Qaydaların 5 nömrəli əlavəsində nəzərdə tutulan siyahı əsasında rəyi tələb olunan orqanların (qurumların) siyahısının müəyyən edilməsi üçün Müəssisə Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılıq verdiyi tikinti obyektlərinə və Bakı şəhərinin inzibati ərazisi və "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının 1.6-cı və 1.13-cü bəndləri ilə müəyyən edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhatə etdiyi şəhər və rayonların inzibati ərazilərinə münasibətdə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə, sərəncamına verilmiş torpaq sahəsində sərəncamında olduğu müddətdə həyata keçirilən şəhərsalma fəaliyyətinə münasibətdə Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinə, digər hallarda müvafiq yerli icra hakimiyyəti orqanına Sistem vasitəsilə sorğu göndərir.

2.16. Bu Qaydaların 2.15-ci bəndinə əsasən Müəssisənin nümayəndəsi seçilən trassa (yol) üzrə rəyi tələb olunan orqanların (qurumların) siyahısının Sistemə yerləşdirildiyi gün Sistem vasitəsilə həmin orqanlara (qurumlara) müraciət edir. Müəssisənin nümayəndəsi tərəfindən edilmiş müraciətə və təqdim olunmuş sənədlərə həmin orqanlar (qurumlar) 3 (üç) gündən gec olmayaraq Sistemdə münasibət bildirirlər. Bu zaman həmin orqanlar (qurumlar) tərəfindən istilik təchizatı sisteminin layihəsində nəzərə alınması üçün trassanın (yolun) razılaşdırılmasına aid texniki tələblər ayrıca göstərilir. Rəyi tələb olunan orqanlar (qurumlar) bu bəndin ikinci cümləsində göstərilən müddət ərzində münasibət bildirmədikdə, məsələ razılaşdırılmış hesab olunur.

2.17. Müəssisənin nümayəndəsi bu Qaydaların 2.16-cı bəndində nəzərdə tutulan bütün orqanların (qurumların) razılığını aldığı gün texniki şərtlər və istilik təchizatı sisteminin layihəsinin hazırlanması üçün Müəssisə tərəfindən müəyyən olunan məbləğ barədə bildirişi Sistemə daxil edir və SMS-lə sifarişçinin mobil telefon nömrəsinə göndərir. Sifarişçi bildirişi aldıqdan sonra 1 (bir) gün ərzində istilik təchizatı sisteminin layihəsinin hazırlanması üçün tələb olunan vəsaiti Sistem vasitəsilə Müəssisənin bank hesabına köçürür, vəsaitin köçürülməsini təsdiq edən sənəd barədə məlumatı Sistemə daxil edir və ya Sistemə daxil edilməsi məqsədilə Müəssisənin nümayəndəsinə təqdim edir. Vəsait köçürüldükdən sonra sifarişçi ilə iki nüsxədə qoşulma müqaviləsi bağlanılır, qoşulma müqaviləsi kağız daşıyıcıda sifarişçiyə təqdim edilir və Müəssisə tərəfindən həmin gün Sistemə yerləşdirilir. Müəssisənin nümayəndəsi texniki şərtlərin və istilik təchizatı sisteminin layihəsinin hazırlanması üçün Müəssisəyə müvafiq sənədlərlə müraciət edir. Müəssisə bu Qaydaların 2.13-cü bəndində nəzərdə tutulmuş hallarda 20 (iyirmi) gün müddətində texniki şərtləri və istilik təchizatı sisteminin layihəsini hazırlayır. Bu zaman Müəssisə sifarişçinin iştirakı olmadan tikinti obyektinə yerində baxış keçirə bilər.

2.18. Bu Qaydaların 2.13-cü bəndində nəzərdə tutulmuş hallarda Müəssisə tərəfindən texniki şərtlər və istilik təchizatı sisteminin layihəsi xidmət nöqtələrindəki Müəssisənin nümayəndəsinə təqdim olunduqdan sonra Müəssisənin nümayəndəsi tərəfindən həmin gün sifarişçiyə məlumat verilir. Texniki şərtlər və bu Qaydaların 2.13-cü bəndində nəzərdə tutulmuş hallarda istilik təchizatı sisteminin layihəsi xidmət nöqtələri vasitəsilə kağız daşıyıcıda sifarişçiyə təqdim edilir.

2.19. İstilik təchizatı sisteminin layihəsinin hazırlanmasının podratçı tərəfindən həyata keçiriləcəyi hallarda sifarişçi texniki şərtləri əldə etdikdən sonra tikinti obyektinə istilik xətlərinin çəkilməsi üçün 3 (üç) gün müddətində optimal trassanın (yolun) layihəsinin və həmin trassa (yol) üzrə istilik xətlərinin keçəcəyi ərazinin xüsusiyyətlərinə uyğun olaraq, bu Qaydaların 5 nömrəli əlavəsi ilə müəyyən edilən siyahıdan rəyi tələb olunan orqanların (qurumların) siyahısının müəyyən edilməsi üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılıq verdiyi tikinti obyektlərinə və Bakı şəhərinin inzibati ərazisi və "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının 1.6-cı və 1.13-cü bəndləri ilə müəyyən edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhatə etdiyi şəhər və rayonların inzibati ərazilərinə münasibətdə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə, sərəncamına verilmiş torpaq sahəsində sərəncamında olduğu müddətdə həyata keçirilən şəhərsalma fəaliyyətinə münasibətdə Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinə, digər hallarda isə müvafiq yerli icra hakimiyyəti orqanına müraciət edir. Sifarişçi seçilən trassa (yol) üzrə rəyi tələb olunan qurumların dairəsi müəyyən edildiyi gün həmin orqanlara (qurumlara) yazılı müraciət edir və bu halda rəyi tələb olunan orqanlar (qurumlar) tərəfindən bu Qaydaların 2.16-cı bəndində qeyd edilən tələblərə riayət olunur.

2.20. Tikinti obyektindən və ya tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsindən istilik şəbəkəsinə qoşulma nöqtəsinədək istilik xətlərinin çəkilməsi və tikinti-quraşdırma işləri Müəssisə tərəfindən həyata keçirildikdə, Müəssisənin nümayəndəsi tərəfindən Müəssisənin hazırladığı smeta sənədlərinə əsasən tikinti-quraşdırma işləri üçün tələb olunan məbləğ barədə bildiriş Sistemə daxil edilir və SMS-lə sifarişçinin mobil nömrəsinə göndərilir. Həmin işlər texniki şərtlərə və istilik təchizatı sisteminin layihəsinə əsasən qoşulma müqaviləsində göstərilən müddətdə və bildirişdə əks olunan vəsait sifarişçi tərəfindən Müəssisənin bank hesabına köçürüldükdən sonra yerinə yetirilir. Sifarişçi bildirişə əsasən tikinti-quraşdırma işləri üçün tələb olunan məbləği Sistem vasitəsilə Müəssisənin bank hesabına köçürür və ya vəsaitin köçürülməsini təsdiq edən sənəd barədə məlumatı Sistemə daxil edir və ya Sistemə daxil edilməsi məqsədilə Müəssisənin nümayəndəsinə təqdim edir.

2.21. İstilik təchizatı sisteminin layihəsi sifarişçinin seçdiyi podratçı tərəfindən hazırlandıqda razılaşdırılması üçün sifarişçi tərəfindən Müəssisəyə təqdim edilir. Müəssisə tərəfindən 3 (üç) gün müddətində münasibət bildirilmədikdə layihə razılaşdırılmış hesab edilir. Müəssisənin rəyi əsasında sifarişçi tərəfindən istilik təchizatı sisteminin layihəsində müvafiq dəyişikliklər edildikdən sonra bu bəndin tələblərinə uyğun olaraq istilik təchizatı sisteminin layihəsi yenidən razılaşdırılır. Layihəyə dair bütün iradlar ilkin rəydə bildirilməlidir. Sifarişçi tərəfindən həmin qurumların ilkin rəyləri tam nəzərə alındığı halda yeni rəy bildirilə bilməz.

2.22. İstilik təchizatı sisteminin layihəsinin hazırlanması, həmçinin istilik xətlərinin çəkilməsi və tikinti-quraşdırma işləri podratçı tərəfindən həyata keçirildikdə, işlər yerinə yetirildikdən sonra sifarişçi Müəssisəyə bu barədə kağız daşıyıcıda məlumat verir və ya həmin məlumatı Sistemə yerləşdirir.

2.23. Qoşulma müqaviləsi və onun tərkib hissəsi olan texniki şərtlər bu Qaydaların 4 nömrəli əlavəsi, qoşulma aktı isə bu Qaydaların 3 nömrəli əlavəsi ilə müəyyən edilən formada tərtib edilir.

2.24. Bu Qaydaların 2.20-ci və 2.22-ci bəndlərində nəzərdə tutulmuş işlər yerinə yetirildikdən sonra 2 (iki) gün müddətində Müəssisənin nümayəndələrinin, sifarişçinin (və ya nümayəndəsinin), bu işlər podratçı tərəfindən yerinə yetirildiyi halda isə həmçinin həmin podratçının iştirakı ilə görülən işlərə baxış keçirilir və texniki şərtlərin, istilik təchizatı sistemi layihəsi tam yerinə yetirildikdə təhvil-təslim aktı sifarişçi ilə Müəssisə arasında iki nüsxədə qoşulma aktı imzalanır, müqavilə bağlanılır və həmin sənədlər Sistemə yerləşdirilir, kağız daşıyıcıda sifarişçiyə təqdim edilir və Müəssisə tərəfindən xidmət göstərilməsinə başlanılır.

2.25. Podratçı tərəfindən yerinə yetirilmiş işlərə baxış keçirilərkən texniki şərtlərin və istilik təchizatı sisteminin layihəsinin tələblərinin tam yerinə yetirilməməsi müəyyən olunduqda, Müəssisə tərəfindən bu barədə sifarişçiyə 2 (iki) gün müddətində aradan qaldırılmalı çatışmazlıqlar göstərilməklə əsaslandırılmış cavab verilməlidir.

2.26. Sifarişçi göstərilmiş çatışmazlıqları aradan qaldırmalı və görülən işlərə 2 (iki) gün müddətində yenidən baxış keçirilməlidir.

2.27. Tikintiyə icazə icraatı çərçivəsində tikinti obyektinin istilik şəbəkəsinə qoşulması məqsədilə texniki şərtlərin və istilik təchizatı sisteminin layihəsinin xidmət nöqtələri vasitəsilə verilməsi tikintiyə icazə verən orqan tərəfindən Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq, bu Qaydaların tələbləri nəzərə alınmaqla təmin edilir.

2.28. Sifarişçinin inşa ediləcək tikinti obyektinin istilik şəbəkəsinə qoşulması sifarişçi tərəfindən həmin tikinti obyektinin tikintisinə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq icazə alındıqdan sonra onun bu Qaydaların 2.5-ci bəndində nəzərdə tutulmuş qaydada müraciətinə əsasən və bu Qaydalara uyğun olaraq həyata keçirilir.

2.29. Texniki şərtlərin verilməsindən aşağıdakı hallarda imtina edilir:

2.29.1. təqdim edilən sənədlərdə səhv və ya təhrif olunmuş məlumatlar olduqda;

2.29.2. istilik şəbəkəsinə qoşulması nəzərdə tutulan tikinti obyektinin yerləşdiyi ərazidə istilik şəbəkəsi və ya mövcud istilik şəbəkəsində tələb olunan həcmdə sərbəst istilik gücü olmadıqda (təsdiqedici sənəd və əsaslandırmalar təqdim edilməklə).

2.30. İstehlakçıya texniki şərtlərin verilməsindən imtina edildikdə, bu barədə ona imtinanın səbəblərini əsaslandırmaqla, imtina barədə qərar qəbul edildiyi gündən 5 (beş) gün müddətində məlumat təqdim edilir (elektron poçt ünvanı və sifarişli poçt göndərişi vasitəsilə göndərilir) və Sistemə yerləşdirilir.

2.31. İstilik şəbəkəsinə qoşulmuş tikinti obyekti üçün əvvəllər verilmiş texniki şərtləri bərpa etmək mümkün olmadıqda, mövcud olan istilik təchizatı sxeminə uyğun olaraq maksimal saatlıq güc göstərilməklə yeni texniki şərtlər verilir. Bu zaman maksimal gücün həcmi son 2 (iki) ildə istehlak gücü həddinə bərabər, yaxud istehlakçının (sifarişçinin) əvvəlki maksimal saatlıq gücünün həcmi haqqında təqdim etdiyi sənədlərə əsasən müəyyən edilir.

2.32. İstilik təchizatı sisteminin layihələndirilməsi zamanı texniki şərtlərin tələblərindən kənara çıxma zərurəti yaranarsa, sifarişçi kənara çıxma zərurəti yaradan səbəblərə dair əsaslandırılmış məlumatlar qeyd edilməklə onun razılaşdırılması üçün ərizə ilə texniki şərtləri vermiş Müəssisəyə müraciət edir. Texniki şərtləri vermiş Müəssisə 2 (iki) gün müddətində sifarişçi tərəfindən təqdim edilmiş kənara çıxma zərurətinə dair məlumatlar əsaslı hesab edildikdə texniki şərtlərdə müvafiq dəyişikliklərin edilməsi barədə, əks halda texniki şərtlərin qüvvədə saxlanılması barədə qərar qəbul edir.

2.33. Qoşulma nöqtəsi tikinti obyektinə ən yaxın məsafədə yerləşən istilik mənbəyinin texniki imkanları, istilik şəbəkəsinin buraxılış qabiliyyəti və tələb olunan istilik gücü nəzərə alınmaqla müəyyən edilməlidir.

2.34. Müəssisə ilə sifarişçi arasında balans mənsubiyyəti sərhədi qoşulma aktı ilə müəyyən edilir. Subabonentə münasibətdə isə balans mənsubiyyəti sərhədi ona məxsus istilik istehlakı qurğularının abonentin istilik şəbəkəsinə qoşulma nöqtəsidir və onlar arasında bağlanılmış istilik və isti su təchizatı xidmətlərinə dair müqavilə ilə müəyyən edilir.

2.35. Müəssisə ilə sifarişçi arasında istismar məsuliyyəti sərhədi balans mənsubiyyəti sərhədi ilə müəyyən edilir.

2.36. Qoşulma aktı imzalandığı halda Müəssisə müqavilə bağlamaqdan imtina edə bilməz.

2.37. Yaşayış binalarının istilik şəbəkəsinə qoşulması üçün texniki şərtlərin verildiyi və həmin texniki şərtlərin tələblərinin icra olunduğu nəzərə alınaraq, həmin binalarda yerləşən mənzillərin istilik şəbəkəsinə qoşulması üçün ayrıca texniki şərtlərin və istilik təchizatı sisteminin layihəsinin alınması tələb olunmur.

### 3. İstilik və isti su sayğaclarının quraşdırılması və istismarı

3.1. Müəssisə və istehlakçı arasında istilik və isti su təchizatı xidmətlərinə görə hesablaşma aparılması üçün balans mənsubiyyəti sərhədində, bu mümkün olmadığı hallarda isə istilik mənbəyində "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tipi təsdiq edilmiş müvafiq sayğac quraşdırılmalıdır.

*Ardı 7-ci səh.*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 sentyabr tarixli 303 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

# İstilik enerjisindən istifadə qaydaları

*Əvvəli 6-cı səh.*

3.2. Əhali qrupuna aid olan istehlakçılara göstərilən istilik təchizatı xidmətlərinin uçotu bu Qaydaların 3.4-cü bəndində nəzərdə tutulan hallar istisna olmaqla, binanın istilik şəbəkəsinə qoşulma nöqtəsində quraşdırılmış sayğac vasitəsilə, isti su təchizatı xidmətlərinin uçotu isə mənzillərin və ya yaşayış evlərinin girişində və ya onların daxilində quraşdırılmış sayğac vasitəsilə aparılır.

3.3. İstehlakçıların sayğacla təchiz edilməsi, onun quraşdırılması və dəyişdirilməsi əhali qrupuna aid olan istehlakçılara münasibətdə bu Qaydaların 3.4-cü bəndində nəzərdə tutulan hallar istisna olmaqla, Müəssisənin vəsaiti hesabına, qeyri-əhali qrupuna aid olan istehlakçılara münasibətdə isə istehlakçının öz vəsaiti hesabına həyata keçirilir.

3.4. İstilik təchizatı xidmətləri üçün sayğaclar əhali qrupuna aid olan istehlakçıların mənzilində və ya yaşayış evində istehlakçının istəyi ilə onun vəsaiti hesabına Müəssisə və ya podratçı tərəfindən quraşdırılır və bu halda hesablaşmalar sayğacda əks olunmuş göstəricilərə uyğun həyata keçirilir.

3.5. Zədələnmiş sayğacların (hesablama mexanizmlərinin sıradan çıxması, baxış pəncərəsinin sınması, üzərindəki plombların qırılması, texniki nasazlıqlar və s.) təmiri, dəyişdirilməsi (yenisi ilə əvəz edilməsi) və quraşdırılması bu barədə müraciət edildiyi və ya belə halların aşkar olunduğu gündən sonra ən geci 15 (on beş) gün müddətində bu Qaydaların tələblərinə uyğun olaraq Müəssisə tərəfindən həyata keçirilir. İstehlakçının təqsiri olmadan zədələnmiş sayğacın təmiri, dəyişdirilməsi (yenisi ilə əvəz edilməsi) və quraşdırılması bu Qaydaların 3.3-cü bəndinə uyğun olaraq, zədələnmə istehlakçının təqsiri üzündən baş verdikdə isə istehlakçının vəsaiti hesabına Müəssisə tərəfindən həyata keçirilir.

3.6. Qeyri-əhali qrupuna aid olan istehlakçılar tərəfindən balans mənsubiyyəti sərhədində quraşdırılmış sayğacın qorunmasına, sayğac və xətdəki siyirtmə, süzgəc üzərindəki plombların toxunulmazlığına cavabdeh olan şəxs müəyyən edilir.

3.7. Mənzillərin və ya yaşayış evlərinin daxilində quraşdırılmış sayğaclar istisna olmaqla, əhali qrupuna aid olan istehlakçıların sayğaclarının, o cümlədən üzərindəki plombların qorunmasına və işçi vəziyyətdə saxlanılmasına görə Müəssisə cavabdehlik daşıyır.

3.8. Sayğacların növbəti yoxlanılması onların texniki pasportlarında göstərilmiş müddətdə həyata keçirilir. Sayğacların növbəti yoxlanılmasına görə istehlakçılardan vəsait tələb etmək qadağandır. İstehlakçının müraciəti ilə sayğacın növbədənkənar yoxlanılmasına görə istehlakçı Müəssisə tərəfindən müəyyən edilən və rəsmi internet səhifəsində yerləşdirilmiş məbləğdə vəsait ödəməlidir.

3.9. Müəssisənin nümayəndələri istehlakçı tərəfindən sayğaca müdaxilə edilməklə və ya istilik şəbəkəsinə qanunsuz qoşulmaqla istilik enerjisinin talanması hallarını aşkar edərlərsə, bu Qaydaların 3.11-ci və 3.12-ci bəndlərinin tələbləri nəzərə alınmaqla bu barədə istehlakçının iştirakı ilə akt tərtib etməli, həmin aktın bir nüsxəsini istehlakçıya, bir nüsxəsini inzibati xəta haqqında iş üzrə icraata başlanılması məsələsinə baxılması üçün Azərbaycan Respublikasının Energetika Nazirliyinə, cinayət işinin başlanılması üçün əsaslar olduqda isə hüquq mühafizə orqanlarına təqdim etməlidirlər. Akt Müəssisənin nümayəndəsi və istehlakçı tərəfindən imzalanmalıdır. İstehlakçı aktı imzalamaqdan imtina etdikdə, bu barədə aktda müvafiq qeyd aparılır və yol verilmiş pozuntu texniki vasitələrlə (foto və ya videoçəkiliş aparılmaqla) qeydə alınır. İstehlakçı izahatlar və aktın məzmunu barəsində öz mülahizələrini təqdim etmək, habelə aktı imzalamaqdan imtina etməsinin səbəblərini göstərmək hüququna malikdir, bu izahatlar və mülahizələr akta əlavə olunur.

3.10. İstehlakçıya göstərilən istilik və isti su təchizatı xidmətlərinin uçotu Müəssisə və istehlakçının balans mənsubiyyəti sərhədində aparılmalıdır. Sayğac balans mənsubiyyəti sərhədində quraşdırılmadığı halda, balans mənsubiyyəti sərhədindən sayğacın quraşdırıldığı yerə qədər yerləşən istilik xəttində istilik və isti su itkiləri sınaqlar aparılmaqla müəyyən edilir. Bu itkilər sayğac Müəssisənin balans mənsubiyyətinə aid hissədə quraşdırıldıqda istehlakçıya verilən hesabdan çıxılır, istehlakçının balans mənsubiyyətinə aid hissədə quraşdırıldıqda isə həmin hesaba əlavə edilir. İtkilərin müəyyən edilməsi üçün aparılan sınaqlar Müəssisənin nümayəndələri və istehlakçının iştirakı ilə həyata keçirilir.

3.11. Müəssisənin səlahiyyətli nümayəndələrinin sahibkarlıq subyektlərinin fəaliyyət göstərdiyi yerlərə gəlməklə və müqavilə şərtlərinin yerinə yetirilməsini tələb etməklə bağlı fəaliyyəti "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir.

3.12. Müəssisənin səlahiyyətli nümayəndələri sahibkarlıq subyektlərinin sayğaclarının göstəricilərinin oxunması zamanı həmin sayğaca müdaxilə, habelə sayğacdankənar istilik şəbəkəsinə qanunsuz qoşulma (Müəssisənin razılığı olmadan istilik şəbəkəsinə qoşulma) hallarını müəyyən etdikdə, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla, yoxlama keçirilməsi ilə bağlı tədbirlər görməlidirlər.

**4. Müəssisənin vəzifələri**

4.1. Müəssisənin vəzifələri aşağıdakılardır:

4.1.1. balansında olan istilik təchizatı sistemlərinin və qurğularının istismarı, təmiri, saxlanması və mühafizəsinin təmin edilməsi ilə bağlı tədbirlər görmək;

4.1.2. istehlakçını müqavilə ilə müəyyən edilmiş müddət ərzində fasiləsiz olaraq istilik və isti su təchizatı xidmətləri ilə təmin etmək;

4.1.3. istiliyin və isti suyun temperatur və təzyiq göstəricilərinin texniki şərt ilə müəyyən edilmiş parametrlərini saxlamaq;

4.1.4. istehlakçıya göstərilən istilik və isti su təchizatı xidmətlərinin dəyərini sayğacın göstəricilərinə (sayğac yalnız binanın istilik şəbəkəsinə qoşulma nöqtəsində quraşdırıldığı halda isə bu Qaydaların 9.5-ci və 9.6-cı bəndlərinə) əsasən tam hesablamaq və hər ay istehlakçıya məlumat (hesab) təqdim etmək (göndərmək);

4.1.5. istilik və isti su təchizatı xidmətləri ilə bağlı istehlakçıların müraciətlərinə "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun baxmaq;

4.1.6. Müəssisənin təqsiri nəticəsində istehlakçıya ziyan vurulduqda, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq istehlakçı qarşısında maddi məsuliyyət daşımaq;

4.1.7. bu Qaydaların 8.2-ci bəndində nəzərdə tutulan hallarda istilik və isti su təchizatı xidmətlərinin dayandırılacağı barədə istehlakçıya ən azı 5 (beş) gün əvvəl sifarişli poçt göndərişi və ya istehlakçının əvvəlcədən razılığı ilə elektron poçt ünvanı vasitəsilə yazılı bildiriş göndərmək.

**5. Müəssisənin hüquqları**

5.1. Müəssisənin hüquqları aşağıdakılardır:

5.1.1. istehlakçının təqsiri nəticəsində Müəssisəyə ziyan vurulduqda, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq maddi ziyanın ödənilməsini tələb etmək;

5.1.2. istilik və isti su təchizatı xidmətlərinin hesabı Müəssisə tərəfindən istehlakçıya təqdim edildikdən (göndərildikdən) sonra müvafiq vəsaitin tam məbləğdə ödənilməsini istehlakçıdan tələb etmək;

5.1.3. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda və qaydada Müəssisənin səlahiyyətli nümayəndələrinin vəzifə borclarını yerinə yetirmək məqsədilə maneəsiz olaraq sahibkarlıq subyekti olan istehlakçıya məxsus əraziyə daxil olması və müqavilə şərtlərinin yerinə yetirilməsi ilə bağlı araşdırmanın aparılması üçün şərait yaradılmasını sahibkarlıq subyekti olan istehlakçıdan tələb etmək.

**6. İstehlakçının vəzifələri**

6.1. İstehlakçıların vəzifələri aşağıdakılardır:

6.1.1. bu Qaydaların tələblərinə, həmçinin 1.10-cu bəndində göstərilən dövlət nəzarətini həyata keçirən orqanların qanuni göstərişlərinə əməl etmək;

6.1.2. istilik avadanlıqlarının texniki cəhətdən saz vəziyyətdə saxlanılmasını təmin etmək;

6.1.3. istehlakçıya məxsus mənzillərin və yaşayış evlərinin daxilində quraşdırılmış sayğacları onların texniki pasportlarında göstərilmiş tələblərə uyğun istismar etmək, işlək vəziyyətdə saxlanılmasını və üzərindəki plombların toxunulmazlığını təmin etmək;

6.1.4. istilik və isti su təchizatı xidmətlərindən istifadə etmək üçün Müəssisə ilə müqavilə bağlamaq və bağlanılmış müqavilənin şərtlərini yerinə yetirmək;

6.1.5. istilik və isti su təchizatı xidmətlərinin hesabı Müəssisə tərəfindən istehlakçıya təqdim edildikdən (göndərildikdən) sonra müvafiq vəsaiti 1 (bir) ay müddətində tam məbləğdə ödəmək;

6.1.6. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda və qaydada Müəssisənin səlahiyyətli nümayəndələrini vəzifə borclarını yerinə yetirmək məqsədilə maneəsiz olaraq sahibkarlıq subyekti olan istehlakçıya məxsus əraziyə buraxmaq və müqavilə şərtlərini yerinə yetirilməsi ilə bağlı araşdırmanın aparılması üçün şərait yaratmaq;

6.1.7. sayğaclar və ya onlara vurulmuş plomblar hər hansı səbəbdən zədələndikdə (xarab olduqda), aşkar olunduğu vaxtdan 1 (bir) iş günündən gec olmayaraq, bu barədə Müəssisəyə şəxsən, yazılı və ya elektron qaydada məlumat vermək;

6.1.8. istehlakçıya məxsus olan və ölçüləri istilik təchizatı sisteminin layihəsi ilə müəyyən edilmiş qızdırıcı cihazlara əlavə hissələr quraşdırmamaq, istilik sistemlərində istilik daşıyıcılarından təyinatından kənar istifadə etməmək (sistemdən və qızdırıcı cihazlardan suyu boşaltmamaq).

6.2. Müəssisə tərəfindən istilik və isti su təchizatı xidmətləri göstərilən və balansında istilik avadanlıqları, o cümlədən istilik xətləri, siyirtmələr, istilik mübadilə aparatları və s. olan qeyri-əhali qrupuna aid olan istehlakçılar, həmçinin yaşayış binasının sahə mülkiyyətçiləri (bina sahə mülkiyyətçiləri tərəfindən bilavasitə idarə edildikdə), mənzil mülkiyyətçiləri müştərək cəmiyyəti, ixtisaslaşmış istehlak kooperativi, idarəedici təşkilat əlavə olaraq aşağıdakı vəzifələri yerinə yetirməlidirlər:

6.2.1. balansında olan istilik avadanlıqlarını, o cümlədən istilik xətlərini, siyirtmələri, istilik mübadilə aparatlarını texniki cəhətdən saz vəziyyətdə saxlamaq, vaxtlı-vaxtında təmir, sınaq və sazlama işlərini aparmaq;

6.2.2. istilik və isti su təchizatı xidmətlərindən istifadənin müvəqqəti dayandırılması tələb olunan təmir işlərinin yerinə yetirilməsi müddətlərini Müəssisə ilə razılaşdırmaq;

6.2.3. istilik və isti su təchizatı xidmətlərinin göstərilməsi üçün nəzərdə tutulan tikinti obyektlərində istilik enerjisindən səmərəli istifadə və istilik itkilərinə yol verilməməsi üçün tədbirlər görmək;

6.2.4. hər il istilik mövsümü başlanmazdan əvvəl tikinti obyektinin mövsümə hazırlığı, istilik istehlakı sistemlərinin sınaqdan keçirilməsi və sazlanmasına dair məlumatları (arayışı) Müəssisəyə təqdim etmək (göndərmək).

**7. İstehlakçının hüquqları**

7.1. İstehlakçının hüquqları aşağıdakılardır:

7.1.1. istilik və isti su təchizatı xidmətlərindən istifadə etmək üçün Müəssisə ilə müqavilə bağlanılmasını və bağlanılmış müqavilənin şərtlərinin yerinə yetirilməsini tələb etmək;

7.1.2. Müəssisənin təqsiri nəticəsində vurulmuş maddi ziyanın ödənilməsini Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq tələb etmək;

7.1.3. istifadə edilmiş istilik və isti su təchizatı xidmətlərinin hesabını bu Qaydalarla müəyyən edilmiş qaydada və müddətdə təqdim edilməsini, dəqiqləşdirilməsini, yol verilmiş qeyri-dəqiqliyin aradan qaldırılmasını və ya yenidən hesablanmasını tələb etmək;

7.1.4. Müəssisənin balansında olan istilik sistemlərində baş vermiş qəzaların və nasazlıqların aradan qaldırılmasını tələb etmək;

7.1.5. müqavilənin vaxtından əvvəl ləğv olunması barədə Müəssisəyə yazılı müraciət etmək;

7.1.6. müqavilə ilə müəyyən edilmiş müddət ərzində fasiləsiz olaraq istilik və isti su xidmətləri ilə təchiz edilmək.

**8. İstilik və isti su təchizatı xidmətlərinin dayandırılması**

8.1. Müəssisə istilik və isti su təchizatı xidmətlərini aşağıdakı hallarda dayandırır:

8.1.1. istehlakçının müvafiq yazılı müraciəti (istilik və isti su təchizatı xidmətlərinin dayandırılmasının səbəbi və müddəti göstərilməklə) olduqda;

8.1.2. Müəssisənin istehlakçıya göstərdiyi istilik və isti su təchizatı xidmətlərinin hesabı istehlakçıya təqdim edildikdən (göndərildikdən) sonra müvafiq vəsait bir ay müddətində tam məbləğdə ödənilmədikdə;

8.1.3. Müəssisə ilə müvafiq müqavilə bağlanmadıqda;

8.1.4. istehlakçıya məxsus olan və ölçüləri istilik təchizatı sisteminin layihəsi ilə müəyyən edilmiş qızdırıcı cihazlara əlavə hissələrin quraşdırılması, istilik sistemlərində istilik daşıyıcılarından təyinatından kənar istifadə (sistemdən və qızdırıcı cihazlardan suyun boşaldılması) halları aşkar edildikdə;

8.1.5. təmir-profilaktika və qəza işləri görüldükdə, o cümlədən baş verən yanğının və ya qaz sızmasının qarşısı alındıqda;

8.1.6. məhkəmənin qərarı ilə;

8.1.7. dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparıldıqda, həmin əməliyyatın aparılma zonasında, dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparan orqanların göstərişi əsasında.

8.2. İstilik və isti su təchizatı xidmətlərinin dayandırılması (dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılması ilə əlaqədar dayandırma halı istisna olmaqla) yalnız fərdi qaydada həyata keçirilir. İstilik və isti su təchizatı xidmətlərinin fərdi qaydada dayandırılması texniki cəhətdən mümkün olmadığı hallarda yaranmış mübahisə ilə əlaqədar Müəssisə tərəfindən məhkəməyə müraciət edilir. İstilik və isti su təchizatı xidmətlərinin dəyərini vaxtında ödəməyən istehlakçıya istilik və isti su təchizatı xidmətlərinin dayandırılması istilik və isti su təchizatı xidmətlərinin dəyərini vaxtında ödəyən digər istehlakçıların hüquqlarının pozulması ilə nəticələnməməlidir.

8.3. Bu Qaydaların 8.1-ci bəndində nəzərdə tutulan hallarda (təmir-profilaktika və qəza işlərinin görüldüyü, o cümlədən baş verən yanğının və ya qaz sızmasının qarşısı alındığı, habelə dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparıldığı hallar istisna olmaqla) yazılı bildiriş göndərilmədən istilik və isti su təchizatı xidmətlərinin dayandırılması qadağandır. İstilik və isti su təchizatı xidmətlərinin dayandırılması hər bir halda (təmir-profilaktika və qəza işlərinin görüldüyü, o cümlədən baş verən yanğının və ya qaz sızmasının qarşısı alındığı, habelə dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparıldığı hallar istisna olmaqla) Müəssisə tərəfindən istehlakçının iştirakı ilə aktla rəsmiləşdirilməli və aktın bir nüsxəsi istehlakçıya təqdim edilməlidir.

8.4. İstehlakçı istilik və isti su təchizatı xidmətlərinin dayandırılması və ya müqavilənin vaxtından əvvəl ləğv olunması barədə xidmət nöqtələrinə və ya Müəssisəyə yazılı müraciət etdikdə, Müəssisə 2 (iki) gün müddətində istilik və isti su təchizatı xidmətlərinin dayandırılması barədə qərar qəbul edir və bu barədə dərhal istehlakçıya məlumat verilir. Qərar qəbul edildiyi gündən xidmət dayandırılır. İstehlakçı xidmətin dayandırıldığı sonuncu günədək istifadə etdiyi istilik və isti su təchizatı xidmətlərinin dəyərini ödəməlidir.

8.5. İstilik və isti su təchizatı xidmətləri göstərilən tikinti obyektinin mülkiyyətçisi və ya digər əşya hüquqları əsasında sahiblik edən şəxs dəyişdikdə, əvvəlki istehlakçı mülkiyyətçinin və ya digər əşya hüquqları əsasında sahiblik edən şəxsin dəyişdirildiyi günədək istilik və isti su təchizatı xidmətlərinə görə olan borcunu ödəməlidir. Yeni mülkiyyətçi və ya digər əşya hüquqları əsasında sahiblik edən şəxs bu hüququ əldə etdiyi gündən 10 (on) gün müddətində "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsi nəzərə alınmaqla bu barədə təsdiqedici sənədlər təqdim edərək yeni müqavilənin bağlanılması üçün Müəssisəyə yazılı müraciət etməlidir. Müəssisə yeni mülkiyyətçinin və ya digər əşya hüquqları əsasında sahiblik edən şəxsin müraciət etdiyi gündən 3 (üç) gün müddətində əvvəlki istehlakçı ilə bağlanılmış müqaviləni birtərəfli qaydada ləğv etməli və onunla müqavilə bağlamalıdır.

8.6. İstilik və isti su təchizatı xidmətlərinin dayandırılmasına səbəb olmuş hallar aradan qaldırıldıqdan və Müəssisə tərəfindən istehlakçının iştirakı ilə aktla rəsmiləşdirildikdən sonra 1 (bir) gün müddətində istiliyin və isti suyun verilməsi bərpa edilməli və aktın bir nüsxəsi istehlakçıya təqdim edilməlidir.

**9. İstilik və isti su təchizatı xidmətlərindən istifadəyə görə hesablaşmalar**

9.1. Müəssisə tərəfindən göstərilən istilik təchizatı xidmətlərinə görə hesablaşmalar Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən müəyyən edilmiş tariflərlə, isti su təchizatı xidmətlərinə görə hesablaşmalar isə müqavilə ilə müəyyən edilmiş tariflərlə həyata keçirilir.

9.2. Müəssisə istehlakçıya göstərilən istilik və isti su təchizatı xidmətlərinin dəyərini sayğacın göstəricilərinə (sayğac yalnız binanın istilik şəbəkəsinə qoşulma nöqtəsində quraşdırıldığı halda isə bu Qaydaların 9.5-ci və 9.6-cı bəndlərinə) əsasən tam hesablamalı və hər ay istehlakçıya məlumat (hesab) təqdim etməlidir (göndərməlidir). İstehlakçı tərəfindən istilik və isti su təchizatı xidmətlərinin hesabı tam ödənildikdən sonra, Müəssisə tərəfindən yol verilmiş səhvə görə düzgün hesablanmamış istilik və isti su təchizatı xidmətlərinin dəyərini Müəssisə istehlakçı tərəfindən ödənilməsini tələb edə bilməz.

9.3. İstehlakçıya göstərilən istilik və isti su təchizatı xidmətlərinin həcmi Müəssisə və istehlakçı arasındakı istilik şəbəkəsinin balans mənsubiyyəti sərhədində müəyyən edilir.

9.4. Balans mənsubiyyəti sərhədinə qədər istilik və isti suyun ötürülməsi və istilik itkiləri ilə bağlı bütün xərclər istilik tariflərinə daxil edilir və istehlakçıdan tarifdən artıq əlavə ödəniş tələb edilmir.

9.5. Sayğac yalnız binanın istilik şəbəkəsinə qoşulma nöqtəsində quraşdırıldığı halda istehlakçılarla hesablaşmalar əhali qrupuna aid istehlakçılar üzrə aşağıdakı qaydada həyata keçirilir:

9.5.1. istilik təchizatı xidmətləri ilə bağlı - istehlakçının mənzilinin ümumi sahəsinə görə bu Qaydaların 9.1-ci bəndində nəzərdə tutulmuş qaydada müəyyən edilən tariflərlə;

9.5.2. isti su təchizatı xidmətləri ilə bağlı - istehlakçının mənzilində bir nəfər üçün aylıq isti su istehlakı norması (2,5 kubmetr) nəzərə alınmaqla, qeydiyyatda olan şəxslərin sayına görə.

9.6. Sayğac yalnız binanın istilik şəbəkəsinə qoşulma nöqtəsində quraşdırıldığı halda istehlakçılarla hesablaşmalar qeyri-əhali qrupuna aid istehlakçılar üzrə aşağıdakı qaydada həyata keçirilir:

9.6.1. istilik təchizatı xidmətləri ilə bağlı - istehlakçının tikinti obyektinin tikinti həcminə görə bu Qaydaların 9.1-ci bəndində nəzərdə tutulmuş qaydada müəyyən edilən tariflərlə;

9.6.2. isti su təchizatı xidmətləri ilə bağlı - istehlakçının tikinti obyektində isti su istifadə edilən nöqtələrin sayına görə.

9.7. Sayğac yalnız binanın istilik şəbəkəsinə qoşulma nöqtəsində quraşdırıldığı halda mənzillərdə isti su sərfiyyatı həmin mənzildə qeydiyyatda olan şəxslərin sayına uyğun olaraq müəyyən edilir (qeydiyyatda olan şəxslərin sayı barədə arayış "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsi nəzərə alınmaqla istehlakçı tərəfindən təqdim edilir). Qeydiyyatda olan şəxslərin sayında dəyişiklik olduqda, istehlakçı bu barədə 7 (yeddi) gün müddətində Müəssisəyə məlumat verməlidir. Müəssisə məlumatın verildiyi gündən hesablamanı məlumata uyğun aparmalıdır.

9.8. İstehlakçının müraciəti və ya Müəssisənin təşəbbüsü əsasında istehlakçıya göndərilmiş (təqdim edilmiş) hesaba (istehlakçının müraciət etdiyi hallarda onun müraciət etdiyi gündən 3 (üç) gün müddətində) yenidən baxılır. Sayğacın göstəricilərinin yenidən oxunması və ya hesabların yenidən yoxlanılması nəticəsində fərq müəyyən olunduqda, qarşılıqlı razılaşma əsasında hesabda müvafiq düzəliş aparılır. Düzəliş nəticəsində istehlakçının artıq (və ya əskik) ödədiyi məbləğ bu Qaydaların 9.2-ci bəndinin tələbləri nəzərə alınmaqla növbəti hesablarda nəzərə alınır.

9.9. İstehlakçı Müəssisənin nümayəndəsinin sayğaca baxmasına maneə törətdikdə və ya şərait yaratmadıqda, istilik və isti su təchizatı xidmətlərinin həcmi istehlakçının əvvəlki 12 (on iki) aylıq dövrdə (istehlak dövrü 12 (on iki) aydan az olduqda, faktiki istehlak dövrü üzrə) istifadə etdiyi orta aylıq sərfinə əsasən müəyyən edilir. Orta aylıq sərfə əsasən tərtib edilmiş hesablara sayğacın sonradan müəyyən olunmuş göstəricisinə uyğun olaraq düzəliş aparılır. Düzəliş nəticəsində istehlakçının artıq (və ya əskik) ödədiyi məbləğ növbəti hesablarda nəzərə alınır.

9.10. Sayğac Müəssisə tərəfindən bu Qaydaların 3.5-ci bəndində nəzərdə tutulmuş hallarda çıxarıldıqda (götürüldükdə), sayğacın olmadığı müddət ərzində istilik və isti su təchizatı xidmətləri dayandırılmır və istifadə edilmiş istilik və isti su təchizatı xidmətlərinin dəyəri üzrə hesablaşmalar sayğac çıxarıldığı gündən əvvəlki 12 (on iki) ayda (istehlak dövrü 12 (on iki) aydan az olduqda, faktiki istehlak dövrü üzrə) göstərilən istilik və isti su təchizatı xidmətlərinin orta aylıq sərfi həcmində müəyyən edilir.

9.11. Sayğaca müdaxilə və sayğacda pozuntu (sayğacın göstəricilərinin xətasının müəyyən edilmiş normalardan artıq olması) halları aşkar edildikdə, sayğacın sonuncu dəfə göstəricilərinin qeyd edilməsindən sonrakı dövr üçün sərf edilmiş istilik və isti suyun həcmi bu xidmətlərin göstərildiyi əvvəlki 12 (on iki) ayda (istehlak dövrü 12 (on iki) aydan az olduqda, faktiki istehlak dövrü üzrə) göstərilən istilik və isti su təchizatı xidmətlərinin orta aylıq sərfi həcmində müəyyən edilir.

9.12. İstilik və isti su təchizatı xidmətlərinin dəyəri nağdsız qaydada bank, poçt, elektron ödəmə sistemləri və ya internet vasitəsilə ödənilir.

*"İstilik enerjisindən istifadə qaydaları"na*
**1 nömrəli əlavə**

**İstilik və isti su təchizatı xidmətlərinə dair**
**M Ü Q A V İ L Ə**
**№ ____**
**(Əhali qrupuna aid olan istehlakçılar)**

"____" ________ 202 _ il ___________ şəhəri (rayonu)

Bir tərəfdən enerji təchizatı müəssisəsi (bundan sonra - Müəssisə) rəhbəri ________________________________ şəxsində, digər tərəfdən _____________ şəhəri,________________________ küçəsi, bina___ mənzil___ yaşayan vətəndaş (mülkiyyətçi və ya digər əşya hüquqları əsasında sahiblik edən şəxs) _________________ (bundan sonra - İstehlakçı) şəxsində "İstilik enerjisindən istifadə qaydaları"na (bundan sonra - Qaydalar) uyğun olaraq bu Müqaviləni bağladılar.

**1. Müqavilənin predmeti**

Bu Müqavilə Müəssisə tərəfindən İstehlakçının mənzilinin və ya yaşayış evinin ümumi sahəsi ____ m2, mənzildə və ya yaşayış evində qeydiyyatda olanların sayı ____ nəfər olan mənzilin və ya yaşayış evinin istilik və isti su təchizatı ilə əlaqədar tərəflərin hüquq və vəzifələrini müəyyən edir.

**2. İstilik mövsümünün müddəti**

2.1. İstilik mövsümü bu Müqavilənin əlavəsində göstərilən Azərbaycan Respublikasının dağ rayonlarında 1 noyabr - 1 may, digər ərazilərdə isə 15 noyabr - 15 aprel tarixləri nəzərdə tutulur. İstilik mövsümünün başlanması və başa çatması tarixləri ölkə ərazisində havanın temperaturundan asılı olaraq "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində payız-qış mövsümünə hazırlıq işlərinin aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 24 fevral tarixli 65 nömrəli Qərarının tələbləri nəzərə alınmaqla, müvafiq yerli icra hakimiyyəti orqanını məlumatlandırmaqla Müəssisə tərəfindən fərqli tarixlərdə müəyyən edilə bilər.

2.2. İstilik mövsümünün başlanmasından və ya başa çatmasından 10 (on) gün əvvəl bu barədə istehlakçılara media, Müəssisənin rəsmi internet səhifəsi, həmçinin binaların girişində elanlar vasitəsilə məlumat verilir.

**3. İstilik və isti su təchizatı xidmətlərindən istifadəyə görə hesablaşmalar**

3.1. İstehlakçı tərəfindən istifadə edilən istilik və isti su təchizatı xidmətlərinə görə hesablaşmalar istilik və isti su sayğaclarının göstəricilərinə əsasən, sayğac yalnız binanın istilik şəbəkəsinə qoşulma nöqtəsində quraşdırıldığı halda isə Qaydaların 9.5-ci bəndinə uyğun olaraq:

3.1.1. istilik təchizatı xidmətləri ilə bağlı - istehlakçının mənzilinin ümumi sahəsinə görə Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən müəyyən edilmiş tariflərlə;

3.1.2. isti su təchizatı xidmətləri ilə bağlı - İstehlakçının mənzilində bir nəfər üçün aylıq isti su istehlakı norması nəzərə alınmaqla, qeydiyyatda olan şəxslərin sayına görə bu Müqavilə ilə müəyyən edilmiş tariflərlə həyata keçirilir.

3.2. Bu Müqavilə imzalandığı tarixə istilik təchizatı xidmətlərinin qiyməti 1 Qkal istilik enerjisi üçün ƏDV ilə ___ manat və ya mənzilin və ya yaşayış evinin 1m2 ümumi sahəsi üçün ƏDV ilə ____ manat, isti su təchizatı xidmətlərinin qiyməti 1 Qkal istilik enerjisi üçün ƏDV ilə ___ manat və ya 1m3 isti su üçün ƏDV ilə ____ manat, isti su sayğac olmayan mənzillərdə və ya yaşayış evində bir nəfər üçün aylıq isti su istehlakı norması 2,5 m3 həcmində müəyyən edilir.

3.3. Müəssisə İstehlakçı tərəfindən istifadə edilən istilik və isti su təchizatı xidmətlərinin uçotunu aparır və göstərilən istilik və isti su təchizatı xidmətlərinin dəyərini sayğacın göstəricilərinə (sayğac yalnız binanın istilik şəbəkəsinə qoşulma nöqtəsində quraşdırıldığı halda isə bu Müqavilənin 3.1-ci bəndinə) əsasən hər ay İstehlakçıya məlumat (hesab) təqdim edir (göndərir).

3.4. İstilik və isti su təchizatı xidmətlərinin hesabı istehlakçıya təqdim edildikdən (göndərildikdən) sonra müvafiq vəsait 1 (bir) ay müddətində tam məbləğdə ödənilməlidir.

3.5. Tariflər dəyişdikdə Müəssisə bu barədə media və Müəssisənin rəsmi internet səhifəsi vasitəsilə istehlakçıya məlumat verir.

**4. Müəssisənin vəzifə və hüquqları**

4.1. Müəssisənin vəzifələri aşağıdakılardır:

4.1.1. istilik mövsümünün müəyyən edilmiş müddətlərdə başlanılması və başa çatdırılması, İstehlakçının bu Müqavilə ilə müəyyən edilmiş müddət ərzində fasiləsiz olaraq istilik və isti su təchizatı xidmətləri ilə təmin edilməsi;

4.1.2. istiliyin və isti suyun temperatur və təzyiq göstəricilərinin texniki şərtlə müəyyən edilmiş parametrlərinin saxlanılması;

4.1.3. istilik və isti su təchizatı ilə bağlı İstehlakçıların müraciətlərinə "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun baxılması;

4.1.4. İstehlakçıya göstərilən istilik və isti su təchizatı xidmətlərinin dəyərini Qaydaların və bu Müqaviləyə uyğun olaraq tam hesablanması və hər ay İstehlakçıya məlumatın (hesab) təqdim edilməsi (göndərilməsi);

4.1.5. Müəssisə tərəfindən əvvəlcədən müəyyən edilmiş qrafikə uyğun olaraq təmir-profilaktika işləri görüldükdə və Qaydaların 8.2-ci bəndində nəzərdə tutulan hallarda istilik və isti su təchizatı xidmətlərinin dayandırılacağı barədə İstehlakçıya ən azı 5 (beş) gün əvvəl sifarişli poçt göndərişi və ya İstehlakçının əvvəlcədən razılığı ilə elektron poçt vasitəsilə yazılı bildiriş göndərmək;

4.1.6. Müəssisənin təqsiri nəticəsində İstehlakçıya ziyan vurulduqda, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq İstehlakçı qarşısında maddi məsuliyyət daşımaq.

4.2. Müəssisənin aşağıdakı hüquqları vardır:

4.2.1. istilik və isti su təchizatı xidmətlərinin hesabı İstehlakçıya təqdim edildikdən (göndərildikdən) sonra müvafiq vəsaitin tam məbləğdə ödənilməsini İstehlakçıdan tələb etmək;

4.2.2. İstehlakçının təqsiri nəticəsində Müəssisəyə ziyan vurulduqda, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq maddi ziyanın ödənilməsini tələb etmək.

4.3. Müəssisə istilik və isti su təchizatı xidmətlərini aşağıdakı hallarda dayandırır:

4.3.1. İstehlakçının müvafiq yazılı müraciəti (istilik və isti su təchizatı xidmətlərinin dayandırılmasının səbəbi və müddəti göstərilməklə) olduqda;

4.3.2. Müəssisənin İstehlakçıya göstərdiyi istilik və isti su təchizatı xidmətlərinin hesabı İstehlakçıya təqdim edildikdən (göndərildikdən) sonra müvafiq vəsait 1 (bir) ay müddətində tam məbləğdə ödənilmədikdə;

4.3.3. İstehlakçıya məxsus olan və ölçüləri istilik təchizatı sisteminin layihəsi ilə müəyyən edilmiş qızdırıcı cihazlara əlavə hissələrin quraşdırılması, istilik sistemlərində istilik daşıyıcılarından təyinatından kənar istifadə (sistemdən və qızdırıcı cihazlardan suyun boşaldılması) halları aşkar edildikdə;

4.3.4. təmir-profilaktika və qəza işləri görüldükdə, o cümlədən baş verən yanğının və ya qaz sızmasının qarşısı alındıqda;

4.3.5. məhkəmənin qərarı ilə;

4.3.6. dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparıldıqda, həmin əməliyyatın aparılma zonasında, dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparan orqanların göstərişi əsasında.

4.4. Bu Müqavilənin 4.3-cü bəndində (təmir-profilaktika və qəza işləri görüldüyü, o cümlədən baş verən yanğının və ya qaz sızmasının qarşısının alındığı, habelə dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparıldığı hallar istisna olmaqla) nəzərdə tutulan hallarda istilik və isti su təchizatı xidmətlərinin dayandırılması Müəssisə tərəfindən İstehlakçının iştirakı ilə aktla rəsmiləşdirilməli və aktın bir nüsxəsi İstehlakçıya təqdim edilməlidir.

4.5. İstilik və isti su təchizatı xidmətlərinin dayandırılmasına səbəb olmuş hallar aradan qaldırıldıqdan və Müəssisə tərəfindən İstehlakçının iştirakı ilə aktla rəsmiləşdirildikdən sonra 1 (bir) gün müddətində istiliyin və isti suyun verilməsi bərpa edilməli və aktın bir nüsxəsi İstehlakçıya təqdim edilməlidir.

*Ardı 8-ci səh.*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 sentyabr tarixli 303 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

# İstilik enerjisindən istifadə qaydaları

*Əvvəli 7-ci səh.*

**5. İstehlakçının vəzifə və hüquqları**

5.1. İstehlakçının vəzifələri aşağıdakılardır:

5.1.1. istilik və isti su təchizatı xidmətlərindən istifadə etmək üçün bu Müqavilənin şərtlərinin yerinə yetirilməsi;

5.1.2. istilik və isti su təchizatı xidmətlərinin hesabı Müəssisə tərəfindən İstehlakçıya təqdim edildikdən (göndərildikdən) sonra müvafiq vəsaitin 1 (bir) ay müddətində tam məbləğdə ödənilməsi;

5.1.3. İstehlakçının mənzilində və ya yaşayış evində quraşdırılmış sayğacların onların texniki pasportlarında göstərilmiş tələblərə uyğun istismar edilməsi, işlək vəziyyətdə saxlanılması və üzərindəki plombların toxunulmazlığının təmin edilməsi;

5.1.4. sayğaclar və ya onlara vurulmuş plomblar hər hansı səbəbdən zədələndikdə (xarab olduqda), aşkar olunduğu vaxtdan 1 (bir) iş günündən gec olmayaraq bu barədə Müəssisəyə məlumat verilməsi;

5.1.5. Qaydaların tələblərinə, həmçinin Qaydaların 1.10-cu bəndində göstərilən dövlət nəzarətini həyata keçirən orqanların qanuni göstərişlərinə əməl edilməsi;

5.1.6. istilik avadanlıqlarının texniki cəhətdən saz vəziyyətdə saxlanılmasının təmin edilməsi;

5.1.7. adında, soyadında, atasının adında, ünvanında dəyişiklik olduqda bu barədə Müəssisəyə məlumat verilməsi.

5.2. İstehlakçının aşağıdakı hüquqları vardır:

5.2.1. istilik və isti su təchizatı xidmətlərindən istifadə etmək üçün Müəssisə ilə Müqavilə bağlanılmasını və bağlanılmış Müqavilənin şərtlərinin yerinə yetirilməsini tələb etmək;

5.2.2. Müəssisənin təqsiri nəticəsində İstehlakçıya ziyan vurulduqda, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq maddi ziyanın ödənilməsini tələb etmək;

5.2.3. istifadə edilmiş istilik və isti su təchizatı xidmətlərinin hesabını müəyyən edilmiş qaydada və müddətdə təqdim edilməsini, dəqiqləşdirilməsini, yol verilmiş qeyri-dəqiqliyin aradan qaldırılmasını və ya yenidən hesablanmasını tələb etmək;

5.2.4. Müəssisənin balansında olan istilik sistemlərində baş vermiş qəzaların və nasazlıqların aradan qaldırılmasını tələb etmək və Müqavilənin vaxtından əvvəl ləğv olunması barədə Müəssisəyə yazılı müraciət etmək;

5.2.5. bu Müqavilə ilə müəyyən edilmiş müddət ərzində fasiləsiz olaraq istilik və isti su xidmətləri ilə təchiz edilmək.

5.3. Aşağıdakıların edilməsi qadağandır:

5.3.1. İstehlakçıya məxsus olan və ölçüləri istilik təchizatı sisteminin layihəsi ilə müəyyən edilmiş qızdırıcı cihazlara əlavə hissələrin quraşdırılması;

5.3.2. istilik sistemlərində istilik daşıyıcılarından təyinatından kənar istifadə (sistemdən və qızdırıcı cihazlardan suyun boşaldılması) edilməsi;

5.3.3. yaşayış binasının layihəsinə əsasən mənzildən keçən və binanın ümumi istifadəsində olan birdən artıq mənzilə xidmət edən istilik xətlərinin özbaşına olaraq yerinin dəyişdirilməsi, kəsilməsi və ya dövriyyənin pozulmasına səbəb olan digər hallara yol verilməsi.

**6. Fors-major**

Tərəflərin iradəsindən asılı olmayan hadisələr səbəbindən bu Müqavilə üzrə öhdəliklərin icra edilməməsinə görə tərəflər məsuliyyət daşımır.

**7. Müqavilənin ləğv edilməsi və mübahisələrin həlli**

7.1. Bu Müqavilə İstehlakçının yazılı müraciəti əsasında vaxtından əvvəl, habelə Qaydaların 8.5-ci bəndində nəzərdə tutulan hallarda Müəssisə tərəfindən birtərəfli qaydada ləğv edilə bilər. Yazılı müraciət daxil olduğu vaxtdan 1 (bir) ay müddətində İstehlakçı borcunu tam ödədikdə Müqavilə ləğv edilmiş hesab olunur.

7.2. Bu Müqavilənin icrası ilə əlaqədar yaranan mübahisələr tərəflərin qarşılıqlı razılığı ilə həll edilir, tərəflər arasında qarşılıqlı razılıq əldə edilmədiyi halda həmin mübahisələrə aidiyyəti üzrə müvafiq məhkəmədə baxılır.

**8. Müqavilənin müddəti**

8.1. Müqavilə: "_____"______________ 202___ il tarixindən qüvvəyə minir.

8.2. İstehlakçı Müqavilənin ləğv edilməsi barədə yazılı təşəbbüs göstərmədikdə, bu Müqavilənin qüvvədəolma müddəti hər növbəti il üçün uzadılmış hesab olunur.

8.3. Bu Müqavilə tərəflərin hər birində bir nüsxə olmaqla eyni hüquqi qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir.

8.4. İstilik və isti su təchizatı xidmətlərinin tarifləri dəyişdirildikdə, hesabat tariflərin dəyişdirilməsi haqqında qərarın qüvvəyə mindiyi tarixdən yeni tarifə (qiymətə) uyğun aparılır.

**9. Tərəflərin hüquqi ünvanları və rekvizitləri**

| İSTEHLAKÇI | MÜƏSSİSƏ |
|---|---|
| ____________ *(soyadı, adı, atasının adı)* | ____________ *(adı, bank rekvizitləri, VÖEN)* |
| ____________ Ünvanı | Hüquqi ünvanı ____________ |
| ____________ Telefon nömrəsi | ____________ Telefon nömrəsi |
| ____________ *(imza)* | ____________ *(səlahiyyətli şəxsin soyadı, adı, atasının adı və imza)* |
| | M.Y. |
| "_____" __________ 20 __ il | "_____" ________ 20 ___ il |

*"İstilik və isti su təchizatı xidmətlərinə dair müqavilə"yə (əhali qrupuna aid olan istehlakçılar) əlavə*

Azərbaycan Respublikasının 1 noyabr - 1 may tarixlərində istilik verilməsi nəzərdə tutulan dağ rayonlarının siyahısı

1. Daşkəsən rayonu
2. Gədəbəy rayonu
3. Xaçmaz rayonu
4. Kəlbəcər rayonu
5. Qəbələ rayonu
6. Quba rayonu
7. Qusar rayonu
8. Laçın rayonu
9. Lerik rayonu
10. Şamaxı rayonu
11. Siyəzən rayonu
12. Şabran rayonu
13. Şuşa rayonu
14. Yardımlı rayonu

*"İstilik enerjisindən istifadə qaydaları"na*
**2 nömrəli əlavə**

**İstilik və isti su təchizatı xidmətlərinə dair**
**M Ü Q AV İ L Ə**
**№ ____**
**(Qeyri-əhali qrupuna aid istehlakçılar)**

"____" _________ 202 _ il ___________ şəhəri (rayonu)

Bir tərəfdən enerji təchizatı müəssisəsinin (bundan sonra - Müəssisə) rəhbəri ______________________________________ şəxsində, digər tərəfdən ______________________________ şəxsində, (bundan sonra - İstehlakçı), "İstilik enerjisindən istifadə qaydaları"na (bundan sonra - Qaydalar) uyğun olaraq bu Müqaviləni bağlayırlar.

**1. Müqavilənin predmeti**

Bu Müqavilə Müəssisə tərəfindən İstehlakçının, ____________ şəhəri, _________________ küçəsi, ___________ ünvanında, tikinti həcmi ____m3, İstehlakçının tikinti obyektində isti su istifadə edilən nöqtələrin sayı___ olmaqla ________________________________ istilik və isti su təchizatı ilə əlaqədar tərəflərin hüquq və vəzifələrini müəyyən edir.

**2. İstilik mövsümünün müddəti**

2.1. İstilik mövsümünün başlanması və başa çatması ölkə ərazisində havanın temperaturundan asılı olaraq Müəssisə tərəfindən müəyyən edilir və bu Müqavilənin əlavəsində göstərilən Azərbaycan Respublikasının dağ rayonlarında 1 noyabr - 1 may, digər ərazilərdə 15 noyabr - 15 aprel tarixləri nəzərdə tutulur. İstilik mövsümünün başlanması və başa çatması tarixləri ölkə ərazisində havanın temperaturundan asılı olaraq "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində payız-qış mövsümünə hazırlıq işlərinin aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 24 fevral tarixli 65 nömrəli Qərarının tələbləri nəzərə alınmaqla müvafiq yerli icra hakimiyyəti orqanını məlumatlandırmaqla Müəssisə tərəfindən fərqli tarixlərdə müəyyən edilə bilər.

2.2. İstilik mövsümünün başlanmasından və ya başa çatmasından 10 (on) gün əvvəl bu barədə media və Müəssisənin rəsmi internet səhifəsi vasitəsilə məlumat verilir.

**3. İstilik və isti su təchizatı xidmətlərinə görə hesablaşmalar**

3.1. İstehlakçı tərəfindən istifadə edilən istilik və isti su təchizatı xidmətlərinə görə hesablaşmalar istilik və isti su sayğaclarının göstəricilərinə əsasən, sayğac yalnız binanın istilik şəbəkəsinə qoşulma nöqtəsində quraşdırıldığı halda isə Qaydaların 9.6-cı bəndinə uyğun olaraq:

3.1.1. istilik təchizatı xidmətləri ilə bağlı - İstehlakçının tikinti obyektinin tikinti həcminə görə Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən müəyyən edilmiş tariflərlə;

3.1.2. isti su təchizatı xidmətləri ilə bağlı - İstehlakçının tikinti obyektində isti su istifadə edilən nöqtələrin sayına görə bu Müqavilə ilə müəyyən edilmiş tariflərlə həyata keçirilir.

3.2. Müqavilə imzalandığı tarixə istilik təchizatı xidmətlərinin qiyməti 1 Qkal istilik enerjisi üçün ƏDV ilə ___ manat və ya İstehlakçının tikinti obyektinin 1m3 tikinti həcmi üçün ƏDV ilə ____ manat, isti su təchizatı xidmətlərinin qiyməti 1 Qkal istilik enerjisi üçün ƏDV ilə ___ manat və ya 1m3 isti su üçün ƏDV ilə ____ manat həcmində müəyyən edilir.

3.3. Müəssisə İstehlakçı tərəfindən istifadə edilən istilik və isti su təchizatı xidmətlərinin uçotunu aparır və göstərilən istilik və isti su təchizatı xidmətlərinin dəyərini sayğacın göstəricilərinə (sayğac yalnız binanın istilik şəbəkəsinə qoşulma nöqtəsində quraşdırıldığı halda isə bu Müqavilənin 3.1-ci bəndinə) əsasən hər ay İstehlakçıya məlumat (hesab) təqdim edir (göndərir).

3.4. İstilik və isti su təchizatı xidmətlərinin hesabı İstehlakçıya təqdim edildikdən sonra müvafiq vəsait 1 (bir) ay müddətində tam məbləğdə ödənilməlidir.

3.5. Tariflər dəyişdikdə Müəssisə bu barədə rəsmi internet səhifəsi və media vasitəsilə İstehlakçıya məlumat verir.

**4. Müəssisənin vəzifə və hüquqları**

4.1. Müəssisənin vəzifələri aşağıdakılardır:

4.1.1. istilik mövsümünün müəyyən edilmiş müddətlərdə başlanılması və başa çatdırılması, bu Müqavilənin şərtlərinə uyğun olaraq İstehlakçının etibarlı və fasiləsiz olaraq istilik və isti su təchizatı xidmətləri ilə təmin edilməsi;

4.1.2. istilik və isti suyun temperatur və təzyiq göstəricilərinin texniki şərtlə müəyyən edilmiş parametrlərinin saxlanılması;

4.1.3. istilik və isti su təchizatı xidmətləri ilə bağlı İstehlakçıların müraciətlərinə "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun baxılması;

4.1.4. İstehlakçıya göstərilən istilik və isti su təchizatı xidmətlərinin dəyərinin Qaydalara və bu Müqaviləyə uyğun olaraq tam hesablanması və hər ay İstehlakçıya məlumatın (hesab) təqdim edilməsi (göndərilməsi);

4.1.5. Müəssisə tərəfindən əvvəlcədən müəyyən edilmiş qrafikə uyğun olaraq təmir-profilaktika işləri görüldükdə və Qaydaların 8.2-ci bəndində nəzərdə tutulan hallarda istilik və isti su təchizatı xidmətlərinin dayandırılacağı barədə İstehlakçıya ən azı 5 (beş) gün əvvəl sifarişli poçt göndərişi və ya İstehlakçının əvvəlcədən razılığı ilə elektron poçt vasitəsilə yazılı bildiriş göndərilməsi;

4.1.6. Müəssisənin təqsiri nəticəsində İstehlakçıya ziyan vurulduqda, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq İstehlakçı qarşısında maddi məsuliyyət daşımaq.

4.2. Müəssisənin aşağıdakı hüquqları vardır:

4.2.1. istilik və isti su təchizatı xidmətlərinin hesabı İstehlakçıya təqdim edildikdən (göndərildikdən) sonra müvafiq vəsaitin tam məbləğdə ödənilməsini İstehlakçıdan tələb etmək;

4.2.2. İstehlakçının təqsiri nəticəsində Müəssisəyə ziyan vurulduqda, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq maddi ziyanın ödənilməsini tələb etmək.

**5. İstehlakçının vəzifə və hüquqları**

5.1. İstehlakçının vəzifələri aşağıdakılardır:

5.1.1. istilik və isti su təchizatı xidmətlərindən istifadə etmək üçün bu Müqavilənin şərtlərinin yerinə yetirilməsi;

5.1.2. istilik və isti su təchizatı xidmətlərinin hesabı Müəssisə tərəfindən təqdim edildikdən (göndərildikdən) sonra müvafiq vəsaitin 1 (bir) ay müddətində tam məbləğdə ödənilməsinin təmin edilməsi;

5.1.3. balans mənsubiyyəti sərhədində quraşdırılmış istilik və isti su sayğaclarının onların texniki pasportlarında göstərilmiş tələblərə uyğun istismar edilməsi, işlək vəziyyətdə saxlanılması və üzərindəki plombların toxunulmazlığının təmin edilməsi;

5.1.4. sayğaclar və onlara vurulmuş plomblar hər hansı səbəbdən zədələndikdə (xarab olduqda), həmin zədələr aşkar olunduğu vaxtdan 1 (bir) iş günündən gec olmayaraq, bu barədə Müəssisəyə məlumat verilməsi;

5.1.5. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda və qaydada Müəssisənin səlahiyyətli nümayəndələrinin vəzifə borclarını yerinə yetirmək məqsədilə maneəsiz olaraq sahibkarlıq subyekti olan İstehlakçıya məxsus əraziyə buraxılması və müqavilə şərtlərinin yerinə yetirilməsi ilə bağlı araşdırmanın aparılması üçün şərait yaradılması;

5.1.6. balansında olan istilik avadanlıqlarının, o cümlədən istilik xətləri, siyirtmələr, istilik mübadilə aparatlarının texniki cəhətdən saz vəziyyətdə saxlanılması, vaxtlı-vaxtında təmir, sınaq və sazlama işlərinin aparılması;

5.1.7. istilik və isti su təchizatı xidmətlərindən istifadənin müvəqqəti dayandırılması tələb olunan təmir işlərinin yerinə yetirilməsi müddətlərinin Müəssisə ilə razılaşdırılması;

5.1.8. hər il istilik mövsümü başlanmazdan əvvəl obyektin mövsümə hazırlığı, istilik istehlakı sistemlərinin sınaqdan keçirilməsinə və sazlanmasına dair məlumatların (arayışın) Müəssisəyə təqdim edilməsi (göndərilməsi);

5.1.9. Qaydaların tələblərinə, həmçinin Qaydaların 1.10-cu bəndində göstərilən dövlət nəzarətini həyata keçirən orqanların qanuni göstərişlərinə əməl edilməsi;

5.1.10. adında, hüquqi ünvanında, bank rekvizitlərində dəyişiklik olduqda, ləğv olunması barədə qərar verildikdə bu barədə Müəssisəyə məlumat verilməsi.

5.2. İstehlakçının aşağıdakı hüquqları vardır:

5.2.1. istilik və isti su təchizatı xidmətlərindən istifadə etmək üçün Müəssisə ilə Müqavilə bağlanılmasını və bağlanılmış Müqavilənin şərtlərinin yerinə yetirilməsini tələb etmək;

5.2.2. Müəssisənin təqsiri nəticəsində İstehlakçıya ziyan vurulduqda, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq maddi ziyanın ödənilməsini tələb etmək;

5.2.3. istifadə edilmiş istilik və isti su təchizatı xidmətlərinin hesabını müəyyən edilmiş qaydada və müddətdə təqdim edilməsini, dəqiqləşdirilməsini, yol verilmiş qeyri-dəqiqliyin aradan qaldırılmasını və ya yenidən hesablanmasını tələb etmək;

5.2.4. Müəssisənin balansında olan istilik sistemlərində baş vermiş qəzaların və nasazlıqların aradan qaldırılmasını tələb etmək və Müqavilənin vaxtından əvvəl ləğv olunması barədə Müəssisəyə yazılı müraciət etmək;

5.2.5. bu Müqavilə ilə müəyyən edilmiş müddət ərzində fasiləsiz olaraq istilik və isti su xidmətləri ilə təchiz edilmək.

**6. İstilik və isti su təchizatı xidmətlərinin dayandırılması halları**

6.1. Müəssisə istilik və isti su təchizatı xidmətlərini aşağıdakı hallarda dayandırır:

6.1.1. İstehlakçının müvafiq yazılı müraciəti (istilik və isti su təchizatı xidmətlərinin dayandırılmasının səbəbi və müddəti göstərilməklə) olduqda;

6.1.2. Müəssisənin İstehlakçıya göndərdiyi istilik və isti su təchizatı xidmətlərinin hesabı İstehlakçıya təqdim edildikdən (göndərildikdən) sonra müvafiq vəsait 1 (bir) ay müddətində tam məbləğdə ödənilmədikdə;

6.1.3. İstehlakçıya məxsus olan və ölçüləri istilik təchizatı sisteminin layihəsi ilə müəyyən edilmiş qızdırıcı cihazlara əlavə hissələrin quraşdırılması, istilik sistemlərində istilik daşıyıcılarından təyinatından kənar istifadə (sistemdən və qızdırıcı cihazlardan suyun boşaldılması) halları aşkar edildikdə;

6.1.4. təmir-profilaktika və qəza işləri görüldükdə, o cümlədən baş verən yanğının və ya qaz sızmasının qarşısı alındıqda;

6.1.5. məhkəmənin qərarı ilə;

6.1.6. dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparıldıqda, həmin əməliyyatın aparılma zonasında, dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparan orqanların göstərişi əsasında.

6.2. Bu Müqavilənin 6.1-ci bəndində (təmir-profilaktika və qəza işlərinin görüldüyü, o cümlədən baş verən yanğının və ya qaz sızmasının qarşısı alındığı, habelə dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparıldığı hallar istisna olmaqla) nəzərdə tutulan hallarda istilik və isti su təchizatı xidmətlərinin dayandırılması Müəssisə tərəfindən İstehlakçının iştirakı ilə aktla rəsmiləşdirilməli və aktın bir nüsxəsi İstehlakçıya təqdim edilməlidir.

6.3. İstilik və isti su təchizatı xidmətlərinin dayandırılmasına səbəb olmuş hallar aradan qaldırıldıqdan və Müəssisə tərəfindən İstehlakçının iştirakı ilə aktla rəsmiləşdirildikdən sonra 1 (bir) gün müddətində istiliyin və isti suyun verilməsi bərpa edilməli və aktın bir nüsxəsi İstehlakçıya təqdim edilməlidir.

6.4. Aşağıdakı hallara yol verilməsi qadağan edilir:

6.4.1. İstehlakçıya məxsus olan və ölçüləri istilik təchizatı sisteminin layihəsi ilə müəyyən edilmiş qızdırıcı cihazlara əlavə hissələrin quraşdırılması;

6.4.2. istilik sistemlərində istilik daşıyıcılarından təyinatından kənar istifadə (sistemdən və qızdırıcı cihazlardan suyun boşaldılması) edilməsi.

**7. Fors-major**

Tərəflərin iradəsindən asılı olmayan hadisələr nəticəsində bu Müqavilə üzrə öhdəliklərin icra edilməməsinə görə tərəflər məsuliyyət daşımır.

**8. Müqavilənin ləğv edilməsi və mübahisələrin həlli**

8.1. Bu Müqavilə İstehlakçının yazılı müraciəti əsasında vaxtından əvvəl, habelə Qaydaların 8.5-ci bəndində nəzərdə tutulan hallarda Müəssisə tərəfindən birtərəfli qaydada ləğv edilə bilər. Yazılı müraciət daxil olduğu vaxtdan 1 (bir) ay müddətində İstehlakçı borcunu tam ödədikdə Müqavilə ləğv edilmiş hesab olunur.

8.2. Bu Müqavilənin icrası ilə əlaqədar yaranan mübahisələr tərəflərin qarşılıqlı razılığı ilə həll edilir, tərəflər arasında qarşılıqlı razılıq əldə edilmədiyi halda həmin mübahisələrə aidiyyəti üzrə müvafiq məhkəmədə baxılır.

**9. Müqavilənin müddəti**

9.1. Müqavilə "___"________________ 202__il tarixindən qüvvəyə minir.

9.2. İstehlakçı Müqavilənin ləğv edilməsi barədə yazılı təşəbbüs göstərmədikdə, bu Müqavilənin qüvvədəolma müddəti hər növbəti il üçün uzadılmış hesab olunur.

9.3. Bu Müqavilə tərəflərin hər birində bir nüsxə olmaqla eyni hüquqi qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir.

9.4. İstilik və isti su təchizatı xidmətlərinin tarifləri dəyişdirildikdə, hesabat tariflərin dəyişdirilməsi haqqında qərarın qüvvəyə mindiyi tarixdən yeni tarifə (qiymətə) uyğun aparılır.

**10. Tərəflərin hüquqi ünvanları və rekvizitləri**

| İSTEHLAKÇI | MÜƏSSİSƏ |
|---|---|
| ____________ *(soyadı, adı, atasının adı/ hüquqi şəxsin adı, bank rekvizitləri, VÖEN)* | ____________ *(adı, bank rekvizitləri, VÖEN)* |
| Fəaliyyət ünvanı/hüquqi ünvanı ____________ | Hüquqi ünvanı ____________ |
| ____________ Telefon nömrəsi | ____________ Telefon nömrəsi |
| ____________ *(imza)* | ____________ *(səlahiyyətli şəxsin soyadı, adı, atasının adı və imza)* |
| M.Y. "_____"________ 20___il | M.Y. "_____"________ 20___il |

*"İstilik və isti su təchizatı xidmətlərinə dair müqavilə"yə (qeyri-əhali qrupuna aid olan istehlakçılar) əlavə*

Azərbaycan Respublikasının 1 noyabr - 1 may tarixlərində istilik verilməsi nəzərdə tutulan dağ rayonlarının siyahısı

1. Daşkəsən rayonu
2. Gədəbəy rayonu
3. Xaçmaz rayonu
4. Kəlbəcər rayonu
5. Qəbələ rayonu
6. Quba rayonu
7. Qusar rayonu
8. Laçın rayonu
9. Lerik rayonu
10. Şamaxı rayonu
11. Siyəzən rayonu
12. Şabran rayonu
13. Şuşa rayonu
14. Yardımlı rayonu

*"İstilik enerjisindən istifadə qaydaları"na*
**3 nömrəli əlavə**

**İstilik təchizatı sisteminə qoşulma**
**AKTI**

"____" ________ 202 _____ il ___________ şəhəri (rayonu)

Biz, aşağıda imza edənlər:

1. İstilik təchizatı müəssisəsinin nümayəndəsi ______________
______________________________
*(soyadı, adı, atasının adı və vəzifəsi)*

2. Sifarişçi (və ya nümayəndəsi) ______________________
______________________________
*(soyadı, adı, atasının adı və vəzifəsi)*

3. Podratçının nümayəndəsi ______________________
*(soyadı, adı, atasının adı və vəzifəsi)*
______________________________
*(tikinti obyektinin yerləşdiyi ünvan)*

ünvanında yerləşən tikinti obyektində istilik istehlakı sisteminə texniki baxış keçirdik. İstilik istehlakı sisteminin tikintisi zamanı texniki şərtlərin, istilik təchizatı sisteminin layihəsinin tam yerinə yetirilməsi və istilik şəbəkəsinə qoşulmaq üçün hazır olduğu müəyyən edildi.

Layihə sənədi № ____________ ____________ tarixində verilmişdir.

Bunları nəzərə alaraq tikinti obyektinin istilik şəbəkəsinə qoşulmasına qərar verildi.

Qoşulma başa çatdırıldı ___________ (tarix) ___________ (saat)

Tikinti obyektinin istilik və isti su təchizatı sisteminin balans mənsubiyyəti sərhədini aşağıdakı kimi müəyyən etdik

______________________________
______________________________
*(istilik və isti su təchizatı sisteminin balans mənsubiyyəti sərhədi müəyyən olunmuş yer)*

İstehlakçının istilik təchizatı sisteminə birləşdirilməsi sxemi

İmzalar

____________ ____________________
(soyadı, adı və atasının adı)

____________ ____________________
(soyadı, adı və atasının adı)

____________ ____________________
(soyadı, adı və atasının adı)

M.Y.

*"İstilik enerjisindən istifadə qaydaları"na*
**4 nömrəli əlavə**

**Mövcud və ya inşa ediləcək tikinti obyektlərinin**
**istilik şəbəkəsinə qoşulması müqaviləsi**

__________ "___" _________ 20 ___il

Biz, aşağıda imza edənlər: __________________________

Sifarişçi ______________________________________

_________________________________________ şəxsində və
*(soyadı, adı, atasının adı)*

Texniki şərti verən müəssisə (bundan sonra - Müəssisə) adından
_________________________________________ şəxsində
*(vəzifəsi)*
_________________________________________
*(soyadı, adı, atasının adı)*

tərəflər arasında istilik şəbəkəsinə qoşulma müqaviləsi (bundan sonra - Müqavilə) bağlanılır.

**1. Müqavilənin şərtləri**

1.1. Bu Müqavilə ilə Müəssisə istilik şəbəkəsinin qoşulma üçün hazırlığının təmin edilməsi (layihələndirmə, tikinti, yenidənqurma) daxil olmaqla sifarişçinin ____________________ ünvanında inşa edilmiş (inşa ediləcək) _______________ tikinti obyektinin istilik şəbəkəsinə qoşulması öhdəliyini öz üzərinə götürür.

1.2. Qoşulma nöqtəsi texniki şərtlərdə qeyd olunmuşdur və sifarişçinin istilik şəbəkəsinə qoşulması nəzərdə tutulan tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) ərazinin sərhədindən __________ metr məsafədə yerləşir.

1.3. Texniki şərtlər bu Müqavilənin ayrılmaz tərkib hissəsidir.

1.4. Texniki şərtlərin qüvvədəolma müddəti bu Müqavilənin bağlanıldığı tarixdən etibarən ___ ildir.

**2. Tərəflərin öhdəlikləri**

2.1. Müəssisənin öhdəlikləri:

- "İstilik enerjisindən istifadə qaydaları"nın (bundan sonra - Qaydalar) 2.17-ci və 2.20-ci bəndlərində nəzərdə tutulmuş hallarda bu Müqavilənin 2.2-ci bəndinin üçüncü abzasında qeyd olunan vəsait Müəssisənin bank hesabına köçürüldükdən sonra 20 (iyirmi) gün müddətində istilik təchizatı layihəsini hazırlamaq, ____ gün müddətində tikinti obyektindən və ya tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsindən istilik şəbəkəsinə qoşulma nöqtəsinədək istilik xətlərini çəkmək və tikinti-quraşdırma işlərini yerinə yetirmək;
- istilik xətlərinin çəkilməsi və tikinti-quraşdırma işləri yerinə yetirildikdən sonra görülən işlərə baxış keçirilməsində iştirak etmək, qoşulma aktını, sifarişçi ilə istilik və isti su təchizatı xidmətlərinə dair müqaviləni imzalamaq, həmin sənədləri Kommunal Xidmətlərin Vahid İnformasiya Sisteminə (Sistemə) yerləşdirmək və kağız daşıyıcıda sifarişçiyə təqdim etmək və istiliyin və (və ya) isti suyun verilməsini təmin etmək.

2.2. Sifarişçinin öhdəlikləri:

- bu Müqavilədə nəzərdə tutulmuş öhdəlikləri yerinə yetirmək;
- Qaydaların 2.17-ci və 2.20-ci bəndlərində nəzərdə tutulmuş hallarda istilik təchizatı sisteminin layihəsinin hazırlanması üçün Müəssisə tərəfindən hazırlanmış smeta sənədlərinə əsasən müəyyən edilmiş vəsaiti Müəssisənin bank hesabına köçürmək;
- Qaydaların 2.21-ci bəndində nəzərdə tutulmuş işləri yerinə yetirdikdən sonra Müəssisəyə bu barədə kağız daşıyıcıda məlumat vermək və ya həmin məlumatı Sistemdə qeyd etmək;
- görülən işlərə Müəssisə tərəfindən baxış keçirilməsində iştirak etmək;
- Müəssisə sifarişçinin tikinti obyektinin istilik şəbəkəsinə fiziki qoşulmasını həyata keçirdikdən sonra qoşulma aktını imzalamaq.

*Ardı 9-cu səh.*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 sentyabr tarixli 303 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

# İstilik enerjisindən istifadə qaydaları

*Əvvəli 8-ci səh.*

**3. Müqavilədə dəyişiklik edilməsi və Müqavilənin ləğv edilməsi şərtləri**

3.1. Bu Müqavilədə tərəflərin yazılı razılığı ilə dəyişiklik edilə bilər.

3.2. Bu Müqavilə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş əsaslarla tərəflərdən birinin tələbi ilə və ya tərəflərin qarşılıqlı razılığı ilə ləğv edilə bilər.

İmzalar:

Müəssisə adından ________________________________

Sifarişçi ________________________________

*"Mövcud və ya inşa ediləcək tikinti obyektlərinin istilik şəbəkəsinə qoşulması müqaviləsi"nə əlavə*

**İstilik mənbələrinə qoşulma və ya əlavə enerji (güc) alınması üçün TEXNİKİ ŞƏRTLƏR**

№ ______

"_____" ___________ 202 __ il

________________________________________

*(texniki şərtləri alan fiziki şəxsin soyadı, adı, atasının adı, ünvanı, hüquqi şəxsin və ya təşkilatın adı, ünvanı)*

Texniki şərt alınması üçün müraciətin daxilolma nömrəsi və tarixi ____

Tikinti obyektinin ünvanı ______________________________
________________________________________

Texniki şərtin qüvvədəolma müddəti______________________

"Təsdiq edirəm"

________________________________________

*(texniki şərtləri verən enerji təchizatı müəssisəsi)*

1. Tikinti obyektinin təyinatı ______________________
2. Tələb olunan maksimal saatlıq güc:
2.1. isitmə məqsədlərinə ________________________
2.2. isti su məqsədlərinə ________________________
________________________________________
3. İstilik mənbəyi ______________________________
________________________________________
4. İstilik şəbəkəsinə qoşulma nöqtəsi və qoşulma ilə bağlı tələblər
________________________________________
5. İstilik daşıyıcısının parametrləri __________________

6. Şəbəkə suyunun geri qaytarılması ilə bağlı şərtlər və parametrlər ______________________________

7. İstilik və isti su sayğaclarının quraşdırılmasına aid tələblər
________________________________________

8. İstilik təchizatı şəbəkəsinin (yerüstü və ya yeraltı) çəkilməsi, kanal və kamera, bağlayıcı və tənzimləyici armatur qurğuların quraşdırılması, istilik izolyasiya tədbirlərinə görə tələblər
________________________________________

9. İstehlakçıya məxsus şəbəkəyə digər istehlakçıların (subabonent) qoşulmasına aid tələblər______________________

İmza______ ________________________________

*(texniki şərtləri verən enerji təchizatı müəssisəsinin nümayəndəsi, soyadı, adı, atasının adı və vəzifəsi)*

*"İstilik enerjisindən istifadə qaydaları"na*
**5 nömrəli əlavə**

**Trassanın (yolun) razılaşdırılması ilə bağlı rəyinin alınması tələb olunan orqanların (qurumların) SİYAHISI**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi (bu Siyahının 4-cü, 13-cü və 14-cü hissələrində nəzərdə tutulanlar istisna olmaqla, qoruqların və abidələrin mühafizə zonalarının ərazisinə münasibətdə).
2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi.
3. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi.
4. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi (tabeliyindəki qoruqların və abidələrin mühafizə zonalarının ərazisinə münasibətdə).
5. Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti.
6. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti.
7. Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi.
8. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi.
9. Müvafiq inzibati ərazi vahidi üzrə yerli icra hakimiyyəti orqanı.
10. Müvafiq inzibati ərazi vahidi üzrə yerli özünüidarəetmə orqanı.
11. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi.
12. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti.
13. Şuşa şəhərinin ərazisində Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi.
14. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi (tabeliyindəki qoruqların və abidələrin mühafizə zonalarının ərazisinə münasibətdə).
15. "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti.
16. "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti.
17. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti.

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 313** QƏRAR **Bakı şəhəri, 7 sentyabr 2023-cü il**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 31 oktyabr tarixli 178 nömrəli Qərarı ilə təsdiq edilmiş "Peşə təhsili üzrə ixtisasların Təsnifatı"nda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 31 oktyabr tarixli 178 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 10, maddə 977; 2018, № 12 (II kitab), maddə 2740; 2021, № 10, maddə 1179; 2022, № 12, maddə 1552) ilə təsdiq edilmiş "Peşə təhsili üzrə ixtisasların Təsnifatı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. "I. "Sənətşünaslıq, mədəniyyət və incəsənət" peşə istiqaməti üzrə" hissəsində:

1.1. "030103 Reklam işi" ixtisas qrupuna "Reklam işçisi" ixtisasından sonra "Reklam dizayneri" ixtisası əlavə edilsin;

1.2. "030110 İnteryer və eksteryerin bədii tərtibatı" ixtisas qrupuna "Bədii tərtibat işlərinin icraçısı" ixtisasından sonra "Florist" ixtisası əlavə edilsin;

1.3. "030112 Ağacdan, keramikadan, metaldan hazırlanan bədii məmulatlar" ixtisas qrupuna "Metaldan döymə üsulu ilə bədii məmulatlar hazırlayan usta" ixtisasından sonra "Ağac nəqqaşı" ixtisası əlavə edilsin.

2. "II. "İqtisadiyyat, xidmət, avtomatika və idarəetmə" peşə istiqaməti üzrə" hissəsində:

2.1. "030202 Mühasibat işi" ixtisas qrupuna "Əməliyyatçı-mühasib" ixtisasından sonra "Mühasibat uçotu" ixtisası əlavə edilsin;

2.2. "030203 Sığorta işi" ixtisas qrupuna "Sığorta agenti" ixtisasından sonra "Sığorta işçisi" ixtisası əlavə edilsin;

2.3. "030204 Kommersiya" ixtisas qrupuna "Təchizat üzrə agent" ixtisasından sonra "Dayə", "Logistika operatoru", "Merçandayzer", "Kənd təsərrüfatı məhsullarının saxlanılması və anbarlanması üzrə logistika mütəxəssisi" və "Tədbirlərin təşkilatçısı" ixtisasları əlavə edilsin;

2.4. "030207 Kino-video nümayişi" ixtisas qrupuna "Video çəkilişi üzrə operator" ixtisasından sonra "İşıq operatoru", "Media və audiovizual texnologiyaların istismarı", "Kinomontajçı" və "Səs operatoru" ixtisasları əlavə edilsin;

2.5. "030208 İaşə xidməti" ixtisas qrupuna "Barmen-ofisiant" ixtisasından sonra "Turizm sahəsində iaşə üzrə mütəxəssis", "Somelye" və "Barista" ixtisasları əlavə edilsin;

2.6. "030209 Kimyəvi təmizləmə aparatçısı" ixtisas qrupuna "Ləkəçıxaran" ixtisasından sonra "Kimyəvi və quru təmizləmə işləri üzrə operator" ixtisası əlavə edilsin;

2.7. "030210 Bərbərlik" ixtisas qrupuna "Bərbər-vizajist" ixtisasından sonra "Qrimçi-pastijor", "Lazer epilyasiyası və depilyasiya texniki", "Makiyaj ustası" və "Saç kəsimi və gözəllik xidmətlərinin təşkili" ixtisasları əlavə edilsin;

2.8. "030213 Bələdçilik" ixtisas qrupuna "Yerli bələdçi" ixtisasından sonra "Turizm təşkilatçısı" ixtisası əlavə edilsin;

2.9. "030214 Avtomatlaşdırılmış texnologiyalar və istehsal" ixtisas qrupuna "Avtomatlaşdırılmış texnologiyalar və istehsal üzrə operator" ixtisasından sonra "Avtomatika sistemlərinin istismarı" və "Avtomatika üzrə usta" ixtisasları əlavə edilsin;

2.10. "030217 Gəmiçilik xidməti" ixtisas qrupunda "Növbətçi köməkçisi" ixtisası "Növbətçi" ixtisası ilə əvəz edilsin;

2.11. "030219 İnformasiya-kommunikasiya texnologiyası və hesablama texnikasının təmiri və servis xidməti" ixtisas qrupu üzrə:

2.11.1. "Kompyuterlərin təmiri və xidməti üzrə texnik" ixtisasında "Kompyuterlərin" sözü "Kompüterlərin" sözü ilə, "Telekommuni-kasiyada kompyuter texnikasının istismarı üzrə operator" ixtisasında "kompyuter" sözü "kompüter" sözü ilə və "Kompyuter operatoru" ixtisasında "Kompyuter" sözü "Kompüter" sözü ilə əvəz edilsin;

2.11.2. "İnformasiya texnologiyaları üzrə texniki dəstək mütəxəssisi" ixtisasından sonra "Sistem və şəbəkə xidməti üzrə texnik", "Veb-dizayner və proqram təminatçısı", "Kompüter sistem inzibatçısı", "Kibertəhlükəsizlik", "Kompüter sistemlərində proqramlaş-dırma", "Veb-dizayn və proqram təminatı", "İnformasiya-kommunikasiya texnologiyaları üzrə texnik", "Kompüter sistemlərində proqram təminatı", "Kompüter şəbəkələri və şəbəkə inzibatçılığı" və "Kompüter ustası" ixtisasları əlavə edilsin;

2.12. aşağıdakı məzmunda "030221 Mühafizə işi", "030222 Mehmanxana işi" və "030223 Kinoloji xidmət" ixtisas qrupları əlavə edilsin:

| | | |
|---|---|---|
| 030221 | Mühafizə işi | Mühafizəçi |
| | | Mehmanxanada təsərrüfat işləri üzrə nəzarətçi |
| 030222 | Mehmanxana işi | Oteldə konsiyerj |
| | | Mehmanxana inzibatçısı |
| | | Mehmanxana qeydiyyatçısı |
| 030223 | Kinoloji xidmət | Mehmanxana və restoran işinin təşkili və idarə edilməsi |
| | | Turanimator |
| | | Kinoloq |

3. "III. "Kənd təsərrüfatı, balıq və meşə təsərrüfatı" peşə istiqaməti üzrə" hissəsində:

3.1. "030301 Bitkiçilik" ixtisas qrupuna "Baramaçı" ixtisasından sonra "Bitkiçilik mütəxəssisi", "İntensiv bağçılıq üzrə işçi", "İstixana operatoru" və "Meyvə ustası" ixtisasları əlavə edilsin;

3.2. "030302 Kənd təsərrüfatı nəqliyyatı və elektrik avadanlığına xidmət" ixtisas qrupu üzrə:

3.2.1. "Dizel mühərrikinin motorçusu" ixtisası ləğv edilsin;

3.2.2. "Kəndin elektrikləşdirilməsi və rabitəsi üzrə elektrik montyoru, avtomobil sürücüsü" ixtisasından sonra "Kənd təsərrüfatı məhsullarının istehsalı üzrə fermer" və "Kənd təsərrüfatı və inşaat texnikasının (maşınlarının) istismarı" ixtisasları əlavə edilsin;

3.3. "030303 Maşın-traktor parkına texniki xidmət" ixtisas qrupuna "Kənd təsərrüfatı maşın və avadanlıqlarının təmiri üzrə çilingər" ixtisasından sonra "Avtomobil və traktorların elektrik avadanlıqlarının təmiri üzrə çilingər-elektrik" və "Aqroservis mütəxəssisi" ixtisasları əlavə edilsin;

3.4. "030304 Heyvandarlıq üzrə mütəxəssis" ixtisas qrupuna "Quşçuluq fabriklərinin və mexanikləşdirilmiş fermaların operatoru" ixtisasından sonra "Baytar texniki", "Baytarlıq və heyvandarlıq işi" və "Heyvandarlıq mütəxəssisi" ixtisasları əlavə edilsin;

3.5. "030307 Meliorasiya və çilingər işləri" ixtisas qrupuna "Suvarma maşınları və nasos qurğuları maşinisti" ixtisasından sonra "Suvarma sistemlərinin operatoru" ixtisası əlavə edilsin;

3.6. "030309 Yeraltı mədən işləri" ixtisas qrupuna "Qatılaşdırıcıların aparatçısı" ixtisasından sonra "Dağ-mədən işləri üzrə mütəxəssis" ixtisası əlavə edilsin;

3.7. "030312 Quyuların təmiri" ixtisas qrupunda "Quyuların əsaslı təmiri üzrə qazmaçının köməkçisi" ixtisası "Quyuların əsaslı təmiri üzrə qazmaçı" ixtisası ilə əvəz edilsin;

3.8. "030313 İstismar və kəşfiyyat quyularının qazılması" ixtisas qrupunda "İstismar və kəşfiyyat quyularının qazılmasında qazmaçı köməkçisi" ixtisası "İstismar və kəşfiyyat quyularının qazılmasında qazmaçı" ixtisası ilə və "İstismar və kəşfiyyat quyularının elektrik üsulu ilə qazmaçı köməkçisi" ixtisası "İstismar və kəşfiyyat quyularının elektrik üsulu ilə qazmaçısı" ixtisası ilə əvəz edilsin;

3.9. "030317 Quyuların dəniz qazması" ixtisas qrupunda "Dənizdə üzən qazma aqreqatının qazmaçı köməkçisi" ixtisası "Dənizdə üzən qazma aqreqatının qazmaçısı" ixtisası ilə əvəz edilsin;

3.10. "030319 Bağ-park və landşaft sahələrinə nəzarət" ixtisas qrupuna "Yaşıl təsərrüfat fəhləsi" ixtisasından sonra "Bağban-dekorator" ixtisası əlavə edilsin;

3.11. "030320 Kibrit hazırlanmasında avtomat və yarımavtomat xətlər, kibrit istehsalı avadanlıqlarının işlədilməsi" ixtisas qrupunda "Qutudoldurma dəzgahının operatoru" ixtisası ləğv edilsin;

3.12. "030321 Ağac emalı qurğuları, mebel sənayesi, ağac məmulatları və yarımfabrikatların hazırlanması" ixtisas qrupuna "Mebel ustası" ixtisasından sonra "Üzlükçü dizayner" ixtisası əlavə edilsin;

3.13. aşağıdakı məzmunda "030322 Balıqçılıq" ixtisas qrupu əlavə edilsin:

| | | |
|---|---|---|
| 030322 | Balıqçılıq | Balıq yetişdirilməsi üzrə mütəxəssis |

4. "IV. "Energetika, elektrotexnika, cihazqayırma və optik texnika, radiotexnika, rabitə və informasiya texnologiyaları" peşə istiqaməti üzrə" hissəsində:

4.1. "030403 Elektrik stansiyalarının və şəbəkələrinin avadanlıqlarına xidmət və təmiri" ixtisas qrupuna "Kabel xətlərinin quraşdırılması və təmiri üzrə elektrik montyoru" ixtisasından sonra "Elektrik xətlərinin quraşdırılması və təmiri üzrə mütəxəssis" ixtisası əlavə edilsin;

4.2. "030409 Elektrik avadanlıqlarına xidmət və təmiri (sahələr üzrə)" ixtisas qrupuna "Elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru" ixtisasından sonra "Sənaye və mülki binalarda elektrik avadanlıqlarının quraşdırılması və istismarı" ixtisası əlavə edilsin;

4.3. "030420 Elektron avadanlıqlarına xidmət" ixtisas qrupuna "Yarımkeçirici cihazların yığıcısı" ixtisasından sonra "Elektronika və kommunikasiya sistemlərinin istismarı" və "Elektronika ustası" ixtisasları əlavə edilsin;

4.4. "030431 Rabitə" ixtisas qrupuna "Telefonçu" ixtisasından sonra "Çağrı mərkəzi operatoru" ixtisası əlavə edilsin;

4.5. aşağıdakı məzmunda "030432 Alternativ və bərpaolunan enerji mənbələri sistemlərinə xidmət" ixtisas qrupu əlavə edilsin:

| | | |
|---|---|---|
| 030432 | Alternativ və bərpaolunan enerji mənbələri sistemlərinə xidmət | Külək turbinləri quraşdırıcısı və təmirçisi |
| | | Günəş panelləri quraşdırıcısı və təmirçisi |
| | | Bərpaolunan enerji avadanlıqlarının quraşdırıcısı |
| | | Alternativ enerji qurğu və avadanlıqlarının istismarı |

5. "V. "Metallurgiya, maşınqayırma və metal emalı" peşə istiqaməti üzrə" hissəsində:

5.1. "030503 Poladəritmə (istehsalın növlərinə görə)" ixtisas qrupunda "Marten sobası poladəridicisinin köməkçisi" ixtisası "Marten sobası poladəridicisi", "Elektrik sobası poladəridicisinin köməkçisi" ixtisası "Elektrik sobası poladəridicisi", "Elektroşlak yenidənəritmə qurğusunun poladəridicisinin köməkçisi" ixtisası "Elektroşlak yenidənəritmə qurğusunun poladəridicisi" ixtisası ilə əvəz edilsin;

5.2. "030514 Qaynaq (elektrik qaynağı və qaz qaynağı işləri)" ixtisas qrupuna "Əl elektrik qaynaqçısı" ixtisasından sonra "Sənayedə avadanlıqların quraşdırılması və texniki istismarı" və "Sənayedə quraşdırma işləri üzrə usta" ixtisasları əlavə edilsin;

5.3. "030518 Ağac tədarükü və daşıma" ixtisas qrupunda "Qırılacaq meşə sahəsinin hazırlanmasında, ağacın daşınmasında və çıxarılmasında traktorçu" ixtisası ləğv edilsin;

5.4. "030524 Soyuducu qurğulara xidmət" ixtisas qrupuna "Soyuducu qurğuların maşinisti" ixtisasından sonra "Soyuducu qurğularda məhsulların saxlanması və anbarlanması üzrə operator" ixtisası əlavə edilsin;

5.5. "030526 Mexaniki emalda dəzgah və avadanlıqların sazlanması" ixtisas qrupuna "Genişprofilli dəzgahçı" ixtisasından sonra "Proqramla idarə edilən sənaye avadanlıqlarının texniki istismarı" ixtisası əlavə edilsin;

5.6. "030527 Torna və frezer dəzgahı" ixtisas qrupunda "Rəqəmli idarə olunan dəzgahların kompyuter operatoru (CAD/CAM/ CAE)" ixtisasında "kompyuter" sözü "kompüter" sözü ilə əvəz edilsin və həmin ixtisasdan sonra "Torna və frezer dəzgahlarının operatoru" ixtisası əlavə edilsin.

6. "VI. "Aviasiya, kosmik raket, dəniz texnikası və nəqliyyat vasitələri" peşə istiqaməti üzrə" hissəsində:

6.1. "030601 Uçan aparatların planer və sistemlərinin təmiri və istismarı" ixtisas qrupunda "Uçan aparatların hidropnevmatik sistemləri üzrə mexanik" ixtisası ləğv edilsin;

6.2. "030609 Gəmi xidməti" ixtisas qrupu üzrə:

6.2.1. "Şkiper köməkçisi" ixtisası ləğv edilsin;

6.2.2. "Kapitan (starşina, şkiper)" ixtisasından sonra "Növbə matrosu" ixtisası əlavə edilsin;

6.3. "030612 Bosman" ixtisas qrupunda "Matros" ixtisası ləğv edilsin;

6.4. "030616 Hərəkət tərkibinin təmiri və xidməti" ixtisas qrupuna "Elektrik avadanlıqlarının təmiri və xidməti elektrik montyoru" ixtisasından sonra "Dəmiryol stansiyası və keçidi növbətçisi" ixtisası əlavə edilsin;

6.5. "030622 Nəqliyyat terminalına xidmət" ixtisas qrupuna "Avtomobil (dəniz, çay) nəqliyyatında hərəkət və yükləmə-boşaltma işləri dispetçer məntəqəsinin operatoru" ixtisasından sonra "Avtoyükləyici operator" və "Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları üzrə operator" ixtisasları əlavə edilsin;

6.6. "030624 Avtomobillərin təmiri - sürücülük" ixtisas qrupu üzrə:

6.6.1. "Dizel mühərriklərində yanacaq aparatlarının çilingəri" ixtisası ləğv edilsin;

6.6.2. "Avtomobil diaqnostikası və təmiri ustası" ixtisasından sonra "Avtomobil rəngsazı", "Avtomobil üzrə dəmirçi" və "Avtomobil mexatronikası üzrə texnik" ixtisasları əlavə edilsin;

6.7. "030625 Avtomotonəqliyyat vasitələrinin texniki vəziyyəti" ixtisas qrupuna "Avtomotonəqliyyat vasitələrinin texniki vəziyyətinin yoxlayıcısı" ixtisasından sonra "Nəqliyyat vasitələrinin texniki istismarı (avtomobil üzrə)" ixtisası əlavə edilsin;

6.8. "030630 İnşaat maşınına xidmət" ixtisas qrupuna "Traktor və yol inşaatı maşınlarının təmiri üzrə çilingər" ixtisasından sonra "Ekskavator maşinisti" ixtisası əlavə edilsin;

6.9. "030634 Gəmi yolu xidməti" ixtisas qrupunda "Sahil fəhləsi" ixtisası "Stividor" ixtisası ilə əvəz edilsin.

7. "VIII. "İlkin tələbat və ərzaq mallarının texnologiyası" peşə istiqaməti üzrə" hissəsində:

7.1. "030805 Şəkər istehsalı aparatı" ixtisas qrupunda "Diffuz şirəsinin defeksaturasiya aparatçısı" ixtisası ləğv edilsin;

7.2. "030806 Dondurma istehsalı" ixtisas qrupunda "Dondurmanın möhkəmləndiricisi" ixtisası ləğv edilsin;

7.3. "030809 Ət və ət məhsulları istehsalı" ixtisas qrupu üzrə:

7.3.1. "Quş və dovşan cəmdəklərinin çeşidləyicisi" və "Qiymə tərtibatçısı" ixtisasları ləğv edilsin;

7.3.2. "Əti sümükdən ayıran" ixtisası "Ət kəsimi və satışı işçisi, qəssab" ixtisası ilə əvəz edilsin;

7.4. "030819 Modelçilik və dizayner" ixtisas qrupuna "Geyim üzrə dizayner" ixtisasından sonra "Moda dizaynı" və "Səhnə kostyumları üzrə dərzi" ixtisasları əlavə edilsin;

7.5. "030824 Elektron yığma və səhifələmə" ixtisas qrupunda "Kompyuter üzrə operator, dizayner" ixtisasında "Kompyuter" sözü "Kompüter" sözü ilə əvəz edilsin.

8. "IX. "İnşaat və arxitektura" peşə istiqaməti üzrə" hissəsində:

8.1. "030905 Mənzil-kommunal təsərrüfatı" ixtisas qrupuna "İşıqlandırma şəbəkəsinin elektrik quraşdırıcısı" ixtisasından sonra "Mənzil təsərrüfatı xidməti üzrə mütəxəssis" ixtisası əlavə edilsin;

8.2. "030907 Bəzək tamamlama işləri" ixtisas qrupuna "Suvaqçı" ixtisasından sonra "Rəngsaz və suvaq ustası" ixtisası əlavə edilsin;

8.3. "030908 Ümumi inşaat işləri" ixtisas qrupuna "Çatmaçı" ixtisasından sonra "İnşaat ustası", "Binaların tikintisi və istisması", "İnteryer dizayn" və "Quru inşaat işləri ustası" ixtisasları əlavə edilsin;

8.4. "030910 İnşaatda quraşdırma işləri" ixtisas qrupuna "İnşaat elektrik çilingəri" ixtisasından sonra "Dəmirbənd və taxtabənd quraşdırıcısı" və "Plastik qapı və pəncərə ustası" ixtisasları əlavə edilsin;

8.5. "030913 İnşaatda sanitar-texniki sistemlərin hissə və qovşaqları" ixtisas qrupuna "İsitmə-soyutma, havalandırma sistemləri və avadanlıqları üzrə montajçı" ixtisasından sonra "Plastik boru qaynaqçısı", "Kombi və kondisioner ustası" və "İsitmə və soyutma sistemlərinə xidmət üzrə mütəxəssis" ixtisasları əlavə edilsin.

9. "Qeydlər"ə aşağıdakı məzmunda 3-cü hissə əlavə edilsin:

"3. Bu Təsnifatda "Merçandayzer" dedikdə satış obyektlərinin satışı və marketinqi ilə əlaqəli işlərin icraçısı, "Somelye" dedikdə iaşə müəssisələrində şərabın saxlanılmasını və müştərilərə təqdim edilməsini həyata keçirən işçi, "Barista" dedikdə qəhvə və digər isti (soyuq) içkiləri hazırlayan, habelə təqdim edən işçi, "Oteldə konsiyerj" dedikdə otel xidmətləri üzrə müştəriləri məlumatlandıran işçi, "Stividor" dedikdə gəmiyə yüklərin yüklənilməsi və boşaldılması ilə məşğul olan işçi başa düşülür.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## "Orta dəhliz Avropa və Asiyanı birləşdirən həyati körpü rolunu oynayır"

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktoru Vüsal Qasımlı Polşanın Karpaç şəhərində keçirilən 32-ci İqtisadi Forumda iştirak edib.**

"Köhnə qitənin yeni dəyərləri - Avropa dəyişikliklər astanasında" adlı forum çərçivəsində İİTKM tərəfindən "Avropanı Asiyaya bağlayan Orta dəhliz" mövzusunda panel təşkil olunub. Paneldə V.Qasımlı "Orta dəhliz: Avropa, Qafqaz və Mərkəzi Asiya üçün potensial" mövzusunda təqdimatla çıxış edib. O, Orta dəhlizin unikal coğrafi mövqeyi baxımından Avropa və Asiyanı birləşdirən həyati körpü rolunu oynadığını, Mərkəzi Asiyanın resursla zəngin regionlarını Avropanın sənaye mərkəzləri ilə əlaqələndirdiyini və bu nəqliyyat platformasından regiondakı bütün ölkələrin faydalanacağını bildirib. Bu da öz növbəsində Orta dəhlizi Cənubi Qafqaz vasitəsilə enerji tranziti, ticarət və iqtisadi əməkdaşlıq üçün əsas nöqtəyə çevirir. Azərbaycanın bu layihənin reallaşmasına xüsusi əhəmiyyət verdiyini deyən V.Qasımlı qeyd edilən marşrut üzrə Orta dəhlizə səmərəli alternativin olmadığını vurğulayıb. O, bu kontekstdə Zəngəzur dəhlizinin önəminə toxunub və bildirib ki, Xəzər və Aralıq dənizi hövzələrini, Cənub-Şərqi və Mərkəzi Asiyanı və Avropanı birləşdirən Zəngəzur dəhlizi Orta dəhlizlə əlavə əlaqə yaratmaqla regionda hərtərəfli kommunikasiya şəbəkəsinin yaradılmasına əhəmiyyətli töhfə verəcək.

Paneldə həmçinin Hans Holzhaker (CAREC İnstitutunun baş iqtisadçısı), Damjan Krnjevik Miskovik (ADA Universiteti, Siyasi araşdırmalar üzrə direktor), Yucin Seah (Bakı limanının baş əməliyyat inzibatçısı), Lazlo Vasa (Macarıstan Beynəlxalq Münasibətlər İnstitutunun baş məsləhətçisi) və Mehmet Tosun (ABŞ-nin Nevada Universitetinin professoru) məruzələrlə çıxış ediblər.

Forum çərçivəsində biznes, investisiya, yeni iqtisadiyyat, davamlı inkişaf, enerji, innovasiyalar, səhiyyə, idarəetmə, kibertəhlükəsizlik və beynəlxalq əlaqələr istiqamətləri üzrə 350-dən artıq müzakirə təşkil olunub, Ukraynadakı vəziyyət ətrafında da fikir mübadiləsi aparılıb.

Beynəlxalq tədbirə Amerika, Avropa və Asiyanın 60-dan artıq ölkəsindən, ümumilikdə 5000 nəfərdən çox qonaq, o cümlədən dövlət və hökumət rəsmiləri, beynəlxalq təşkilatların rəhbər şəxsləri, iri şirkətlərin rəhbərləri, tanınmış iqtisadçılar, siyasətçilər, elm adamları, vətəndaş cəmiyyəti institutlarının nümayəndələri qatılıblar.

Məlumat üçün bildirək ki, iqtisadi forum miqyasına görə Mərkəzi və Şərqi Avropanın ən böyük və mühüm konfransıdır. Artıq 30 ildir forum dünyanın 60-dan çox ölkəsindən minlərlə şəxsi bir araya gətirir, dünyanın siyasət və iqtisadiyyat sahələrinin ən mühüm simalarının fikir mübadiləsi apara biləcəyi platforma rolunu oynayır.

## Azərbaycan nefti bahalaşıb




**Dünya bazarlarında "Azeri Light" (CIF) markalı Azərbaycan nefti bahalaşıb.**

"Trend" xəbər verir ki, Azərbaycan neftinin 1 bareli üzrə qiyməti ötən günlə müqayisədə 0,71 faiz və ya 0,68 dollar artaraq, 96,43 ABŞ dollarını təşkil edib.

Qeyd edək ki, 2022-ci ildə "Azeri Light" (CIF) markalı neftin bir barelinin orta satış qiyməti 103,58 ABŞ dolları olub. 2021-ci ilin göstəricisi ilə müqayisədə ötən il "Azeri Light" (CIF) nefti 44,6 faiz bahalaşıb.

## 8 ayda AÇG-dən 4,7 milyard dollardan çox gəlir əldə olunub



**"Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının tammiqyaslı işlənməsi üzrə sazişin imzalanmasından 29 il, həmin kontrakt çərçivəsində ilk neftin əldə olunmasından isə 26 ilə yaxın vaxt keçir. Ötən dövr ərzində AÇG hasilatını ahəngdar şəkildə davam etdirib və Prezident İlham Əliyevin dediyi kimi, ölkəmizin əsas gəlir mənbəyi olub.**

AÇG bu gün də fasiləsiz və təhlükəsiz fəaliyyət göstərərək yeni uğurlara imza atır. Bunu Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) məlumatı da təsdiqləyir. Belə ki, cari il yanvarın 1-dən sentyabrın 1-nə qədər "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan 4 milyard 728 milyon dollar həcmində gəlir əldə edilib.

AÇG-nin hazırkı fəaliyyəti layihənin operatoru olan bp şirkətinin bu ilin birinci yarısına aid hesabatında da öz əksini tapıb. 6 ay ərzində blokdan neft hasilatı ümumilikdə təxminən 68 milyon barel, yəni 9 milyon ton olub. Gündəlik orta hasilat 375 min barel təşkil edib. Bunun 23 min bareli "Çıraq"ın, 98 min bareli "Mərkəzi Azəri"nin, 91 min bareli "Qərbi Azəri"nin, 61 min bareli "Şərqi Azəri"nin, 67 min bareli "Dərinsulu Günəşli"nin və 35 min bareli "Qərbi Çıraq"ın payına düşüb.

Hazırda AÇG-də ümumilikdə 137 neft hasilatı, 44 su injektor və 7 qaz injektor quyusu istismardadır. Cari ilin birinci yarısında burada 3 neft hasilatı və 4 su injektor quyusu tamamlanıb.

Gələn ildən isə AÇG-də daha bir platformadan hasilata başlanacağı gözlənilir. "Azəri Mərkəzi Şərqi" (ACE) adlanan platformanın həm dayaq bloku, həm də üst modulları artıq dənizdə quraşdırılıb. ACE platforması 6 milyard dollarlıq eyniadlı layihə çərçivəsində inşa edilib. Bu layihə AÇG-nin işlənməsinin növbəti mərhələsini təşkil edir. Belə ki, 2017-ci il sentyabrın 14-də Xəzər dənizinin Azərbaycan sektorundakı AÇG yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş saziş imzalanmışdır. Həmin sazişə əsasən, AÇG-nin işlənməsi müddəti 2050-ci ilin əvvəlinədək uzadıldı. ACE layihəsi məhz həmin sazişə əsaslanır. Layihəyə yeni dəniz platforması ilə yanaşı, digər qurğular da daxildir və buradan gündəlik 100 min barelədək hasilat nəzərdə tutulur. ACE-nin istismar müddəti ərzində ümumilikdə 300 milyon barelədək neft hasil olunacağı proqnozlaşdırılır. Bu isə o deməkdir ki, "Azəri-Çıraq-Günəşli" yataqlar bloku hələ neçə müddət öz sərvəti ilə xalqımıza xeyir-bərəkət gətirəcək.

Xatırladaq ki, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri ilə Azərbaycandan AÇG nefti və "Şahdəniz" kondensatı nəql olunur. (Bundan əlavə, BTC-yə Xəzərin digər regional xam neft və kondensat həcmləri - Qazaxıstan və Türkmənistan karbohidrogenləri də qoşulur).

Məlum olduğu kimi, "Şahdəniz" yatağından qazla bərabər kondensat da hasil edilir. 1,2 trilyon kubmetr qaz ehtiyatına malik olan bu nəhəng yataq 240 milyon ton, yəni 2 milyard bareldən çox kondensatla da zəngindir. Elə bu ilin birinci yarısında "Şahdəniz" 2 milyon tondan çox (təqribən 18 milyon barel) kondensat verib.

ARDNF-nin məlumatına görə, bu ilin əvvəlindən sentyabrın 1-dək "Şahdəniz" kondensatının satışından əldə olunan gəlirin həcmi 259,554 milyon dollar təşkil edib. Qeyd edildiyi kimi, "Şahdəniz" kondensatı BTC-yə vurulur.

Ümumiyyətlə isə, bu kəmər 2006-cı ilin ortalarında istismara veriləndən bu ilin ikinci rübünün sonunadək təqribən 546 milyon tondan çox (4,1 milyard barel) xam neft nəql edib. Həmin neft həcmi Ceyhanda 5402 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

Bu ilin ilk altı ayı ərzində BTC vasitəsilə ixrac olunmuş təqribən 15 milyon ton (təxminən 114 milyon barel) xam neft və kondensat Ceyhan terminalında 158 tankerə yüklənib və yola salınıb.

Bütün bunlar göstərir ki, Azərbaycan karbohidrogenlərinin hasilatı, həmçinin ixracı davam edir və ölkəmizə yeni gəlirlər gətirir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Dövlət Su Ehtiyatları Agentliyi İsrail şirkəti ilə dəniz suyunun duzsuzlaşdırılması layihəsi üzrə müqavilə imzalayıb

**Dövlət Su Ehtiyatları Agentliyi "Azərsu" ASC-də İsrailin "Mekorot Water Company" şirkətinin nümayəndələri ilə görüş keçirib.**

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən içməli və tullantı su təchizatı sistemlərinin yenidən qurulması ilə bağlı görülən işlər barədə məlumat verərək layihələrin icrasında dünyanın qabaqcıl şirkətlərinin təcrübəsindən istifadə olunduğunu diqqətə çatdırıb.

Agentlikdən bildirilib ki, qurumun rəhbəri Prezidentin bu il aprelin 12-də imzaladığı sərəncamla Bakı şəhərinin və ətraf ərazilərin su təminatının yaxşılaşdırılması üçün dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihənin icrasına başlanıldığını və Xəzər dənizinin suyunun emalı sahəsində İsrail şirkətləri ilə əməkdaşlığa xüsusi əhəmiyyət verildiyini deyib.

İsrailin milli su operatoru "Mekorot Water Company" şirkətinin direktorlar şurasının sədri Amir Lang ölkəsində içməli suya olan tələbatın 90 faizinin təmsil etdiyi şirkət tərəfindən təmin etdiyini, istehlakçılara verilən suyun təqribən 60 faizinin dəniz suyunun duzsuzlaşdırılması ilə əldə olunduğunu bildirib. "Mekorot Water Company" şirkəti və onun törəmə müəssisələri hazırda dünyanın bir sıra ölkələri ilə dəniz suyunun duzsuzlaşdırılması, eləcə də suyun idarə edilməsi sahəsində əməkdaşlıq edirlər.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi "Azərsu" ASC ilə "Mekorot Water Company" şirkəti arasında dəniz suyunun duzsuzlaşdırılması layihəsi çərçivəsində texniki məsləhət xidmətlərinin göstərilməsi üzrə müqavilə imzalanıb.

Görüşdə içməli su təchizatı sektorunda gələcək əməkdaşlıq məsələləri ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb.

## Dövlət Vergi Xidməti aydınlıq gətirib

**Sığorta agenti kimi fəaliyyətini Şuşa şəhərində davam etdirən şəxsə işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən vergiödəyiciləri üçün Vergi Məcəlləsində müəyyən edilmiş güzəştlər şamil olunacaqmı?**




Dövlət Vergi Xidmətindən AZƏRTAC-a bildirilib ki, Vergi Məcəlləsinin 13.2.14.7-ci maddəsinə əsasən, sığorta və təkrar sığorta əməliyyatları, habelə bu əməliyyatlarla bağlı sığorta agenti və sığorta brokeri xidmətləri maliyyə xidmətlərinə aiddir.

Vergi Məcəlləsinin 2023-cü il yanvarın 1-dən qüvvəyə minmiş 226.3.1-ci maddəsinin müddəalarına əsasən, bu məcəllənin XIX fəslində müəyyən edilən işğaldan azad edilmiş ərazilərdə tətbiq olunan vergi azadolmaları maliyyə xidmətlərinin göstərilməsi sahəsində fəaliyyət göstərən şəxslərə şamil edilmir.

Qeyd olunanlara əsasən, sığorta agenti maliyyə xidmətlərinə aid olduğundan bu fəaliyyətlə məşğul olan vergiödəyicilərinə Vergi Məcəlləsinin XIX fəslində nəzərdə tutulmuş vergi güzəştləri şamil olunmur.

## "ƏN TEZ" tezliklə xidmət sektorunun bütün sahələrini əhatə edəcək

**Bu gün informasiya-kommunikasiya texnologiyaları (İKT) cəmiyyətin və iqtisadiyyatın inkişafına təsir göstərən əsas amillərdən biridir. İnnovasiyalar bütün sahələri təkcə əhatə yox, həm də idarə edir. Kim bacarırsa, İKT-nin yaratdığı üstünlüklərdən yüksək səviyyədə faydalanır, böyük uğurlara imza atır.**

Son illər bu sahənin inkişafı üçün Azərbaycanda da xeyli tədbirlər görülüb. İKT-nin tətbiqi dövlət siyasətinin tərkib hissəsinə çevrilib. Prezidentin təşəbbüsü ilə İKT sahəsində bir neçə istiqamətdə səmərəli layihələr həyata keçirilib. Onlardan ən sonuncusu "ƏN TEZ" (Ədliyyə Nazirliyinə Təcili Elektron Zəng) xidmət sahəsidir. Xidmət rəqəmsal innovasiya hesabına müxtəlif növ ədliyyə xidmətlərindən eyni vaxtda, vahid mənbədən və məsafədən yararlanmağı təmin edir. Həmin konsepsiya hazır sənədlərin yerindəcə verilməsi prinsipinə əsaslanır və xidmətləri sürətləndirilmiş rejimdə yerinə yetirir. Bu, vətəndaşların dövlət xidmətlərinə əlçatanlığının asanlaşdırılması yönümündə rəqəmsal innovasiyalardan istifadə etməyin ən asan və ən rahat üsuludur.

Hazırda bütün sahələrdə xidmət sektorunun

inkişafı, dövlət orqanlarına əlçatanlığın artırılması, şəffaflığın təmin edilməsi, eyni zamanda xidmətlərin vahid məkandan göstərilməsi üçün geniş imkanlar var. Azərbaycan da milli prioritetlərindən olan rəqəmsal cəmiyyətin inkişafı üçün mühüm addımlar atır. Bu baxımdan "ƏN TEZ" xidmət platforması Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST agentliyində istifadə olunan sistemdir. Bu xidmətdən yararlanmaq üçün ilk olaraq DOST mərkəzi ona görə seçilib ki, qurum əhalinin daha həssas təbəqəsinə xidmət edir. Şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və onların uşaqları, eləcə də valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, aztəminatlı ailələr və əlilliyi olan şəxslər bundan sonra "ƏN TEZ" yeni xidmət modelinin üstünlükləri sayəsində problemlərini innovativ yolla həll edə biləcəklər.



"ƏN TEZ" xidməti vətəndaşlar üçün ədliyyə orqanlarına və məhkəmələrə videozəng vasitəsilə operatora müraciət etməklə lazımi xidmətlərdən ən sürətli şəkildə faydalanmaq imkanı yaradır. Bu zaman vətəndaşlar notariat, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, tələbkar qismində bəzi məhkəmə qərarlarının icrası və digər xidmətlərdən bəhrələnə biləcəklər. İnnovativ xidmət konsepsiyası olan "ƏN TEZ"in bir fərqliliyi də odur ki, vətəndaşlardan heç bir qeydiyyat və elektron imza tələb olunmur. Şəxsiyyət vəsiqəsi ilə biometrik eyniləşdirmə apararaq çox rahat şəkildə müraciət edən şəxsin sualı cavablandırılır, istəyi yerinə yetirilir. Bu o deməkdir ki, "ƏN TEZ" vətəndaşın izafi xərcinin qarşısının alınmasında müsbət rol oynayacaq və beləliklə, onun məmnunluğu təmin ediləcək. Yeni innovativ xidmət bölgələrdə yaşayan, o cümlədən Böyük qayıdış üzrə milli prioritetə uyğun olaraq azad edilmiş doğma torpaqlara qayıdan sakinlərin ədliyyə xidmətlərinə əlçatanlığının artırılmasında əlverişli və rahat imkanlar yaradacaq.

Vətəndaş məmnunluğu doğuran bu xidmətə artan ictimai marağı nəzərə alan Ədliyyə Nazirliyi "ƏN TEZ"in tətbiqini genişləndirir. Artıq xidmət 1 saylı Bakı DOST mərkəzində və Heydər Əliyev adına Beynəlxalq Hava Limanında istifadəyə verilib. "ƏN TEZ" səyahət etmək arzusunda olan vətəndaşlara vaxta qənaət edərək, hava limanının binasını tərk etmədən ən zəruri ədliyyə xidmətlərindən yararlanmaq imkanı yaradıb. Yetkinlik yaşına çatmayan şəxslərin dövlət sərhədindən keçməsi üçün zəruri olan valideynlərin razılıq ərizələrinin notariat qaydasında rəsmiləşdirilməsi, habelə məhkəmə qərarına əsasən borclu şəxslərin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması aşkar olunduğu halda borcun terminal üzərindən ödənilməsində də çox böyük faydası olan "ƏN TEZ" həmin məhduduyyətin aradan qaldırılmasına kömək edir. Vətəndaşlar hava limanında bu xidmətin köməyi ilə bəzi məhkəmə qərarlarının icrası və sair xidmətlərdən faydalana biləcəklər. Maraqlı və innovativ konsepsiyanın "ASAN xidmət" mərkəzlərində və insanların daha çox müraciət etdikləri digər xidmət məkanlarında da istifadəyə verilməsi nəzərdə tutulur.

Bu gün vahid əlaqələndirmə qurumu olan DOST mərkəzləri 154 növ sosial xidməti "bir pəncərə"dən şəffaf və operativ şəkildə yerinə yetirir. Bu, innovativ texnologiyaların tətbiqi nəticəsində baş verir. Tətbiqinə başlanmış "ƏN TEZ" xidməti də vətəndaş məmnunluğuna yönələn növbəti uğurlu addımdır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Azərbaycan ilə Slovakiya arasında ikiqat vergitutma aradan qaldırılır

**Bununla bağlı "Azərbaycan Respublikası ilə Slovakiya Respublikası arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin dünən keçirilən iclasında müzakirəyə çıxarılıb.**

Xatırladaq ki, saziş 2023-cü il iyulun 7-də Bratislava şəhərində imzalanıb. AZƏRTAC xəbər verir ki, sazişə əsasən Slovakiyanın rezidenti bu sazişin müddəalarına uyğun olaraq Azərbaycanda vergiyə cəlb edilə bilən gəlir əldə edərsə, Slovakiya həmin rezidentin gəlirindən Azərbaycanda ödənilən gəlir vergisinə bərabər məbləğdə verginin çıxılmasına icazə verir. Bununla belə bu cür çıxılma heç bir halda çıxılma verilməzdən əvvəl Azərbaycanda hesablanmış vergiyə cəlb edilə bilən gəlirə aid olan vergi məbləğindən artıq olmamalıdır.

Əgər bu sazişin hər hansı bir müddəasına müvafiq olaraq, Slovakiyanın rezidenti tərəfindən əldə edilmiş gəlir Slovakiyada vergidən azaddırsa, Slovakiya qeyd olunana baxmayaraq həmin rezidentin qalan gəlirinə vergi hesablayarkən vergidən azad edilmiş gəliri nəzərə ala bilər.

Sənədə görə, Azərbaycan Respublikasının rezidenti bu Sazişin müddəalarına uyğun olaraq Slovakiyada vergiyə cəlb edilə bilən gəlir əldə edərsə, Azərbaycan həmin rezidentin gəlirindən Slovakiyada ödənilən gəlir vergisinə bərabər məbləğdə vergi çıxılmasına icazə verir. Bununla belə bu çıxılma Azərbaycanın qanunvericiliyinə və vergitutma qaydalarına uyğun olaraq həmin gəlir üçün hesablanmış vergi məbləğindən artıq olmamalıdır.

## Braziliya Latın Amerikasında Azərbaycanın 10 ən böyük ticarət tərəfdaşı sırasında qalır

**Braziliya Azərbaycanın Latın Amerikasındakı ən böyük ticarət tərəfdaşlarının zirvəsində qalmaqda davam edir.**

"Trend" xəbər verir ki, bu barədə Braziliyanın Azərbaycandakı səfiri Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruz cümə axşamı Braziliyanın Müstəqillik Gününə həsr olunmuş tədbirdə bildirib.

"Hazırda ikitərəfli iqtisadi əməkdaşlıq və bu sahədə geniş imkanların müzakirəsi üçün ticarət və investisiyalar üzrə hökumətlərarası işçi qrupunun çağırılması məsələsi müzakirə olunur", - deyə səfir bildirib.

Diplomat qeyd edib ki, oktyabr ayında Azərbaycan və Braziliya arasında kosmik elm və texnologiya sahəsində əməkdaşlıq haqqında ikitərəfli sazişin təqdimatı gözlənilir.

Həmçinin səfirin sözlərinə görə, oktyabrın sonunda Azərbaycan və Braziliya ikinci dəfə Bakı Braziliya Film Festivalı və Braziliya Klassik Musiqi Festivalını keçirməyi planlaşdırır.




● Günahsızlar

# Bir aktyorun faciəsi

...1956-cı il iyunun 7-də Xalq artisti Mərziyə Davudova SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasından bir məktub alır. Məktubda bildirilir ki, Hərbi Kollegiyanın 1955-ci il noyabrın 19-da çıxardığı qərar 1938-ci ilin yanvarında Şaşıqzadə Ülvi Rəcəb Molla oğlu haqqındakı hökmü ləğv edərək işə xitam verib, onun bütün hüquqları özünə qaytarılıb. Beləliklə, həmin vaxtdan 18 il əvvəl zamanın amansız səhvi - Stalin repressiyalarının, qırmızı terrorun hökmü ilə güllələnmiş 35 yaşlı bir gəncin üstündən "xalq düşməni" kölgəsi götürülür.

## Uğurlu tanışlıq və Ərəblinskinin xeyir-duası

"Şaşıqzadə" və "Şaşıqoğlu" Azərbaycanda tanınan, hörmətlə səslənən soyaddır. "Şaşıqzadə" soyadını daşıyan Ülvi Rəcəb Azərbaycan teatr sənətində əbədi imza atmış, dəst-xətini Azərbaycanın incəsənət tarixinə həkk etmişdir. Ülvi Rəcəbin faciəli ölümündən illər sonra xalqımız bu nəsildən olan digər bir aktyoru tanımış və sevmişdir. Bu, bir sıra Azərbaycan kinosunda çəkilən, ən çox da "Uzaq sahillərdə" filmindən tanınan Nodar Şaşıqoğludur. Ülvi Rəcəb Nodarın doğma əmisidir.

...Təxminən 1918-ci ildə Azərbaycan peşəkar teatr sənətinin banilərindən olan Hüseyn Ərəblinski öz truppası ilə birlikdə Batumiyə qastrola gəlir. Onlar buradakı "Artistlər cəmiyyəti"nin salonunda "Otello" tamaşasını oynayırlar. Zaldakılar arasında tamaşaya heyran kəsilən 15 yaşlı bir yeniyetmə də olur. Onu xüsusilə Ərəblinskinin yaratdığı Otello obrazı valeh edir. Tamaşadan sonra Hüseyn Ərəblinskiyə yaxınlaşan gənc ona təəssüratlarını, eləcə də arzu və istəklərini söyləyir.

Bu yeniyetmə sonralar tanınmış Azərbaycan aktyoru olacaq Ülvi Rəcəb Şaşıqzadə idi. O, 1903-cü ildə Batumi yaxınlığındakı Canivri kəndində dünyaya göz açmışdı. Milliyyətcə acar idi. Atası Rəcəb bəy dövrünün tanınmış ziyalılarından olduğuna görə kiçik yaşlarından övladında geniş dünyagörüşü formalaşdıra bilmişdi. Oğlunu elmli, təhsilli bir insan kimi görmək istəyirdi. Bəlkə də bu səbəbdən Ülvini İstanbulda yaşayan xalasının yanında qoymuşdu ki, orada mükəmməl təhsil alsın.

Kim bilir, Ülvini necə xoşbəxt günlər gözləyirmiş... Amma bir gün onu bu xoşbəxtliyə aparan yollar qırılır. Atası dünyasını dəyişir və Ülvi çox erkən yaşlarından çörək pulu qazanmalı olur. Təhsilini yarımçıq qoyur.

1918-ci ildə Batumiyə qayıdan gənc teatr kollektivinə daxil olur. Onu buraya sənətə olan məhəbbəti gətirir. Sonrakı taleyini müəyyən edən həmin görüş - Hüseyn Ərəblinski ilə tanışlıq da elə bu zaman baş verir.

## Həyatın növbəti dönüş nöqtəsi

Gənc Ülvi Batumi teatrına qəlbən bağlanır. 1922-ci ildə teatr Tiflis şəhərinə qastrola gəlir. Lakin Rustaveli teatrındakı ilk tamaşadan sonra məlum olur ki, kollektivin qastrolu heç də yaxşı təşkil olunmayıb. Ona görə səfər yarımçıq qalır. Bu zaman Ülvi Tiflisdə Azərbaycan teatrının yaradıcılarından biri - İbrahim İsfahanlı ilə tanış olur və onun həyatında növbəti bir dönüş yaranır.

Ülvi Rəcəb artıq Batumiyə qayıtmayıb Tiflisdəki "Zubalov evi"ndə fəaliyyət göstərən "Azərbaycan dram cəmiyyəti"nə daxil olur. Burada o, daha bir böyük sənətkarın, teatrın baş rejissoru Aleksandr Tuqanovun diqqətini cəlb edir.

1924-cü ilin yayında Aleksandr Tuqanovu Akademik Milli Dram Teatrının baş rejissoru təyin edirlər. Tuqanov Ülvi Rəcəbi Bakıya çağırır. Beləliklə, Tiflisdəki Azərbaycan teatrından başlanan yol Bakıda davam etdirilir. O, Bakı səhnəsində 1925-1937-ci illərdə bir çox obrazları canlandırır və cavan olmasına baxmayaraq, bacarıqlı sənətkar kimi tanınıb şöhrət qazanır.

## Dövrün təzadları onun həyatında

Ülvi Rəcəb Azərbaycan teatrındakı xidmətlərinə, yaratdığı parlaq obrazlara görə respublikanın Əməkdar artisti fəxri adına layiq görülmüşdür. Tez şöhrətlənən cavan aktyor bu adı 30 yaşında almışdı. Bəs necə olmuşdu ki, cəmi 5 il sonra o, "xalq düşməni"nə çevrilmişdi?

Bax, bu, dövrün ağlasığmaz təzadları idi. Çox qəribədir ki, az qala eyni vaxtda, eyni qəzet onu həm tərifləmiş, həm də damğalamışdır.

İfşaedici bir məqalədən sətirlər: "Budur, Ülvi Rəcəb. Bu adam xalqın



qəddar düşmənləri - yapon-german faşizminin agentləri, R.Axundovun və Ə.Trinicin vasitəsilə teatra soxulmuşdur. Yaradıcılığı bir qəpiyə dəyməyən bu adam tez bir zamanda "məşhurlaşmış" və respublikanın Əməkdar artisti kimi şərəfli bir ada "nail" olmuşdur. O, xalq düşmənləri R.Axundov, Ə.Trinic, Ə.Kərimov, H.Nəzərli ilə sıx əlaqə saxlamış, xarici reaksion qəzetlər oxumuş, patefonda xarici plastinkalar çaldırmış, məişətcə pozulmuş, səhnəmizi osmanlı, ərəb və fars sözləri ilə zibilləməyə çalışmış, gənc kadrların inkişafına mane olmuşdur..."

Bu sözlər 1937-ci ildə "Kommunist" qəzetində yazılmışdır. Elə bundan əvvəl həmin qəzet Ülvi Rəcəb haqqında başqa bir məqaləsində digər sözlər də yazmışdı: "Ülvi Rəcəb nəcib, ləyaqətli, saf amallı, həyat eşqli, bütöv xarakterli obrazları xüsusi bir zövq və məharətlə ifa edirdi. O, monumental quruluşlu romantik faciə surətlərinin səhnə təfsirində də həyatdan şirə çəkən poetik realizmə üstünlük verir, ifa üçün səmimiyyət, məlahət, ürəyəyatımlılıq kimi - daha çox aktyorun şəxsi "mən"indən qidalanan psixoloji məziyyətləri qabardırdı. Onun gur və yapışıqlı səsində ürək çalan, qəlb oxşayan bir lirizm vardı".

## 20 dəqiqəlik məhkəmə

1937-ci ilin ortalarında Azərbaycan XDİK-dan Dövlət Təhlükəsizliyi İdarəsinin 4-cü şöbəsinə daxil olan dərkənarda iki aktyorun - Abbas Mirzə Şərifzadənin və Ülvi Rəcəbin adları çəkilir. Bildirilir ki, onlar tezliklə həbs olunmalı və istintaqa cəlb edilməlidirlər.

Bu məlumata əsasən, 4-cü şöbənin müdiri Sinman arayış hazırlayır. Arayışda Şaşıqzadə Ülvi Rəcəb Molla oğlunun doğum tarixi, Azərbaycan SSR vətəndaşı və dram teatrının artisti olduğu qeyd ediləndən sonra bildirilir: "İdarəmiz tərəfindən həbs olunmuş əksinqilabi-burjua-millətçi təşkilatının üzvü Əli Kərimov göstərdi ki, Şaşıqzadə Ülvi Rəcəb də həmin təşkilatın üzvüdür. İzah edilənə əsasən, Şaşıqzadə Rəcəbin həbs olunub Azərbaycan SSR Cinayət Məcəlləsinin 72-ci və 73-cü maddələri ilə məsuliyyətə cəlb edilməsini zəruri hesab edirəm".

Qeyd edək ki, bu dövrdə Əli Kərimov Azərbaycan Dövlət Dram Teatrının direktoru, A.M.Şərifzadə artıq tanınmış aktyor və rejissor, respublikanın Xalq artisti, Ülvi Rəcəb isə Əməkdar artist idi.

Ülvi Rəcəb sentyabrın 15-də həbs edilir. Müstəntiq tərəfindən dindirilərkən və müttəhim Əli Kərimovla üzləşdirilərkən Ülvi Rəcəb onun ünvanına deyilənləri qətiyyətlə rədd edir.

İttihamlar isə çox idi. Belə ki, aktyoru teatrın repertuarına ideoloji cəhətdən səbatsız və ziyanlı əsərlərin daxil olmasına şərait yaratmaqda, əməkdaşlar arasında əksinqilabi-burjua-millətçi təşkilata yeni üzvlər cəlb etməkdə, Ruhulla Axundovu Azərbaycan xalqının rəhbəri kimi şöhrətləndirməkdə günahlandırırdılar. Guya 1936-cı ilin qışında əksinqilabi-burjua-millətçi təşkilatı Azərbaycan K(b)P katibi M.C.Bağırovun əleyhinə sui-qəsd hazırlayıbmış və bunu Ülvi Rəcəbə həmin Əli Kərimov deyibmiş.

1937-ci il noyabrın 15-də keçirilən dindirmə zamanı müstəntiq Ülvi Rəcəbə öz ifadələrini yekunlaşdırmaq əmri verir. "Müqəssir" isə ona "yüklənən" cinayətlərin hamısını boynuna alır. Beləliklə, 1938-ci il yanvarın 2-də Bakıda SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının bağlı iclası keçirilir. Digər günahsız müqəssirlərə olduğu kimi, Ülvi Rəcəbə də ölüm hökmü səslənən iclas çox çəkmir. Cəmi ...20 dəqiqə davam edir. Müttəhimə son söz verilir. Bu dəfə o, bir kəlmə belə demir, susur. Hökm yanvarın 2-də icra edilir.

Həqiqət neçə ildən sonra olsa da, təsdiqlənir, ədalət bərpa edilir. Ancaq nə yazıqlar ki, həyatının və sənətinin çiçəklənən çağında ağ yalanın və nahaq güllənin qurbanı olan bir cavanın ömür karvanını geriyə qaytarmaq mümkün olmur. Azərbaycan xalqı isə övladını, böyük sənətkarı unutmur.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

● Qırmızı terror

# Hədəfdə ziyalılar idi

Zəngin yeraltı və yerüstü sərvətlərimiz, ölkəmizin geostrateji coğrafi mövqeyi həmişə Azərbaycan uğrunda savaşın başlıca səbəbi olub. 1920-ci ildə qanlı qırğınlar törədib Azərbaycana "sahiblənən" bolşevik Rusiyası dərhal da siyasi repressiyalara başlayıb.



Xalqımıza gözdağı verib, onu qorxutmaq niyyətinə düşən bolşeviklər ilk növbədə Cümhuriyyət Ordusunda xidmət edən milli ruhlu zabitlərimizi aradan götürməyə başlayıblar. Güllələnənlər arasında Azərbaycan Ordusunun 12 generalı, 27 polkovnik və podpolkovniki, 46 kapitan, ştabskapitan, poruçik və podporuçiki, 146 praporşik və podpraporşiki, 267 digər hərbi qulluqçusu da var idi.

1920-ci ildən başlayan repressiyalar 1950-ci illərin əvvəlinə qədər davam etdi. Bu müddət ərzində işə düşən Stalin repressiya maşını Azərbaycan xalqının ali hakimiyyət rəhbərlərindən tutmuş ruhanilərə, ziyalılara, varlı kəndlilərə kimi Azərbaycan əhalisinin bütün təbəqəsinə toxunmuşdu. Repressiyalara əksinqilabi fəaliyyətdə, casusluqda, antisovet təbliğatı aparmaqda şübhəli bilinən ziyalılar, əmlaklarının milliləşdirilməsinə etiraz edən "qolçomaq"lar, ateizmə qarşı dirəniş göstərən din xadimləri cəlb edilirdi.

Azərbaycanda kütləvi repressiya əsasən üç mərhələdə - 1920-ci illərdə, 1927-ci və 1937-1938-ci illərdə baş tutmuş "Böyük təmizləmə" və ya "Yejovşina" əməliyyatı zamanı baş vermişdir. Bu dövr Azərbaycanı 20 il idarə etmiş Mircəfər Bağırovun rəhbərliyi vaxtını əhatə edirdi. Mircəfər Bağırov 1937-ci il yanvarın 29-da Azərbaycan K(b)P MK Bürosunun iclası keçirilən zaman partiyanın Mərkəzi Komitəsinin Təbliğat, təşviqat və mətbuat şöbəsinin müdiri Mikayıl Hüseynovu trotskiçi adlandırdı və onu dərhal partiya sıralarından, tutduğu vəzifələrdən kənarlaşdırdı. Bu, 1937-ci ilin kütləvi repressiyalarına yol açan başlıca cığır idi. Bununla rəhbər xalq düşmənlərinə qarşı mübarizəni öz "aparat"ından başlamaqla digərlərinə də "fəal olun" mesajını ötürdü.

Azərbaycanda Sumbatovun, Gerasimovun, Qriqoryanın, Markaryanın, Borşovun və başqalarının "işə başlamaları" ilə ölüm maşını öz fəaliyyətini daha da intensivləşdirdi. Təsadüfi deyil ki, məhkəmə zamanı hər bir xalq düşməninə yalnız 15-20 dəqiqə vaxt ayrılırdı. Bir gündə 96 nəfərin, ayda 2880 nəfərin qətlinə fərman verilirdi. O illərdə repressiya olunanların əksəriyyəti alimlər, yazıçılar, şairlər, bir sözlə, Azərbaycan xalqının görkəmli elm və mədəniyyət xadimləri idilər. Məqsəd Azərbaycan xalqını ziyalısız qoymaq, milli ruhdan, milli düşüncədən məhrum etmək idi. Repressiya qurbanlarının ilk nümayəndələrindən olan Bəkir Çobanzadə türk dili və ədəbiyyatı sahəsində 100-ü Azərbaycan dilində olmaqla 150 kitabın və dəyərli məqalələrin müəllifi idi. Bəkir Çobanzadə təkcə SSRİ-də yox, Avropa ölkələrində də kifayət qədər tanınmış elm adamı idi. 27 yaşında doktorluq dissertasiyası müdafiə etmişdi. 1924-cü ildə - 31 yaşında Krım Universitetinin rektoru olmuşdu. Elə həmin il "Yeni Türk Əlifbası Komitəsinin" dəvəti ilə Bakıya gəlmiş və ortaq türk əlifbasının hazırlanması üçün fəaliyyətə başlamışdı. 1937-ci il yanvarın 28-də həbs olunmuşdu.

Bəkir Çobanzadə fevralın 7-9-da dindirilir. O, etiraf edir ki, 1926-cı ildə əksinqilabi-millətçi qrup yaradıb, hətta Krım "milli firqəsi" ilə Müsavat Partiyası arasında danışıqlar da aparıb. Onun həbsinə daha bir tutarlı səbəb isə Ruhulla Axundovla daim əlaqədə olması idi…

1937-ci ilin repressiya qurbanlarından biri də iyulun 15-də həbs olunan "Qızıl Azərbaycan aşığı"- Aşıq Bilaldı. Mirzə Bilalın evində axtarış aparan "istintaqçı"lar onun mal-qarasını, atını, ustadlardan topladığı şeirləri, dastanlardan ibarət arxivini, özünün yazdığı şeirləri, cürə sazını, bir sözlə, nəyi varsa alıb gedirlər. Uzunmüddətli işgəncələrə məruz qalan el sənətkarı məcbur olub saxta ittihamlara imza atır. Noyabrın 26-dan 27-nə keçən gecə erməni Q.B.Martirosovun qərarı və Sumbatovun göstərişi ilə 65 yaşlı aşıq güllələnir. Həmin gecə onunla birlikdə daha 50 nəfərə verilən ölüm hokmü icra olunur.

Azərbaycanda "təmizləmə" əməliyyatı keçirən Sumbatyanların, Martirosovların, Gerasimovlarin məqsədi "xalq düşmənləri ilə mübarizə" adı altında xalqımızın işıqlı genefondunu məhv etmək idi. Hüseyn Cavid, Əhməd Cavad, Yusif Vəzir Çəmənzəminli, Mikayıl Müşfiq, Salman Mümtaz, Vəli Xuluflu, Bəkir Çobanzadə, Hənəfi Zeynallı, Abbas Mirzə Şərifzadə, Əmin Abid, Ömər Faiq Nemanzadə, Seyid Hüseyn, Umgülsüm Sadıqzadə, Sultanməcid Qənizadə kimi ziyalılarımızı aradan götürməklə buna qismən də olsa, nail ola bilmişdilər.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

● Qırılan ömürlər

# "Mən türk qardaşıma güllə ata bilmərəm"

Şamxor (Şəmkir) rayonunda məsul vəzifə sahibi, habelə yeni hökumətin yanında sözü keçən Piri oğlu Əli 1918-ci il "Eşelon davası"nın, 1920-ci il Gəncə üsyanının, neçə-neçə erməni-müsəlman münaqişəsinin iştirakçısı olmuş Qədim ağanın böyük oğlu Zeynal ağanı, onunla yoldaşlıq edən Kərbalayi Əhmədin oğlu Yusif ağanı yaxşı tanıyırdı.

Zeynal ağa təhsilli, ədəb-ərkanlı birisi idi. O, ilk təhsilini kənddə molla yanında almışdı, sonra Aninnoda (indi Şəmkir rayon mərkəzi) almanlara məxsus dördsinifli məktəbi bitirmişdi. Hərbçi olmağa böyük həvəs göstərdiyindən atası onun istəyini məmnunluqla qarşılamışdı. Aparıb Tiflisdə hərbi məktəbə qoymuşdu. Hərbi məktəbi uğurla başa vuran Zeynal ağa Bədirbəyli az sonra Rusiyada da hərbi məktəbdə oxumuşdu. O, rus və ərəb dillərini yaxşı bilirdi.

Zeynal ağa çar ordusunda xidmətdə olarkən, 1913-1914-cü illər rus-türk müharibəsinin iştirakçısı olub. Döyüşlərin şiddətli vaxtı biləndə ki, rus əsgərləri, türklərə qarşı vuruşur, döyüşdən boyun qaçırır: "Mən türk qardaşlarıma güllə ata bilmərəm" deyib, silahını yerə qoyur, hərbçi andını pozur və çox çətinliklə də olsa baş götürüb birbaşa Azərbaycana - Şəmkirə gəlir. Atasının təsərrüfatında müəyyən işlərə rəhbərlik edir. Arabir qəzet, dərgi almaq üçün həmkəndlisi Yusif ağayla Gəncəyə gedirdi. Zeynal ağa burada həm də xalqının azadlığı, ölkəsinin müstəqilliyi uğrunda düşünüb-daşınanlarla tanış olurdu.

Zeynal ağanın 29, yaxın dostu Yusif ağanın isə 28 yaşı var idi. Zeynal ağa bölgədə böyük nüfuz sahibi, Cümhuriyyət qurucularına qoşulan, onlara maliyyə dəstəyi göstərən "Müsavat"ın fəallarından biri kimi tanınırdı.

Vaxtının çox hissəsini Cümhuriyyətin qayğılarına həsr edən Zeynal ağa Morulda adlı-sanlı kişilərdən olan Bəylər Alırza oğlunun qızı Maya xanıma nişanlı idi. Erməni-müsəlman qırğınları, Cümhuriyyət dövrünün çəkişmələri, Gəncə üsyanı toyun vaxtının uzanmasına səbəb olmuşdu. Bolşevik əsgərləri və NKVD işçiləri tərəfindən iki dəfə həbs edilən məşhur mülkədar və bolşevik quruculuğunun düşməni olan atası Qədim ağanın, eləcə də qardaşlarının qolçomaq kimi həbs edilmək, sürgünə göndərilmək, güllələnmək təhlükəsi xeyir işi əngəlləyirdi.

İşlərin gedişindən gözü su içməyən Şura sədri, Qədim ağanın



uşaqlıq dostu Piri oğlu Əli yaxınlaşan təhlükəni bu ailədən uzaqlaşdırmaq üçün Zeynal ağanı xəlvəti yanına çağırıb tapşırır ki, vəziyyət çox qarmaqarışıqdır, çalış gözə görünmə, baxaq görək, bu işlərin axırı necə olur...

Odur ki, Zeynal ağa dostu Yusif ağayla bir neçə ay idi ki, Kürqırağı meşələrdə, yataqlarda, çobanların yanında, bəzən də təsadüfi tanışların evində gecələyir, qaçaq həyatı yaşayırdılar. Morula, evə-eşiyə yaxın gedə bilmirdilər, gedəndə də gecələr gizlin gəlib, tez də aradan çıxardılar. Əsasən Kürqırağı meşələrdə günlərini keçirər, gündüzlər dükan-bazara dəymək bəhanəsi ilə ətraf kəndlərdə dolaşardılar.

1920-ci il dekabr ayının axırında Zeynal ağa ilə Yusif ağa Qaracəmirlinin üstündəki meşəlikdən çıxıb Alabaşlı stansiyasına gəlirlər. Dəmiryolu vağzalında bufetdən papiros alıb, çəkə-çəkə perronda o baş-bu başa var-gəl edirlər. Onların silahlı, yaraqlı-yasaqlı olmaları buradakı ermənilərin diqqətini çəkir. Gəzinənlərin yaxın kəndlərdən olduğunu zənn edib, hər ikisini perronun sakit küncündə güllələyirlər, üstlərində olan pulu, tapançanı, xəncəri, papirosu, müştüyü və s. götürürlər. Sonra da almanlarla dost və mehriban şəraitdə yaşayan yerli camaatın arasında münaqişə yaratmaq məqsədilə onları "üzümçülüklə məşğul olan almanlar öldürüblər" deyirlər. Bununla ermənilər yerli azərbaycanlılarla almanları qarşı-qarşıya qoymaq istəyirdilər.

O dövrdə terrorçu erməni dəstələri bu üsulla rusların evlərini qarət edir, qonşunun həyətindən toyuq-cücəsini, mal-qarasını oğurlayıb məqsədli şəkildə deyirdilər ki, bunu müsəlmanlar, azərbaycanlılar edib. Həmin dəstənin üzvlərindən bir neçəsi utanmadan hətta şahid kimi ermənipərəst rus məmurlarına ifadə də verirdilər: "Mən gördüm Yurikin evini Mamed apardı".

Bolşeviklərin gəlişi ilə dönəlgəsi dönən ailənin Zeynal ağanın ölümündən sonra daha faciəli günləri başlayır. Zeynal ağanın meyiti Alabaşlıdan arabayla Morula - qapıya gətiriləndə nişanlısı Maya bərk əsəb sarsıntısı keçirir, havalanır, xəstələnir, az sonra dünyasını dəyişir. Ermənilər tərəfindən öldürülən Zeynal ağanın atası və yaxınları bolşeviklərin qorxusundan nə günahkarı arayıb axtarırdılar, nə də harasa şikayət edə bilirlər. Heç yeni hökumət özü də bu qoşa qətllə maraqlanmırdı.

Şamxor NKVD-sində döyülə-döyülə öldürülən atası Qədim ağanın 40-ı çıxmamış, 1937-ci il sentyabrın 10-da gecənin yarısı qardaşların böyüyü Xəlil ağanı "qolçomaqsan" deyə üçüncü dəfə həbs edirlər. Əslində, 1933-cü ildə sürgündən qayıdan Xəlil ağanın səsi alınmışdı, onu heç bir sovet idarəsinə, kolxoz işinə yaxın buraxmırdılar. Neçə il idi ki, ailəsini və özünü həyətyanı təsərrüfatı ilə dolandırırdı. Amma istintaqın gedişində onun sovet hökumətini devirməyə, sarsıtmağa, zəiflətməyə və ayrı-ayrı əksinqilabi cinayətlər etməyə çağıran təbliğat və təşviqata meyilli olduğunu boynuna qoyaraq, özünün də iştirakı olmadan keçirilən məhkəmə iclasında fövqəladə üçlüyün 7 oktyabr 1937-ci il tarixli qərarı ilə əmlakı müsadirə edilməklə, "xalq düşməni" elan edilərək 10 il müddətinə - 5 il siyasi hüquqlardan məhrum edilməklə Sibirə - islah-əmək düşərgəsinə sürgün edilir.

* * *

Azərbaycan SSR Ali Məhkəməsi Cinayət İşləri üzrə Məhkəmə Kollegiyasının 1990-cı il 6 mart tarixli qərarı ilə Bədirbəyli Xəlil ağa Qədim ağa oğlu haqqında 1937-ci il 7 oktyabr tarixli qərar ləğv edilmiş, əməlində cinayət tərkibi olmadığı üçün ona bəraət verilmişdir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

● Arxivdən gələn səslər

# Qanlı tarix

Repressiya illərində Azərbaycan ərazisindən 100 minə yaxın ziyalı, hərbçi, mədəniyyət və incəsənət xadimi, alim, yazıçı, müəllim, din xadimi Sibirə, Qazaxıstana və digər yerlərə sürgünə göndərilmişdir.

Bununla da Azərbaycan cəmiyyətinin ağıllı, elmli, istedadlı, əməksevər, mənəviyyatlı təbəqəsinin çox böyük hissəsi məhv edilmişdir. Bu bir faktdır ki, əhalinin hər min nəfərinə düşən repressiya qurbanlarının sayına görə Azərbaycan keçmiş sovet respublikaları içərisində birinci yerdə durmuşdu. Əgər 20-ci illərdə birmənalı olaraq "əksinqilabçı" adı ilə cümhuriyyətçilər, yaxud müsavatçı və ittihadçılar məhv edilir, həbs olunub, Solovki adalarına göndərilirdisə, 1937-ci il repressiyası bir qədər qarışıq olmuşdur. Bu mərhələdə insanlar "xalq düşməni", "pantürkist", "sui-qəsdçi", "panislamist" adları altında məhv edilirdi.

Həmin dövrdə Azərbaycanda qətlə yetirilən insanlarla bağlı xüsusi plan hazırlanmışdı ki, o plana görə 3 ayda 1500 nəfərin güllələnməsi nəzərdə tutulurdu.

1937-ci və 1938-ci illərdə məhkəmədən kənar repressiyalar aparılmasına da qərar verilmişdi. Bütün ölkədə fəaliyyətə başlayan sessiya 15 dəqiqə ərzində dövlət ittihamçısının, vəkilin, bir çox hallarda müqəssirin iştirakı olmadan qərar çıxarmışdır.

Azərbaycanın Qazaxıstandakı səfirliyinin məlumatına görə, Stalin repressiyaları illərində Qazaxıstanda 150 min azərbaycanlı öldürülüb və bunlardan 28 min nəfəri məhkəmə və istintaq olmadan güllələnib.

*"Azərbaycan"*

*Təkrar*

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

### Saatlı rayonu, R.Səfərov adına Qara Nuru kənd 1176 şagird yerlik tam orta məktəbin bərpa-gücləndirilməsi və əsaslı təmiri işlərinin satın alınması ilə bağlı

### *açıq tender elan edir*

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar:

Əlaqələndirici şəxs - Z.Quliyev.
Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.
Tel.: (+99412) 465 73 48 (134).

Maraqlananlar açıq tender prosedurunun Əsas şərtlər toplusunu 2000,00 (iki min) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**

| | |
|---|---|
| **Kod:** | **805603** |
| **VÖEN:** | **9900001881** |
| **M/h:** | **AZ03NABZ01350100000000002944** |
| **S.W.I.F.T.** | **İBAZAZ 2X** |
| **H/h:** | **AZ88IBAZ38030019441856517211** |
| **VÖEN:** | **1500016711** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. 28 avqust 2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (28 avqust 2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı və ya müvafiq kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş arayış. 28 avqust 2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 28 avqust 2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (Əlavə 1) (Təqdim olunması məcburidir. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə məlumatlar və müvafiq sertifikatlar əlavə edilməlidir. Müvafiq məlumatlar tələb olunan təsdiqedici sənədlər əlavə olunmaqla təqdim edilməlidir);*
- *iddiaçı baş podratçı kimi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (oxşar işlərə dair son 2 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçının maddi texniki bazası (sifarişi yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçının tender təklifi (tender təklifinin qüvvədəolma müddəti zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədəolma müddəti tender təklifinin qüvvədəolma müddətindən 30 (otuz) bank günü çox olmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **02 oktyabr 2023-cü il saat 18:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **10 oktyabr 2023-cü il saat 11:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **11 oktyabr 2023-cü il saat 18:00-da** Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi Sumqayıt şəhər 36 nömrəli 1296 şagird yerlik tam orta məktəbin bərpa-gücləndirilməsi və əsaslı təmiri işlərinin satın alınması ilə bağlı

### *açıq tender elan edir*

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar:

Əlaqələndirici şəxs - Z.Quliyev.
Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.
Tel: (+99412) 465 73 48 (134).

Maraqlananlar açıq tender prosedurunun Əsas şərtlər toplusunu 2000,00 (iki min) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

| | |
|---|---|
| **Bankın adı:** | **"Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı** |
| **Kod:** | **805603** |
| **VÖEN:** | **9900001881** |
| **M/h:** | **AZ03NABZ01350100000000002944** |
| **S.W.I.F.T.** | **İBAZAZ 2X** |
| **H/h:** | **AZ88IBAZ38030019441856517211** |
| **VÖEN:** | **1500016711** |

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. 28 avqust 2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (28 avqust 2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı və ya müvafiq kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş arayış. 28 avqust 2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 28 avqust 2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (Əlavə 1) (Təqdim olunması məcburidir. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə məlumatlar və müvafiq sertifikatlar əlavə edilməlidir. Müvafiq məlumatlar tələb olunan təsdiqedici sənədlər əlavə olunmaqla təqdim edilməlidir);*
- *iddiaçı baş podratçı kimi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (oxşar işlərə dair son 2 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçının maddi texniki bazası (sifarişi yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 (otuz) bank günü çox olmalıdır).*

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 03 oktyabr 2023-cü il saat 15:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 11 oktyabr 2023-cü il saat 11:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 12 oktyabr 2023-cü il saat 15:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

### *açıq tender elan edir*

Abşeron rayonu, Qobu qəsəbə 3 nömrəli 240 şagird yerlik tam orta məktəbin əsaslı təmiri və 22 əlavə sinif otağının tikintisi işlərinin satın alınması.

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar:

Əlaqələndirici şəxs - Z.Quliyev.
Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.
Tel: (+99412) 465 73 48 (134).

Maraqlananlar açıq tender prosedurunun Əsas şərtlər toplusunu 2000,00 (iki min) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

| | |
|---|---|
| **Bankın adı:** | **"Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı** |
| **Kod:** | **805603** |
| **VÖEN:** | **9900001881** |
| **M/h:** | **AZ03NABZ01350100000000002944** |
| **S.W.I.F.T.** | **İBAZAZ 2X** |
| **H/h:** | **AZ88IBAZ38030019441856517211** |
| **VÖEN:** | **1500016711** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar açıq tender prosedurunda iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir.) Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (01.09.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (01.09.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı, probasiya şöbəsi və ya müvafiq kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş arayış) (01.09.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 01.09.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçı inşa etdiyi analoji tikililər barədə "Tikinti obyektinin istismarına icazə" sənədinin surətini və ya inşasını davam etdirdiyi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (baş podratçı kimi analoji işlərə dair son 2 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;*
- *iddiaçının maddi-texniki bazası (sifarişin yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır);*
- *iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 16 oktyabr 2023-cü il saat 12:00-a qədər, tender təklifi və tender təklifinin bank təminatını 24 oktyabr 2023-cü il saat 12:00-a qədər yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 25 oktyabr 2023-cü il saat 12:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***

## YAŞIL KART SİSTEMİ ÇƏRÇİVƏSİNDƏ FƏALİYYƏT GÖSTƏRMƏK HÜQUQU OLAN SIĞORTAÇILAR BARƏDƏ ELAN

Yaşıl Kart sığorta növü üzrə İcbari Sığorta Bürosunun iştirakçı sığorta şirkətləri bunlardır: "AtaSığorta" ASC, "Atəşgah Sığorta" ASC, "Azərbaycan Sənaye Sığorta" ASC, "Azərbaycan Dövlət Sığorta Kommersiya Şirkəti", "Bakı Sığorta" ASC, "Meqa Sığorta" ASC, "Naxçıvansığorta" ASC, "Paşa Sığorta" ASC, "Qala Sığorta" ASC, "Xalq Sığorta" ASC.

## Uzun illər bağlı qalmış 3 qəsdən adam öldürmə cinayətinin üstü açılıb

Ötən illərdən bağlı qalmış cinayət işlərinin açılması məqsədilə aidiyyəti dövlət qurumları tərəfindən birgə fəaliyyət həyata keçirilir. Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Penitensiar Xidmətin birgə fəaliyyəti nəticəsində əvvəlki illərdən bağlı qalmış bir neçə xüsusilə ağır-qəsdən adam öldürmə cinayətlərinin üstü açılıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Ədliyyə Nazirliyinin Penitensiar Xidməti birgə məlumat yayıb. Belə ki, 1998-ci il fevralın 7-də Qərib İbadova odlu silahdan naməlum şəxs tərəfindən atəş açılaraq qəsdən öldürülməsinə cəhd edilməsi, həmin il iyunun 20-də isə Ramiz Nadirovun naməlum şəxs tərəfindən odlu tapança silahından atılan atəşlər nəticəsində qəsdən öldürülməsi faktları üzrə cinayət işləri başlanıb.

Toplanmış sübutlarla hər iki əməlin eyni şəxs tərəfindən törədilməsi ehtimal olunduğundan cinayət işləri bir icraatda birləşdirilərək ibtidai istintaqın davamı Baş Prokurorluğun İstintaq idarəsinə həvalə edilib.

Bundan başqa, 2001-ci il dekabrın 6-da Bakı-Qazax yolunun sol tərəfində, dərənin içində, üzərində zorakılıq əlamətləri olan paltarsız naməlum kişi meyitinin aşkarlanması faktı üzrə başlanmış cinayət işi istintaqın davam etdirilməsi üçün Baş Prokurorluğun İstintaq idarəsinə göndərilib.

İstintaq zamanı naməlum kişi meyitinin Dadaş Hüseynova məxsus olması, Dadaş Hüseynovun isə Qərib İbadovla Ramiz Nadirova qarşı törədilmiş cinayətlərin icraçısı olmasına əsaslı şübhələr müəyyənləşdirilib.

Belə ki, 1 saylı Taxıl Məhsulları Kombinatının direktoru vəzifəsində işləmiş Vahid Haşımovun pul müqabilində sürücü-mühafizəçisi Qulu Muxtarova Qərib İbadov və Ramiz Nadirovu öldürülməsini sifariş etməsinə, bu "sifariş"lərin isə Dadaş Hüseynov tərəfindən pul müqabilində icra olunmasına əsaslı şübhələr müəyyən edilib.

İstintaqla həmçinin Qulu Muxtarovun törədilmiş cinayət əməllərindən xəbərdar olmaqla onu sonradan icra etdiyi cinayətlərə görə əlavə pul almaq üçün hədələyən Dadaş Hüseynovu 2001-ci il dekabrın 3-də Mirələm Seyidəliyev və Mətləb Fərzaliyevlə qabaqcadan əlbir olan bir qrup şəxs halında öldürmələrinə əsaslı şübhələr müəyyən edilib. Vahid Haşımov (sifarişçi) və Qulu Muxtarov (icraçı) cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb olunub, məhkəmənin qərarları ilə həbs qətimkan tədbiri seçilib.

Mirələm Seyidəliyev və Mətləb Fərzaliyevin vəfat etmələri nəzərə alınmaqla, qanuna müvafiq qərarlar qəbul edilib.

Hazırda cinayət işi üzrə istintaq davam etdirilir, qeyd olunan cinayət əməllərinin törədilməsində iştirakı olmuş bütün şəxslərin istintaqa cəlb olunması təmin ediləcək.

Qeyd edilib ki, Baş Prokurorluq ötən illərdən bağlı qalmış cinayət işlərinin açılması məqsədilə aidiyyəti hüquq-mühafizə orqanları ilə birgə fəaliyyəti davam etdirir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəhbərliyi və əməkdaşları Nazirlər Kabineti Aparatının Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri Musa Pənahova bacısı

**ELMİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Nazirlər Kabineti Aparatının Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri Musa Pənahova bacısı

**ELMİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi nazirlik yanında İctimai Şuranın sədri professor Elşad Məmmədova əzizi

**ELMİRA PƏNAHOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Tibb Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsinin kollektivi Uşaq cərrahlığı kafedrasının professoru

**ELMİRA PƏNAHOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5509
Sifariş 2269

Qiyməti 40 qəpik